# COP29 Lyayensiz də keçiriləcək




**Avropa Komissiyasının (AK) rəhbəri Ursula Fon der Lyayenin noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin iqlim sammitinə gəlməyəcəyini yeni gediş hesab etmək olmaz. Qafqazla bağlı problemlərin müzakirəsində fəal olan "kollektiv Qərb"in digər məsələlərlə bağlı mövqeyinin tam fərqli olduğunu dəfələrlə görmüşük.**

Azərbaycan üçün əlverişsiz, naqolay vəziyyətin yaradılması, az qala, onun əsas missiyasına çevrilib. Misal üçün, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sazişini imzalamaqdan ötrü Ursula Fon der Lyayen böyük həvəslə Bakıya təşrif buyurmuşdu. Fəqət indi AK sədri BMT-nin ən nüfuzlu tədbirinə gəlmir. Axı, burada söhbət Azərbaycanın, yaxud bölgənin problemlərindən getmir.

*(ardı 4-cü səhifədə)*





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 246 (30650) 7 noyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Dinamik və davamlı sosial siyasət: yeni mərhələ, növbəti hədəflər



Səhifə ⇨ 8

## Azərbaycan ABŞ ilə tərəfdaşlığı bütün sahələrdə genişləndirmək və dərinləşdirmək əzmindədir

*Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Donald Trampa*



**Hörmətli cənab Tramp!**

Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə qazandığınız inamlı qələbə dost Amerika xalqının şəxsən Sizə, yürütdüyünüz siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir.

Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.

Siz birinci prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız. Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim.

Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır.

Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

Əminəm ki, Azərbaycan-ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bir daha Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Amerika xalqının rifahı naminə qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 noyabr 2024-cü il**

## Türk Dövlətləri Təşkilatı qardaş xalqların dostluq qalasına çevrilir



Səhifə ⇨ 2

## Zəfərə gedən yol



Səhifə ⇨ 12

## İrəvan sülh sazişini digər məsələlərə qatmamalıdır

**Son vaxtlar Ermənistan hakimiyyətini təmsil edən bəzi şəxslər Azərbaycan ərazisində həbs edilmiş, ədalət mühakiməsinin hökmü ilə müxtəlif müddətlərə azadlıqdan məhrum olunmuş şəxslər barədə danışmağa başlayıblar.**



Bu istiqamətdə baş nazir Nikol Paşinyanın yaxın adamı, hakim "Mülki müqavilə" partiyasının qurucularından olan parlamentin sədri Alen Simonyanın açıqlaması diqqəti cəlb edir. O, bir neçə gün öncə erməni mətbuatına açıqlamasında deyib: "Azərbaycan və Ermənistan liderləri arasında oktyabrın 24-də Kazanda keçirilən XVI BRICS Sammiti çərçivəsində baş tutan görüş zamanı digər məsələlərlə yanaşı, əsirlər (?) məsələsi də müzakirə olunub".

Qeyd edək ki, Ermənistan və Rusiya mediasında rəsmi İrəvanın Azərbaycan tərəfinə bir neçə "əsir"in azad olunmasını təklif etdiyinə, bunun müqabilində xarici işlər naziri Ararat Mirzoyanın Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-da iştirak etmək üçün Bakıya getməyə hazır olduğunu bildirdiyinə dair yazılar dərc olunmuşdu. Ermənistan parlamentinin sədri isə verdiyi açıqlama ilə faktiki olaraq mətbuatda yayılan məlumatı dolayısı ilə təsdiqləmiş oldu. Həmçinin, onun sözlərinə görə, Ermənistan baş naziri və Azərbaycan Prezidenti sülhün bərqərar olması və kommunikasiyaların açılmasını müzakirə ediblər. Simonyanın sözlərindən məlum olur ki, Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan Kazanda bir saata yaxın müzakirə aparıblar.

*(ardı 7-ci səhifədə)*

## Qarabağ "yaşıl dünya"ya çevrilir



Səhifə ⇨ 10

## Kitab mədəniyyətimizin beynəlxalq təqdimatı



Səhifə ⇨ 14

# "Marksizm - leninizm yolu ilə..."

*Paşinyan, II Qaregin və başqaları COP29-a qarşı mübarizədə proletariat rəhbərlərinin yolunu seçdilər*

**"Bütün ölkələrin proletarları birləşin!" Deyəsən, Ermənistan dövləti və havadarları, o cümlədən, erməni apostol kilsəsi bolşevizmin bu şüarını indi bir qədər fərqli tərzdə ifadə edirlər. Dünya erməniləri Bakıda həbsxana həyatı yaşayan cinayətkarlarını azadlığa çıxarmaq üçün birləşiblər.**



Məsələn, Qarabağdakı artıq canını tapşırmış separatçı rejimin keçmiş rəhbəri, özünü "prezident" adlandıran Arayik Arutyunyana necə cinayətkar deməyəsən? Axı bu zat 44 günlük müharibə zamanı efirə çıxaraq açıqca bəyan etmişdi ki, Gəncənin raket atəşinə tutulması əmrini bilavasitə özü verib. O, eyni zamanda, hədə-qorxu gələrək, eyni halın təkrarlanacağını da vurğulamışdı. Sözügedən raket atəşi nəticəsində isə onlarca din azərbaycanlı sakin həyatını itirmiş, yaralanmışdı.

İndi Ermənistan rəhbərliyi, xaricdəki ermənipərəstlər bar-bar bağırırlar ki, Arayik və yanındakılar azadlığa çıxmalıdırlar. Erməni apostol kilsəsi isə farmazonluq edib onların həbsdən qurtulmaları üçün dua edəcəyini bildirib. Duanın üzərinə gələcəyik. Hələlik ümumi şəkildə onu bildirək ki, rəsmi İrəvan havadarlarının köməyi ilə paytaxtımızda keçiriləcək COP29 xüsusunda anti-Azərbaycan təbliğatı aparmaqdadır. Bakı həbsxanalarındakı hərbi əsir kimi qələmə verilən şəxslərin azadlığa çıxmaları istiqamətindəki kampaniya da bu təbliğatın mühüm tərkib hissəsidir. Məqsəd nüfuzlu toplantıda iştirak edəcək ölkələrin nümayəndələrinin diqqətini məsələyə cəlb etməyə və ölkəmizə mövcud istiqamətdə təzyiq göstərilməsinə nail olmağa yönəlib.

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri

## Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü

*Prezident İlham Əliyev Dövlət Başçıları Şurasının iclasında iştirak edib*




**Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün Prezident Administrasiyasına gəldi. Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı. Sonra birgə foto çəkdirildi. Daha sonra Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının iclası keçirildi.**



Qırğız Respublikasının Prezidenti Sadır Japarov Zirvə görüşünün işinə uğurlar arzuladı. S.Japarov çıxışında yaxın günlərdə Azərbaycanda keçiriləcək COP 29 konfransına diqqət çəkərək dedi: “Tezliklə Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçiriləcək. Hörmətli Azərbaycan Prezidenti belə bir böyük Zirvə toplantısına ev sahibliyi edəcək və biz Azərbaycan hökumətinə bu mövzu ilə bağlı hər cür dəstək göstərməyə hazırıq”.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatının türk xalqlarını daha da yaxınlaşdırdığını bildirdi. Kasım-Jomart Tokayev ortaq türk əlifbasının yaradılması, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini vurğuladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli dövlət və hökumət başçıları.

İlk növbədə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür edirəm.

Bu, mənim son iki ildə Qırğız Respublikasına üçüncü səfərimdir. Hər səfərimdə Sadır Nurqojoyeviçin rəhbərliyi ilə ölkədə inkişafın şahidi oluram. Əldə edilmiş bütün uğurlar münasibətilə qardaş Qırğızıstanı



təbrik edirəm.

Həmçinin Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyinə görə Qazaxıstanı təbrik edirəm.

Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir.

Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyil. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib.

Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir.

Son dövrlər Şərq-Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

Hazırda Orta Dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.

Ötən ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ermənistan 30 il davam edən işğal dövründə bu ərazilərdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük Qayıdış Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər.

Fürsətdən istifadə edərək, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür.

Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

*(ardı 3-cü səhifədə)*

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüş



**Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.**



Görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olundu.

Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşünün türk dövlətləri arasında əməkdaşlığın güclənməsi işinə xidmət etdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti bir daha qeyd edildi.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Macarıstan Baş nazirinin təltifolunma mərasimində iştirak edib

**Noyabrın 6-da Bişkekdə Macarıstanın Baş naziri Viktor Orbanın Türk dünyasının Ali Ordeni ilə təltif olunması mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.





## Prezident İlham Əliyevin Qırğızıstana səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri noyabrın 6-da başa çatıb.**

Bişkek şəhərinin “Manas 2” Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər yola saldılar.

# Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü



(əvvəli 2-ci səhifədə)

Qırğızıstan dövlətinin başçısı Sadır Japarov çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

*

Daha sonra çıxış edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda yaranan sabitliyin pozulmaması üçün Ermənistanla Azərbaycan arasında sülh razılaşması istiqamətində danışıqların davam etdirilməsinin vacibliyinə toxundu. Türkiyə Prezidenti dedi: "Hörmətli qardaşlarım, Cənubi Qafqazda mövcud olmuş 30 illik münaqişə və qeyri-sabitlikdən sonra sülh və əmin-amanlığa gedən yolun qapıları açılmışdır. Can Azərbaycanın Vətən müharibəsində döyüş meydanında şəhidlər verərək əldə etdiyi tarixi uğurların ən yaxın zamanda sülh müqaviləsinin imzalanması ilə masada da əksini tapmasını ümid və arzu edirik".

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxışında Bakıda keçiriləcək COP29-la bağlı təbriklərini çatdıraraq dedi: "Gələn həftə Bakıda COP29 konfransının başlanması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi bir daha səmimi-qəlbdən təbrik edir, ona böyük uğurlar arzulayıram".

Macarıstanın Baş naziri Viktor Orban çıxışında Azərbaycanın və Türkiyənin ölkəsinin enerji təhlükəsizliyinə töhfə verdiklərini vurğulayaraq dedi: "Biz qonşumuz olmayan Türkiyədən və Azərbaycandan təbii qaz alırıq. Bütün bunlara görə təşəkkürümü bildirirəm".

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətində görülən işlərdən danışdı. Eyni zamanda, TDT qarşısında duran yeni hədəflərə diqqət çəkdi. Qeyd etdi ki, hazırda təşkilata üzv ölkələr arasında həyata keçirilən layihələrdə müasir texnologiyalardan istifadə, süni intellektin tətbiqi, təhlükəsizlik məsələləri, elektron ticarətin təşkili və reallaşdırılması prioritet istiqamətlərdir.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar dili və kökü bir olan türk xalqlarının daha da yaxınlaşması, ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, tarixi İpək yolunun yenidən canlanması, təhsil sahəsində yeni əməkdaşlıqların yaradılması, strateji layihələrin həyata keçirilməsi istiqamətində Türk Dövlətləri Təşkilatının rolunu xüsusi vurğuladı.

*

Sonda sənədlər imzalandı.

**AZƏRTAC**

# Nazirlər Kabinetində görüşlər

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 6-da Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Zuhair Əlharti ilə görüşüb.**



Görüşdə COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında Bakıda keçirilən Dini liderlərin qlobal Sammitinin dünyada dinlərarası dialoqun və körpülərin qurulmasına xidmət etdiyi bildirilib.

Yaşıl gündəliyin təşviqi və iqlim dəyişiklikləri ilə mübarizə, həmçinin dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi ilə bağlı Azərbaycanın ardıcıl səyləri barədə söhbət açılıb.

Z.Əlharti KAICIID tərəfindən həyata keçirilən layihələr barədə məlumat verib.

Görüşdə Azərbaycanın təsisatları ilə KAICIID arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

*

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov həmin gün Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalam ilə də görüşüb.**



Görüşdə COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında Bakıda keçirilən Dini Liderlərin Qlobal Sammitinin əhəmiyyəti vurğulanıb.

Qeyd edilib ki, Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlər keçirilir. Multikulturalizm və tolerantlığın Azərbaycan cəmiyyətinin həyat tərzi olduğu bildirilərək fərqli etnik dəyərlərə, mədəniyyətlərə və dinlərə malik xalqların əsrlər boyu ölkəmizdə davam edən mehriban birgəyaşayışının bunu təsdiq etdiyi vurğulanıb. Müasir dövrdə Azərbaycanda multikulturalizm və tolerantlığın dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildiyi diqqətə çatdırılıb.

2020-ci ildə işğaldan azad edilmiş Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunması bütün İslam dünyası tərəfindən Azərbaycana göstərilən böyük dəstəyin təzahürü kimi qiymətləndirilib.

Müsəlman Ağsaqqalları Şurasının Azərbaycanın İslam həmrəyliyinə verdiyi mühüm töhfələri, həmçinin ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində səylərini yüksək qiymətləndirdiyi bildirilib.

**XQ**

# Milli Məclisdə qəbul



**Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 6-da Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan ilə görüşüb.**

Sahibə Qafarova Dünya dini liderlərinin qlobal Bakı Sammitinin çox aktual məsələlərin müzakirə edildiyi mühüm bir platforma olduğunu söyləyib.

O, diqqətə çatdırıb ki, Azərbaycanda multikulturalizmin, tolerantlığın və dinlərarası dialoqun təşviqi həmişə xalqımızın həyat tərzi və dövlət siyasəti olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nəinki regionda, bütün dünyada tolerantlıq, multikulturalizm, qarşılıqlı anlaşma kimi humanist dəyərləri təbliğ edir.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, COP29 çərçivəsində Milli Məclis və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə parlament konfransı keçiriləcək. Bu konfransın da aktual məsələlərin müzakirəsi baxımından mühüm bir fürsət olacağına əminlik ifadə edilib.

Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan Dini Liderlərin Qlobal Sammitinin yüksək səviyyədə təşkilinə və onun Azərbaycana səfərinə yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

**XQ**

# Gürcüstanın Baş nazirinin azərbaycanlı həmkarına minnətdarlığı

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova məktub ünvanlayıb.**

Məktubda deyilir: "Gürcüstanda keçirilmiş parlament seçkilərində əldə olunmuş qələbə münasibətilə göndərdiyiniz təbrikə və xoş arzulara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək Gürcüstanla Azərbaycan arasında möhkəm tərəfdaşlıq əlaqələrini daha da gücləndirmək üçün hazır olduğumuzu bir daha təsdiqləmək istəyirəm. Ölkələrimiz arasındakı strateji münasibətlər regionda sülh və sabitlik üçün olduqca əhəmiyyətlidir və inanıram ki, birgə səylərimizlə bütün sahələrdə gələcək əməkdaşlığımız daha da möhkəmlənəcəkdir".

# İkili standartların COP29 qərəzi

**Bakı Dövlət Universiteti və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə "İnformasiya müharibəsi: COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının məqsəd və mahiyyəti" mövzusunda dəyirmi masa keçirilib.**



Mətbuat Şurasının sədri Rəşad Məcid informasiya təhlükəsizliyinin milli təhlükəsizliyin bir halqası kimi mühüm əhəmiyyətə malik olduğunu bildirib: "Xüsusilə də COP29 ərəfəsində Azərbaycana qarşı aparılan informasiya müharibəsinin daha çox şahidi oluruq. Yanlış xəbərlərin vaxtında yalanlanması, ifşası ümumi prosesə müsbət təsir göstərir, bunun qarşısının alınması baxımından medianın üzərinə mühüm məsuliyyət düşür".

BDU rektoru Elçin Babayev isə qeyd edib ki, bu gün Azərbaycan COP29 konfransının ən yüksək səviyyədə təşkili üçün bütün imkanlarını səfərbər edib. Lakin Azərbaycan dövlətinin əldə etdiyi uğurlar, beynəlxalq arenada nüfuzunun gündən-günə artması, qlobal təşəbbüslərin əsas iştirakçılarından birinə çevrilməsi, bədxah qonşularımız da daxil olmaqla, bir sıra xarici qüvvələri qıcıqlandırır.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə, Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli, "APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, BDU-nun jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli çıxışlarında qeyd ediblər ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi uğurdan, bu bölgədəki planların üzərindən xətt çəkilməsindən narahat olan qüvvələr COP29 tədbirinin Azərbaycanda keçirilməsindən narahatlıq keçirirlər. Diqqətin Azərbaycana yönəldiyi belə həssas dövrdə ölkəmizi ləkələməyə, beynəlxalq ictimaiyyətdə mənfi imic formalaşdırmağa çalışırlar.

Sonda tədbir iştirakçılarının adından xarici ölkələrə, müxtəlif beynəlxalq qurumlara birgə bəyanatın göndərilməsi barədə qərar qəbul olunub.

**XQ**

# Ceyhun Bayramov TDT XİN Şurasında



**Noyabrın 6-da xarici işlər naziri Ceyhun Bayramov Qırğız Respublikasının paytaxtı Bişkek şəhərinə işgüzar səfəri çərçivəsində Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 11-ci iclasında çıxış edib.**

Çıxışda TDT çərçivəsində iqtisadi-ticarət, nəqliyyat və kommunikasiyalar, enerji təhlükəsizliyi, rəqəmsal texnologiyalar, mədəniyyət və digər sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri, ölkəmizin təşkilatın gücləndirilməsi istiqamətində təşəbbüsləri və baxışı, habelə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyindən ətraflı bəhs olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin ailəmiz hesab etdiyi Türk dünyası çərçivəsində əməkdaşlığa strateji baxışının əsasında ölkəmizin təşkilatın gücləndirilməsi istiqamətində səy və təşəbbüslərini davam etdirmək niyyəti diqqətə çatdırılıb, bu istiqamətdə TDT Katibliyinin heyət və büdcəsinin artırılmasının əhəmiyyəti qeyd olunub.

Beynəlxalq qurum və təsisatlara inamın azaldığı bir dövrdə tarixi Naxçıvan sazişi ilə əsası qoyulmuş TDT-nin yaradılmasından ötən 15 il ərzində təşkilatın bölgədə və dünyada etibarlı regional təşkilata çevrilməsinin məmnunluq doğurduğu qeyd edilib.

İclasın sonunda xarici işlər nazirləri tərəfindən "Türk Dövlətləri Təşkilatı yanında Daimi Nümayəndələr haqqında Əsasnamənin təsdiq edilməsi haqqında Qərar" və "Türk dünyasının birliyinə töhfəyə görə Əlişir Nəvai Beynəlxalq Mükafatının Türk Dövlətləri Təşkilatına verilməsi haqqında Qərar" imzalanıb.

**XQ**

# Qlobal Bakı Sammiti başa çatdı



**Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda Bakıda keçirilən Dünya dini liderlərinin qlobal Sammiti noyabrın 6-da başa çatıb.**

Sammit işini Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə keçirilən plenar iclasla davam etdirib.

Tolerantlıq və Sülh uğrunda Qlobal Şuranın sədri Ahmed Mohamed Aljarwan Alshamsi, Misir diyarının Baş müftisinin müşaviri İbrahim Neqm, Mərmərə Qrupu Fondunun prezidenti Akkan Suver, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Kholiknazar, Finlandiya Dinlərarası Əməkdaşlıq üzrə Milli Forumunun prezidenti Atik Ali, Türkiyənin cəfəri şiə icmasının başçısı Selahitdin Özgündüz, İordaniya Dinlərarası birgə yaşayış araşdırma Mərkəzinin direktoru Nəbil Həddad, Ümumafrika Kilsələr konfransının Baş katibi Fidon Mvombeki və digər çıxışçılar bütün yaradılanlara hörmət etməyin əhəmiyyəti, qlobal dəstəyi gücləndirmək, ətraf mühitin toxunulmazlığı, müqəddəsliyi, birgə fəaliyyətin vacibliyi barədə fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər. Onlar Sammitə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan dövlətinə təşəkkürlərini bildiriblər.

Tədbirin sonunda COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda keçirilən Dünya dini liderlərinin qlobal Bakı Sammitinin yekun sənədi - Bakı Bəyannaməsi və Dünya dini liderlərinin müraciəti qəbul edilib. Sammit iştirakçıları, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıblar.

**XQ**

# COP29 Lyayensiz də keçiriləcək

## *Bəs Avropa İttifaqı bu ilin sərt qışını Azərbaycan qazı olmadan ötüşdürə bilərmi?*

**(əvvəli 1-ci səhifədə)**

COP29-da dünyanı, ələlxüsus da Avropanı cənginə almış iqlim dəyişikliklərinə qarşı birgə mübarizə məsələləri müzakirə olunacaq. Xanım Lyayenin bu tədbirdə iştirakdan imtina qərarı nə ona nə, rəhbərlik etdiyi quruma, ümumilikdə, Avropa İttifaqına başucalığı gətirir.

AK-nin mətbuat xidmətinin yaydığı məlumatda yer alan "Avropa Komissiyası səlahiyyətlərin ötürülməsi vəziyyətindədir, ona görə də AK-nin rəhbəri öz institusional öhdəlikləri ilə məşğul olacaq" kimi absurd arqumenti elementar məntiqə belə sığmır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenə COP29-a dəvət məktubu cari ilin aprel ayında göndərilib. Üstündən altı ay keçəndən sonra xanım Lyayenin dəvətdən imtina cavabı heç bir halda Avrokomissiyanın daxili prosedur qaydalarının icrası ilə izah edilə bilməz. Ursula Fon der Lyayen COP29-a qatılmayacağını bəyan etməklə bir daha onu göstərdi ki, onun təmsil etdiyi Avropa İttifaqı Azərbaycana deyil, BMT-yə hörmətsizlik nümayiş etdirib. Görünən odur ki, beynəlxalq ictimai rəy, bütün dünyanı narahat edən iqlim dəyişikliyi və yaşıl enerjiyə keçid kimi qlobal problemlər Avrokomissiyanı qətiyyən narahat etmir.



**Mövzu ilə bağlı XQ-yə açıqlamasında Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** Avropa rəsmilərinin hər şeyi öz arşınları ilə ölçdüklərinə, onların istədiyi alınmayanda qayda-qanunun, diplomatik etiketin ikinci plana keçdiyinə diqqəti çəkdi: "İndi Avropanın mühafizəkar bürokratiyası üçün qlobal iqlim məsələsi kənarda qalıb. Onlar bir müddət əvvəl götürdükləri bir sıra öhdəlikləri yerinə yetirməkdən imtina etmişdilər. Oturub bundan sonra nə edəcəkləri barədə düşünürlər. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bu, əslində, Azərbaycanın dəvətindən boyun qaçırmaq deyil. Bu, BMT-nin dünya miqyasında keçirdiyi tədbirdir. Axı, iqlim problemini BMT-nin gündəliyinə gətirən həmin Avropa Komissiyası, qitə dövlətləri olub. Bəs, indi nə oldu? Belə mötəbər tədbirdə boyun qaçırmaqdan ötrü bərk məşğul olduqlarını bəhanə gətirirlər.



Əslində, elə bu faktın özü də Avropa İttifaqının ikiüzlülüyünün bariz nümunəsidir. Moldovada seçkiləri Sandu udanda hamısı birdən hay-harayla onu təbrikə cumdular. Baxmayaraq ki, onun rəqibi Maya Sandunun qələbəsini hələ tanımayıb. Bu tərəfdən isə Gürcüstanı gözümçıxdıya salıblar. Halbuki, baş nazirin qələbəsinə şübhə ilə yanaşsalar da, ortaya hansısa dəlil-sübüt qoymaq iqtidarında deyillər. Düşünürəm ki, burada bizim üçün təzə heç nə yoxdur. Kim istəyirsə gəlsin, istəməyən gəlməsin. Azərbaycan bu beynəlxalq tədbiri ən yüksək səviyyədə keçirməyə hazırdır".

*

Rəsmi statistikaya əsasən, planetin iqlimini ən çox çirkləndirən Avropa qitəsidir. Harada keçirilməsindən asılı olmayaraq, BMT-nin qlobal iqlim sammitində, ilk növbədə, "qoca qitə"nin ən böyük təsisatından – Avropa İttifaqından, onun Avrokomissiyasından "yaşıl dünya"ya keçid üçün ciddi maliyyə dəstəyi gözlənilir. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin COP29-a gəlməməsinin səbəbi kimi Aİ-ni öz öhdəliyini yerinə yetirməkdən, bununla da məsuliyyətdən boyun qaçırmasını göstərmək olar.

Avrokomissiyasının rəhbəri Ursula Fon der Lyayenin 2022-ci ilin iyulunda Bakıya səfəri zamanı Azərbaycandan Avropaya təbii qazın həcminin artırılmasını xahiş etdiyinə diqqəti çəkən R.Musabəyov bundan ötrü Aİ-nin malik olduğu qaz kəmərlərinin ötürmə qabiliyyətinin qaldırılması problemini hələ də həll etmədiyi faktını dilə gətirdi: "Bəlkə Azərbaycan gedib Avropa İttifaqının ərazisində, Adriatik dənizdən İtaliyaya qədər olan kəmərin genişlənməsinə vəsait xərcləməlidir? Qoy özləri zəhmət çəkib infrastrukturu təkmilləşdirsinlər. Üstəlik, onlar bu layihəyə cəlb olunacaq kreditlərə tətbiq etdikləri qadağaları aradan qaldırmaq barədə düşünməlidirlər. Məgər belə qeyri-ciddi partnyorla əməkdaşlıq etmək olar? Ursula Fon der Lyayen bu suallara cavab vermək iqtidarında olmadığı üçün Bakıya gəlməyə üzü yoxdur".




*

**Gənc Demokratlar İnstitutu İctimai Birliyinin sədri Yeganə Hacıyeva** Avropa Komissiyasının rəhbərinin COP29-a gəlməmək qərarının bir neçə səbəblə bağlı olduğunu göstərdi: "Həqiqətən də, Avropa İttifaqının bir sıra komissiyalarında təhvil-təslim və yerdəyişmə prosesi gedir. Bu zaman komissiya rəhbərlərinin səlahiyyətlərinin limitlənməsi proseduru da baş verir. Həmin prosesin gedişində komissiya sədrlərinin kənar tədbirlərdə iştirakı qeyri-məqbul sayılır. Avrokomissiya rəhbərinin Bakıda keçiriləcək BMT-nin COP29 sammitinə qatılmamasına bu aspektdən dəyərləndirmək mümkündür. Amma Ursula Fon der Lyayen öz təşəbbüsü ilə Bakı Sammitinə gələ bilərdi. Sadəcə, o, komissiya sədri kimi öz maraqlarını üstün tutub. Aİ-yə üzv ölkələrin qış öncəsi enerji təhlükəsizliyi məsələsində xüsusi rolu olan etibarlı tərəfdaşının – Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq tədbirdə iştirak etməməsini onun başçılıq etdiyi quruma və qitənin qayğılarına sədaqətinin itməsi kimi də şərh etmək olar. Buna qədərki mərhələlərdə Lyayen Aİ-nin məlum iqtisadi layihələrinin hamısında Azərbaycana qarşı kifayət qədər sayğılı davranmışdı. Həm də, o, bu əməkdaşlıqda Avropa Şurasının adından iştirak edirdi".

Ursula Fon der Lyayenin Bakı iqlim sammitində ən azı fəxri qonaq kimi iştirakını mümkün sayan Y.Hacıyeva bunu etməməsinin səbəbini də göstərdi: "Bunu onun özünümüdafiə cəhdləri ilə bağlamaq olar. Çünki, güman edirik ki, o, Bakıya səfərindən sonra üzərinə edilə biləcək hücumlardan özünü sığortalamaq üçün belə bir qərar verib. Axı, bildiyimiz kimi, Aİ-də kifayət qədər anti–Azərbaycan qüvvələr mövcuddur".




**Siyasi icmalçı Tofiq Abbasov bildirdi ki,** Avropa Komissiyasının rəhbəri Bakıya gəlsə də, gəlməsə də bu tədbir keçiriləcək: "Dünyanın bir çox dövlətlərinin başçıları, baş nazirləri, BMT-nin ən yüksək səviyyədə rəsmiləri Azərbaycana gəlirlər. Hamımız yaxşı bilirik ki, bu gün iqlim dəyişikliyi, ətraf mühitin çirkləndirilməsi, karbon qazının normadan artıq emissiyası Yer sakinləri üçün çox böyük təhlükələr yaratmaqdadır. Yəni, bu qlobal fəlakətlərlə birgə mübarizə təkcə Azərbaycanın məsələsi deyil. Sadəcə olaraq, Bakı beynəlxalq miqyaslı tədbirlərin keçirilməsində yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirirək COP29-a da evsahibliyi etmək haqqını qazanıb. Bu hüququ Azərbaycana verənlər yaxşı bilirlər ki, yaşıl enerjiyə keçid məsələsində ölkəmiz müsbət təcrübəyə malikdir.

Açıq demək istəyirəm ki, Ursula Fon der Lyayen təcrübəli diplomat, yaxud böyük siyasətçi deyil. O, "kollektiv Qərb"in şübhəli ssenariləri ilə hərəkət edən, bu dalğanın təsirinə düşüb gedən personalardandır. Əgər azacıq siyasi iradəsi olsaydı, Bakının dəvətinə "hə" deyərdi. Azərbaycan artıq dostunu da, düşmənini də yaxşı tanıyır. Dövlət başçımızın dediyi kimi, əldə etdiyimiz Zəfər, bölgədə separatçılığa son qoymağımız həm də bizə kimin kim olduğunu əyani şəkildə göstərdi. Təbii ki, bizim məqsədimiz odur ki, COP29 işgüzar atmosferdə, dialoq və anlaşma şəraitində keçsin, gündəlikdə duran məsələlərin hamısı ilə bağlı müvafiq qərarlar qəbul edilsin və ən əsası, gələcək layihələrin maliyyələşdirilməsi məsələsi öz həllini tapsın. Burada dövlətlərin böyük və ya kiçik olmalarının fərqi yoxdur. BMT üzvü olan bütün ölkələrin bununla bağlı öhdəlikləri var və bu prosesdə hamı iştirak etməlidir".



*

Bəli, ortada məsuliyyət məsələsi var. Bunu Avrokomissiya anlamaq istəmirsə, artıq öz problemidir. Azərbaycan özünə xas qonaqpərvərliklə qapılarını bütün qonaqların üzünə açacaq. Hətta BMT-nin bu nüfuzlu tədbirini keçirmək haqqını bizə güzəştə edən, amma bunun ardınca Azərbaycana gəlməyə hazırlaşan dünya liderlərini, beynəlxalq təşkilatları qınamaqdan usanmayan Ermənistanı da qəbul etməyə, burada onlara əməli və məhsuldar fəaliyyət göstərmələri üçün bütün zəruri şəraiti yaratmağa hazır olduğunu bildirib. Bakı bu müstəvidə öz təcrübəsini bir daha dünyaya nümayiş etdirəcək. Həm də bu qlobal missiyanı böyük məsuliyyətlə yerinə yetirəcək. Buna Avropadakı anti-Azərbaycan qüvvələr kimi, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen də şahidlik edəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

---

**Replika**

# Səfir Balayan və ya Ostap Benderin erməni prototipi

## *Ermənistanın Aİ-dəki təmsilçisi şər və böhtanla "nəfəs alır"*

**Ermənistanın Avropa İttifaqında Tiqran Balayan adlı səfiri var. Sanki dövlət içində dövlətdir. Bakı-İrəvan sülh gündəmi ilə bağlı məsələlərin, sanki, ona heç bir aidiyyatı yoxdur. Özünün şər və böhtan gündəmi var. Əlinə düşən hər imkandaca ölkəmiz əleyhinə hədyanlar yağdırır. Avropa Parlamentinin anti-Azərbaycan mahiyyətli qətnamələrinin, qurumda dövlətimizi ləkələməyə hesablanmış müzakirələr zamanı, az qala, küçə jarqonları ilə edilən ayrı-ayrı çıxışların, belə demək mümkünsə, fəal şparqalka dəstəkçisi də məhz odur.**

Tiqran həyasızlıq baxımından, həqiqətən, çox unikal tapıntıdır. O, tipik erməni obrazının nümunəsidir. Bəlkə, nə zamansa, Azərbaycanla Ermənistan arasında yaxınlıq yaranacaq, ziddiyyətlər tam aradan qalxacaq, xalqlar bir-birinə nifrət deyil, hörmət bəsləməyə başlayacaqlar. Məhz o zaman Balayanın iyrənc cəsədinin hiddət mumiyası kimi muzeydə saxlanılmasına ehtiyac yaranacaq. Deyiləcək ki, bu neandertal keçmişin murdar yaşantısının nümunəsi, utanc yeridir.

Bəli, T.Balayan yenə hoqqabazlıq edib. Amma bir qədər fərqli tərzdə. Deməli, o, Brüsseldəki diplomatik nümayəndəliklərə donos yazıb etiraz edərək bildirib ki, guya, Azərbaycanın Aİ-dəki nümayəndəsi Vaqif Sadıqov onu ölümlə hədələyib. Xəbəri "Politico" nəşri yayıb və hazırda Ermənistanın media orqanları bu cəfəngiyyatı tirajlamaqla, öz aləmlərində, ölkəmizi ləkələməklə məşğuldurlar.

Beləliklə, T.Balayan donosunda yazıb ki, azərbaycanlı diplomat ona şifahi şəkildə hədə-qorxu gəlib, həyatına birbaşa təhdidlər edib. "Politico"nun bildirdiyinə görə, diplomatik təmsilçilər arasında insident Brüsseldə Türkiyə səfirliyinin Cümhuriyyətin elanının 101-ci ildönümünə həsr olunmuş qəbulunda yaşanıb. "Politico" qəbulu 2020-ci ilin 44 günlük müharibəsindən sonra Ermənistan səfirliyinin Ankaranın təşkilatçılığı ilə dəvət olunduğu ilk tədbir kimi xarakterizə edib. Belə görünür, Balayan tədbirdə özünü heç yaxşı aparmayıb.

Onu da xüsusi qeyd edək ki, V.Sadıqov ölkəmizin təcrübəli diplomatlarındandır, ömrünü bu sahəyə sərf etmiş dövlət xadimidir, olduqca mədəni və alicənab insandır. Heç bir halda, onun nəinki kimisə ölümlə hədələməsi, ümumən, nalayiq tərzdə davranması kimi bir durum ola bilməz. Əlbəttə, diplomatik müstəvidə hansısa gərginliyin yaşanması mümkündür və bu, tam normal haldır. Problem isə ondadır ki, T.Balayan kimi məxluqun diplomatiyaya heç bir aidiyyatı yoxdur. Onu adam sayıb hansısa tədbirə çağırırlar, o da başlayır bu sayaq sərsəmləmələrlə gündəmə gəlməyə. Hazırda erməni səfir "12 stul"un məşhur qəhrəmanı Ostap Benderdən heç nə ilə fərqlənmir. Ostap Bender obrazı atın altına düşməsi və məsələ barədə qəzetlərin yazması ilə öyünürdü. Balayan da çox güman, özü barəsində söz açılması ilə qürrələnir. Bu, rəzillik və miskinlikdən başqa bir şey deyil.

Bəli, T.Balayan vaxtaşırı Azərbaycan əleyhinə qərəz uydurmasa, dayana bilmir. Böyük ehtimalla, guya, ağır şəraitdə işlədiyini, həyatına təhlükə olduğunu deyib Ermənistan hökumətindən nə isə əlavə maliyyə də istəyəcək. Şübhəsiz, bu əbləhdən nə desən çıxar. Üstəlik, insidentin Türkiyə tərəfi də var. Erməni diplomat Türkiyə səfirliyində ölümlə hədələnir. Bu, tipik erməni, terrorçu daşnak düşüncə tərzinin məhsuludur. Balayan bu sayaq düşüncə ilə zəhərlənmiş biridir.



T.Balayan, eyni zamanda, erməni avantürizminin, belə demək mümkünsə, parlaq daşıyıcısıdır. Diqqət yetirək, 1994-1999-cu illərdə İrəvan Dövlət Universitetində beynəlxalq münasibətlər üzrə tarixçi ixtisasına yiyələnmiş səfirin müdafiə etdiyi dissertasiyanın adı "Dağlıq Qarabağ mövzusu və beynəlxalq diplomatiya: 1991-1994-cü illər"dir. Bu zavallı nağıl yazdığına görə elmi dərəcə alıb. O, həmçinin Qarabağla bağlı məqalə kimi qələmə verilən çoxsaylı zay təfəkkür məhsullarının da müəllifidir. Deməli, uydurduğu nağıl və hekayələrə inandığından, sərsəmliyə baş vurmasında, ilk baxışdan, təəccüblü heç nə yoxdur.

Hələ başqa bir fakt da var. Sən demə, Tiqran 1997-2000-ci illərdə, yəni hələ ali məktəbi bitirmədən separatçı "Dağlıq Qarabağ Respublikası"nın "Ermənistandakı daimi nümayəndəliyi" adlanan qondarma təsisatda köməkçi də işləyibmiş. Balayan, habelə, sonrakı illərdə Rusiyada diplomatik təhsil alıb, bundan başqa Rusiya-Ermənistan Universitetində dərs deyib. Görünür, onun "zəhərlənməsində" bu amillərin xüsusu rolu var. Axı Rusiya erməni avantürizminin xaricdəki ən qatı təzahür nöqtəsi kimi olduqca münbit platformadır.

Əlbəttə, həyatına təhlükə olduğunu, ölümlə təhdid edildiyini yalnız bu cür tərcümeyi-hala malik ürkək zəncantrop iddia edə bilər. Yeri gəlmişkən, deyək ki, "Politico" azərbaycanlı səfir V.Sadıqovun yayılmış xəbəri təkzib etdiyini, bu cür ittihamların "gülməli" olduğunu dilə gətirdiyini də açıqlayıb. Cənab Sadıqov özünəxas diplomatik üslubda Türkiyə səfirliyinin qəbulunda yaxşı yeməklərin verildiyini, orada gözəl insanların iştirak etdiklərini və toplantının standart diplomatik tədbir kimi keçdiyini bildirib: "Mənim heç bir məktubdan və ya ittihamdan xəbərim yoxdur. Erməni diplomatlar istədiklərini deyə bilərlər".

Görünür, V.Sadıqov erməni diplomatların ağıllarına və ağızlarına gələni danışmalarına öyrəncəlidir. Cənab səfirin "yaxşı yeməklər" və "gözəl insanlar" məntiqi isə milçəyin könül bulandırmaq iqtidarında olmadığının subliminal mesajıdır. Başqa nə desin, onsuz da erməni diplomatiyası təmsilçilərinin sərsəmləməkdən başqa işləri-gücləri yoxdur. Heç şübhəsiz, indi də belə insident uydurublar ki, özlərinin, guya, fəaliyyət göstərdiklərini gözə soxsunlar.

Bilavasitə T.Balayana gəldikdə, əvvəldə onun dövlət içində dövlət olduğunu elə-belədən vurğulamadıq. Tərcümeyi-halından da göründüyü kimi, diplomat qiyafəsinə bürünmüş buqələmun erməni avantürizminin, konkret olaraq, Qarabağ ambisiyasının fəal daşıyıcısıdır. Yəni, onun anti-Azərbaycan köklənişindəki hiddətin səbəbi məlumdur. Belə bir xislətə malik şəxs Ermənistanın hazırda aktiv şəkildə tirajladığı sülh gündəminə qoyulmuş saat mexanizmli bombadır. O, əməlləri ilə rəsmi İrəvanın Bakı ilə barış müstəvisindəki bütün imitasiyalarını pozur.

Yaxşı olar ki, baş nazir Nikol Paşinyan administrasiyası Yura dövrünün qalığı olan diplomatın fəaliyyətinə nəzər salsın. Bəlkə də bunu edib. Çünki Ermənistanın Aİ-dəki səfirliyi "Politico"nun sözügedən insident xüsusundakı cavabına şərh vermək istəməyib. Ola bilər, İrəvanda Balayanın çıxardığı hoqqabazlığın zərərini düşünüblər. Hərçənd, buna da inanmağımız gəlmir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan "Türk əsri"nin lokomotivlərindən biridir



## Bakı Türk dünyasının tərəqqisinə xüsusi töhfələr verir

**Tarixi, mədəniyyəti, adət-ənənəsi və kökləri eyni olan türk dövlətlərinin başçıları bu dəfə Bişkekdə görüşdülər və qarşıda duran vəzifələri müzakirə etdilər. Kütləvi informasiya vasitələrinin yaydığı məlumatda bildirilir ki, Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə çıxış edən Azərbaycan Prezidentinin "Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib" – fikirləri tədbir iştirakçıları tərəfindən məmnunluqla qarşılanıb.**

***Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyildir. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bişkek şəhəri, 6 noyabr 2024-cü il**

Dövlət başçımız əlavə edib ki, bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir.

... Mən bu sətirləri qələmə alanda Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü yenicə başlanmışdı. Ancaq elmi-texniki tərəqqinin yaratdığı imkanlar nəticəsində biz Qırğızıstan paytaxtından operativ xəbərlər ala bildik.

Oradan əlüstü xəbərlər ala bilməsəydik də, Bişkek Sammitinə qədərki dövrdə şahidi olduğumuz faktlar, arqumentlər və müşahidələr istənilən qədər idi. Söhbət ölkəmizin qan qardaşlarımızla birlikdə, möhtəşəm gələcək naminə çıxdığımız yoldakı uğurlarından gedirsə, onda bizim deyiləcək sözümüz çoxdur. .



... Xatırladım ki, Azərbaycan – Türk dünyası əməkdaşlığı, tərəfdaşlığı, dostluq və qardaşlığı barədə danışarkən yada düşən ilk məqam TDT-nin bir əvvəl – ötən il noyabrın 3-də Qazaxıstanın Astana şəhərində keçirilən onuncu – yubiley Zirvə görüşü olur. Çünki həmin sammitə qədərki bütün tədbirlər – fəxrlə yada salırıq ki, bu addım Böyük Turanın qədim diyarlarından olan Naxçıvanda atılmışdır – birgə fəaliyyətin ümumi istiqamətlərini stimullaşdırmağa xidmət edirdisə, o görüş artıq konkret bir məsələnin müzakirəsi məqsədini daşıyırdı. Yəni Astana Sammitinin konkret tezisi var idi: "Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı adlı Zirvə görüşü.

Bəli, beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər nəinki bizi daha mütəşəkkil olmağa çağırır, hətta, belə deyə bilərik ki, tələsdirir. Ölkələrarası münaqişə, müharibə və qarşıdurmalar az imiş kimi, dünyanın bütün güc mərkəzlərində daxili çalxalanma, parçalanma, bir-birinə inamsızlıq kimi hallar sürətlə çoxalır. Bundan başqa, bizə ən yaxın olan İslam dünyası ölkələri də bir-birini dəstəkləməyə tələsmirlər. Türk dünyası isə gündən-günə daha sıx birləşir, daha qüdrətli olmaq üçün zamanın çağırışlarına uyğun addımlar atır. Biz məmnunuq ki, bu prosesdə Azərbaycanın lokomotivlərdən biri kimi fəaliyyət göstərməsi də təqdir olunur, Prezident İlham Əliyevin qətiyyət və prinsipiallığı da.

Bir daha xatırladım ki, adı çəkilən Astana Sammiti bir il əvvəl olmuşdu. Ancaq "mən hələ də o tədbirdə söylənilən fikirlərin məmnunluğunu yaşayıram" – desəm, qətiyyən ifrata varmış olmaram. Çünki Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev həmin gün Prezident İlham Əliyevi və Azərbaycan xalqını ölkəmizin ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edərək demişdi: "Hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan xalqını dövlətçiliyin möhkəmləndirilməsi münasibətilə təbrik edirəm. Ölkəniz ərazi bütövlüyünü bərpa edib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu tarixi addım Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq atılıb".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə Zirvə görüşündəki çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan söz açmışdı: "Sizin də yaxşı bildiyiniz kimi, dost Azərbaycan xalqı Türk dünyasında layiqli yer tutur, böyük hörmətə və nüfuza malikdir. Azərbaycan xalqı son illər əziz dostum İlham Heydər oğlunun rəhbərliyi ilə möhtəşəm uğurlar əldə edir".

Qardaş ölkənin dövlət başçısı əlavə etmişdi ki, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın quruculuq ərazisinə çevrilməsi istiqamətində mühüm nəticələr əldə olunur: "Avqust ayında Şuşa və Füzuli şəhərlərində olarkən irimiqyaslı quruculuq işlərinin, müasir infrastrukturun yaradılmasının, dağıdılmış mədəni irs obyektlərinin bərpasının şəxsən şahidi oldum. Azərbaycan xalqını böyük Zəfər – ölkənin ərazi bütövlüyünün tam bərpası münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm".

TDT üzvü olan ölkələrin ali liderlərinin çıxışlarındakı Azərbaycan reallıqlarını əks etdirən məqamları eşidəndə qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 44 günlük İkinci Qarabağ müharibəsi dövründə söylədiyi "Azərbaycan tək deyil!" qətiyyətini yada salmamaq olmur.

Həmin sammitdə Azərbaycan Prezidenti İlham Əliyev təkcə hansısa türkdilli ölkədə və ya TDT tədbirində deyil, ümumiyyətlə, hər yerdə, bütün çıxış və nitqlərində Azərbaycanın Türk dünyası ilə əməkdaşlığa böyük önəm verdiyini dilə gətirir. Üstəlik, əlavə edir ki, biz bu əməkdaşlığa önəm verməklə kifayətlənmir, çoxsaylı töhfələr də veririk. Biz məmnunuq ki, Azərbaycan rəhbərliyinin bu xidməti haqqında olan təqdiredici fikirləri Ankara, Astana, Daşkənd, Bişkək və Aşqabad liderləri ilə yanaşı Macarıstan Prezidenti Viktor Orbanın da dilindən eşitmişik.

Heç kəsin yadından çıxmayıb, cənab İlham Əliyev növbəti müddətə prezident seçiləndən sonra – bu il fevralın 14-də andiçmə mərasimində çıxış edərkən demişdir ki, TDT bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir: "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır".

Ekspertlər yazırlar ki, rəsmi Bakı türk dövlətləri ilə əlaqələrini ən yüksək formada inkişaf etdirməkdə və vahid türk ailəsinə daha da yaxın olmaqda maraqlıdır və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. İlham Əliyevin TDT-yə üzv ölkələrin inteqrasiyasına və inkişafına töhfələri təkcə Türk dünyasında deyil, eləcə də, beynəlxalq aləmdə hamıya yaxşı məlumdur. Türk xalqlarının liderləri Prezident İlham Əliyevin bu istiqamətdəki fikirlərini daim bölüşür, eyni zamanda, təşkilatın daha da inkişaf etməsi və nüfuzlu beynəlxalq quruma çevrilməsi üçün səy göstərirlər. Onlar etiraf edirlər ki, Azərbaycanın bu təşkilatla bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar və təşəbbüslər TDT-nin gələcək inkişaf trayektoriyasının nədən ibarət olacağına istiqamət verən mayak rolunu oynayır.

Qazaxıstan və Özbəkistandan olan ekspertlər dəfələrlə etiraf ediblər ki, Azərbaycanın İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbəsi təkcə bu ölkənin və azərbaycanlıların maraqlarına uyğun deyildi. Həmin Zəfər Orta dəhlizin reallaşmasında marağı olan bütün Türk dünyasının mənafeyinə xidmət edirdi. Çünki bu Qələbə Türk dünyası ölkələrinin birliyinə daha bir töhfə olacaq Orta dəhliz layihəsinin reallaşdırılmasına zəmin yaratmışdır. İqtisadçı mütəxəssislərin fikrincə, bu dəhlizin üstünlükləri və əhatə coğrafiyası Bakının Türk Dövlətləri Təşkilatının əsas əlaqələndiricisi kimi çıxış etməsinə imkan verir.

Dövlət başçımız dəfələrlə xatırladıb ki, Orta dəhlizin səmərəsini 1 trilyon ABŞ dollarından çox ümumi daxili məhsula malik olan türk dövlətlərinin hamısı görəcək. Hamıya məlumdur ki, Azərbaycan Orta dəhliz layihəsinin əsas vəsilələrindən biridir. Ölkəmizdə dəhlizin inkişafı və səmərəliliyi üçün öz ərazisində zəruri olan bütün infrastruktur vasitələri mövcuddur. Bu dəhliz TDT-yə üzv dövlətlərin əksəriyyətinin yerləşdiyi coğrafiyadan onların yüklərinin Qərb istiqamətində daha qısa zamanda və daha ucuz çatdırılmasını təmin edir.

Ancaq bir məsələ də var ki, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasındakı əməkdaşlığın bizə qazandırdığı mövcud uğurlarla razılaşmır. Anadolu türkləri demiş, Azərbaycan Prezidenti daha böyük nəticələrin peşindədir. Belə ki, dövlət başçımız bu il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında demişdi ki, Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir.

Xatırladaq ki, TDT-nin dünya miqyasında güc mərkəzlərindən birinə çevrilmək üçün mükəmməl potensialı var. Yəni biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Azərbaycan Prezidenti xatırladır ki, bizim zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir: "Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacaqdır".

**İttifaq MİRZƏBƏYLİ**

# Hikmət Hacıyev BMT-nin Ətraf Mühit Proqramına təşəkkürünü bildirib

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Cənubi Qafqaz regionunda iqlim dəyişikliyinin mənfi təsirləri probleminə diqqət yetirdiyinə görə BMT-nin Ətraf Mühit Proqramına (UNEP) təşəkkürünü bildirib.**



Bu barədə H.Hacıyev "X" sosial şəbəkəsindəki səhifəsində yazıb.

"COP29 iqlim konfransı ərəfəsində iqlim dəyişikliyinin daha geniş Qafqaz regionuna təsiri ilə bağlı faydalı hesabata görə UNEP-ə minnətdarıq", - o qeyd edib.

Həmçinin bildirilib ki, anomal istilər və təbii fəlakətlər intensivləşsə də, ekoloji vəziyyətin yaxşılaşdırılması üçün hələ də imkan var.

**XQ**

# YAP rayon təşkilatlarına sədrlər təyin olunub

**Noyabrın 6-da Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.**






İclasda YAP Xətai və Nərimanov rayon təşkilatlarına sədr təyin olunması məsələsinə baxılıb, Ramil Kamil oğlu Mirzəyevin və Elçin Bəybala oğlu Quliyevin namizədliyi ətrafında müzakirələr aparılıb.

Müzakirələrdən sonra Ramil Kamil oğlu Mirzəyevin YAP Xətai rayon təşkilatının, Elçin Bəybala oğlu Quliyevin isə Nərimanov rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub.

**XQ**

# Baş prokurorun Çin heyəti ilə görüşü



**Noyabrın 6-da Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Çin Kommunist Partiyasının İntizam Təftişi üzrə Mərkəzi Komissiyası Katibinin müavini və Milli Nəzarət Komissiyasının sədr müavini Lyu Suesinlə görüşüb.**

Baş prokuror müstəqilliyimizin ilk illərində ulu öndər Heydər Əliyevin, hazırda isə Prezident İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Kamran Əliyev, noyabrın 15-də Baş Prokurorluq tərəfindən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclasın təşkil olunacağı barədə qonağa məlumat verib.

Lyu Suesin səmimi qəbula görə minnətdarlığını ifadə edərək korrupsiya ilə mübarizə sahəsində ölkəmizdə həyata keçirilən islahatları yüksək qiymətləndirib, Azərbaycanın Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəklədiyini vurğulayaraq təşəkkürünü bildirib.

**XQ**

# Mərkəzi Seçki Komissiyasının iclası

**Məzahir Pənahovun sədrliyi ilə noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**



Əvvəlcə Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada noyabrın sonunadək elan olunması nəzərdə tutulan bələdiyyə seçkilərinə hazırlıqlar barədə məlumat verilib. Sonra Komissiyanın oktyabrın 3-də keçirilən iclasının protokolu təsdiq edilib.

İclasda daha sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsinin ardınca 5 saylı Babək-Naxçıvan-Culfa, 21 saylı Nəsimi-Binəqədi, 41 saylı Gəncə-Samux-Goranboy, 78 saylı Lənkəran kənd, 83 saylı Beyləqan və 103 saylı Şəmkir kənd seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişikliklər edilib.

**XQ**

# Tramp ikinci dəfə ABŞ prezidenti seçildi

## *Azərbaycan lideri münasibətlərin daha da möhkəmlənəcəyinə inanır*

**ABŞ-də keçirilən prezident seçkilərində Donald Tramp Floridada tərəfdarlarına müraciət edərək qalib gəldiyini bildirdi və özünü ABŞ-nin 47-ci prezidenti adlandırdı. Seçkilərin nəticələri də cənab Trampın qalib gəldiyini təsdiqləyir. ABŞ seçki sisteminə görə, respublikaçıların namizədi ştatlardakı nümayəndələrin 277-sinin, demokratların namizədi isə 226-nın dəstəyini qazandı. Tam qələbəyə nail olmaq üçün namizədlərdən biri onların 270-nin səsini əldə etməli idi. Nəticələr göstərir ki, cənab Tramp zəruri səsləri toplamağı bacardı. Azərbaycan Prezidenti İlham Əliyev amerikalı həmkarını qələbə münasibətilə təbrik etdi və dövlət başçısı Ağ evin yeni sahibinə ünvanladığı məktubda əmin olduğunu bildirdi ki, Azərbaycan-ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik.**



Xatırladaq ki, cənab Tramp ilk dəfə 2016-cı ildə sabiq dövlət katibi Hillari Klintona qalib gələrək "Amerikanı yenidən möhtəşəm edəcəyik" devizi ilə prezident seçilmişdi. Qlobal koronavirus pandemiyası zamanı 2020-ci il seçkilərində demokrat rəqibi Co Baydenə uduzsa da, təxminən iki illik kampaniyadan sonra 2024-cü ildə yenidən Ağ evə iddia etdi və "Amerikanı bir daha möhtəşəm et" şüarı ilə prezident seçkilərinə qatılaraq qalib gəldi. Viskonsin ştatı ona qalib gəlməsi üçün lazım olan səslərin sayını gətirdi. Seçkilərin nəticəsi yeddi tərəddüd edən ştatdakı nəticələrdən asılı idi. Cənab Trampa 93 səsdən 51 səs lazım idi. Səslərin 95 faizinin hesablanması ilə respublikaçı namizəd Corciya, Şimali Karolina, Pensilvaniya və Viskonsin ştatlarında qalib gəldi. Cənab Tramp Arizona, Miçiqan və Nevada ştatlarında da liderdir.

Ağ evin yeni sahibi tərəfdarları qarşısında çıxışında seçkilərdə qalib gəldiyini elan etdi: "Ölkəmizin bərpasına kömək edəcəyik. Ölkəmizin köməyə ehtiyacı var. Biz sərhədlərimizlə bağlı problemi həll edəcəyik, başqa problemləri də həll edəcəyik... Amerika bizə görünməmiş və güclü mandat verdi", - deyə o bildirdi. Donald Tramp, həmçinin "müharibələri başlamağa deyil, onları bitirməyə" söz verdi. Cənab Tramp əmin etdi ki, onun prezidentliyi "Amerika üçün qızıl dövr" olacaq: "Övladlarımızın layiq olduğu və sizin layiq olduğunuz güclü, təhlükəsiz və firavan Amerikanı yaratmayana qədər dincəlməyəcəyəm... Bizi çox gözəl bir dörd il gözləyir və biz çox xüsusi bir şey etməklə ölkəmizi dəyişəcəyik".

Səslərin hesablanması başlamazdan əvvəl bukmeker kontorları Donald Trampın 60 faiz ehtimalla qalib gələcəyini gözləyirdilər. Bet Online, Polly Market və Kalshi kimi mənbələr proqnoz dəqiqliyi baxımından ənənəvi sorğu aparanları üstələyirlər. Seçki məntəqələrinin bağlanmasından və "exit-poll"un açıqlanmasından sonra Donald Trampın qələbəsi ehtimalı 72 faizə, saat 22:00-da 80 faizə, 23:00-dən sonra isə 90 faizə yüksəldi. Səslərin hesablanmasının ilk nəticələri belə proqnozları təsdiqləməyə başladı. Donald Tramp seçkilərin nəticəsinin asılı olduğu ştatların əksəriyyətində uğurla çıxış etdi (2024-cü ildə bunlar Miçiqan, Viskonsin, Pensilvaniya, Şimali Karolina, Corciya, Arizona və Nevada idi). Təxminən saat 1-də Donald Tramp Georgia ştatında qələbə qazandı. Pensilvaniyadakı yarışı mütəxəssislər xüsusi maraqla izləyirdilər. Çünki 2020-ci ildə oradakı erkən səsvermədə demokratlar 1 milyon səs üstünlüyünə sahib olmuşdular, lakin indiki seçkidə bu rəqəm 400 minə düşdü.

Pensilvaniyada ilkin nəticələr açıqlandıqdan sonra respublikaçı namizədə ilk təbriklər gəlməyə başladı. Onun ən yaxın tərəfdarlarından biri, yeni administrasiyada vəzifə alacağı gözlənilən milyarder İlon Mask X sosial media hesabında belə bir məlumat paylaşdı: "Birləşmiş Ştatlar xalqı Trampa dəyişiklik üçün aydın mandat verdi". Onun sözlərinə görə, ABŞ-də daim yeni dövlət qurumları peyda olur və bu yük vətəndaşların çiyninə düşür: "Mən hökumətin səmərəliliyinin artırılmasına kömək etməkdən məmnun olaram, buna çox ehtiyac duyulur. Bizdə nəhəng bir hökumət bürokratiyası və həddindən artıq tənzimləmə var". Noyabrın əvvəlində İlon Mask bildirmişdi ki, respublikaçı namizəd prezident seçkilərində qalib gələrsə, Donald Tramp ona administrasiyada nüfuzlu mövqe verə bilər. "Reuters" yazmışdı ki, cənab Tramp dünyanın ən varlı insanını müşavir vəzifəsinə təyin edə bilər.

Ağ Evin yeni sahibi artıq dünya liderlərindən təbrik məktubları alır. Azərbaycan Prezidenti İlham Əliyev də Donald Trampa təbrik məktubu ünvanladı. Cənab Trampın seçkilərdə qazandığı inamlı qələbə münasibətilə təbrik edən dövlət başçısı məktubda xüsusilə qeyd edir ki, bu uğur dost Amerika xalqının respublikaçı namizədə, yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir. Ümumiyyətlə, cənab Trampın birinci prezidentlik dövründə ABŞ-Azərbaycan münasibətlərində müsbət dinamika müşahidə olunmuşdu. Avqustun 20-də keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında Prezident İlham Əliyev respublikaçılar hakimiyyəti ilə əlaqələrimizin nəzərəçarpacaq dərəcədə uğurlu və nəticəyönümlü olduğunu bildirmişdi. Dövlət başçısı, həmçinin əlavə etmişdi ki, prezident Trampın dövründə Azərbaycan ilə ABŞ arasında çox səmərəli əməkdaşlığımız olmuşdu və bu əlaqələr qarşılıqlı hörmət üzərində qurulmuşdu və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi. Prezident İlham Əliyev, eyni zamanda, vurğulamışdı ki, ABŞ-la münasibətlərimiz, demək olar, hər zaman sabit olmuşdu.

Azərbaycan münasibətlərdə sabitliyin, qarşılıqlı hörmətin gözlənilməsinin tərəfdarıdır. Rəsmi Bakı münasibətlərdə yersiz dalğalanmaların hərtərəfli əməkdaşlığa zərər verdiyini hər zaman açıqlayır. Bu baxımdan respublikaçıların hakimiyyəti dövründə münasibətlərin inkişafına təsir göstərən süni amillərə yol verilməyəcəyin inam böyükdür. Cənab Trampın azərbaycanlı həmkarına ünvanladığı məktublarda da hər zaman ölkələrarası münasibətlərin strateji xarakteri qabardılır, Bakının geosiyasi və geoiqtisadi əhəmiyyəti xüsusi vurğulanır. 2019-cu ildə 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunda cənab Tramp yazırdı ki, dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur: "Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm".

Xatırladaq ki, Prezident İlham Əliyev 2016-cı il noyabrın 17-də ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Trampa telefonla zəng edərək təbrik etmişdi. Dövlətimizin başçısı cənab Trampa ali dövlətçilik fəaliyyətində uğurlar arzulamış və Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, enerji təhlükəsizliyi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün çox böyük potensialın mövcud olduğunu bildirmişdi. Dünənki təbrik məktubunda da Prezident İlham Əliyev qeyd etdi ki, cənab Tramp birinci prezidentlik dövründə ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırır. Dövlət başçımız bildirdi ki, Azərbaycan Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətinin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindədir.

Diplomatik əlaqələrin qurulduğu vaxtdan Azərbaycan-Amerika münasibətləri sıx tərəfdaşlıq və qarşılıqlı hörmətlə səciyyələnir. Donald Tramp ənənəvi olaraq xarici siyasətini başqa dövlətlərin daxili işlərinə qarışma prinsipləri üzərində qurmaq, onları idarə etmək niyyətində deyil. Amerika prezidentinin məqsədi digər ölkələrlə bir-birinin maraqlarına hörmət əsasında bərabər, qarşılıqlı faydalı əlaqələr qurmaqdır. O, bu prinsipini hər zaman bəyan edir. Bu siyasət son illərdə münasibətlərdə müşahidə olunan müəyyən neqativlərin və anlaşılmazlığın aradan qaldırılmasını, strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsini nəzərdə tutur. Azərbaycan inanır ki, cənab Trampın yeni prezidentlik dövründə bu istiqamət öndə tutulacaq. Prezident İlham Əliyevin təbrik məktubunda qeyd etdiyi kimi, Donald Trampın hakimiyyəti illərində ölkələrimiz arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır.

Əlbəttə, dünyada siyasi proseslərin axarına təsir göstərəcək seçki nəticələrinin respublikaçı namizədin qalibiyyəti ilə yekunlaşması Azərbaycan-Ermənistan münasibətlərinin sonrakı inkişaf perspektivləri baxımından da maraq doğurur. Bakı ilə İrəvan arasında sülh danışıqları, regional kommunikasiyaların açılması və digər əhəmiyyətli məsələlər okeanın o tayında da diqqətlə izlənilir. Azərbaycan regionada daimi və güclü sülhün bərqərar olmasını istəyir. Cənab Trampa təbrik məktubunda Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

Beləliklə, Azərbaycan Prezidenti son məktubunda ABŞ ilə əlaqələrə böyük əhəmiyyət verdiyini vurğuladı. Şübhəsiz, münasibətlərin uzunmüddətli perspektivdə uğurla davam və inkişaf etdirilməsi hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edir. Buna görə də, ümid etmək olar ki, Azərbaycan-ABŞ münasibətləri cənab Trampın hakimiyyəti dövründə yeni mərhələyə qədəm qoymaqla yanaşı, qarşılıqlı faydalı səciyyə daşıyacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Helsinki Yekun Aktı: Təhlükəsizlik 49 il sonra təhlükədə

**II MƏQALƏ**

### Təhlükəsizlik fəlsəfəsinin iflası?

Siyasi liderlərin, alimlərin, geostrateqlərin xəbərdarlıqlarına baxmayaraq, böyük güclər əsas arqument kimi özlərinin güc potensialına hələ də üstünlük verirsə, bu, Qərbin siyasi şüurunda təhlükəsizlik fəlsəfəsinin iflası deməkdir. Çünki öncədən aydındır ki, sənədlərdə yazılanların ruhuna və mahiyyətinə uyğun olmayan faktorlara söykənilirsə, heç zaman təminatlı təhlükəsizlik dünyanın heç bir ölkəsində təmin olunmayacaq.

Üstəlik, müxtəlif bəhanələrlə müstəqil dövlətlərin hüquqları pozulursa, haqları və suverenliklərinə qəsd olursa, ümumiyyətlə, hər hansı qalıcı təhlükəsizlik və perspektivli əməkdaşlıq platformasından danışmaq ciddi görünmür. Müəyyən müddətdə uğurlu olan platformalar subyektiv və qərəzli münasibət və ya zora üstünlük verən siyasi mövqe yaranan andan hər şey puç olub gedir. Dəfələrlə təcrübə bunu sübut etmişdir.

Bu acı reallıq prizmasında Helsinki Yekun Aktının prinsiplərinə baxanda qəribə bir mənzərə alınır. Həm də artıq 50 ili yaxalayan bir müddətdə özünü dünyanın "başbilənləri" sayan ölkələrin qərəzli, riskli, süni və nəticədə yarıtmaz fəaliyyətinin meydana gətirdiyi mənzərə bəşəriyyət adına utancvericidir. Budurmu Qərbun demokratik ruhu, Çinin "harmonik ruhu", Rusiyanın "rus dünyası" iddiasının mahiyyəti?

Xoşa gəldi və ya gəlmədi bəşəriyyət bu kimi suallara əvvəl-axır vicdanla cavab axtarmalıdır. Milyonlarla günahsız insanın qanının axıdılması, onların həyatlarını itirməsi, yurdundan, ailəsindən, sevdiklərindən məhrum olması nəticəsizmi qalacaq? Bunun cavabını kimlər verəcək? Özünü güclü sayan dövlətlərin liderlərimi? Yaxud özünü çoxbilən kimi qələmə verən hiyləgər geostrateqlər və diplomatlarmı? Bəlkə, kəşfiyyat təşkilatları cavab vernəlidir? Ola bilsin ki, kimlərsə süni intellektə arxalanır?

Hər nə isə, bütün bunlar dərindəki və fundamental səbəblər deyildir. Problemin kökü ondan ibarətdir ki, çox sayda dövlətlər yığılıb yüksək səviyyəli sənədlər qəbul edirlər. İmzalanma masasından qalxan kimi nə vədlərinə, nə imzalarına, nə də orada yazılmış müddəalara hörmət edirlər. Onları bütün prinsipial məqamlarda pozurlar! Bunun adı riyakarlıqdır, yaxud dövlət marağıdır – bizim üçün elə fərq etməz. Çünki ortada insan həyatı, millətlərin taleyi və bəşəriyyətin vicdanlılıq məsələsi vardır. Belə isə başqa faktorların elə bir əhəmiyyəti qalmır. İnsan yoxdursa, həyat yoxdur, var ola bilmək şansı yoxdur!

Təhlükəsizlik fəlsəfəsinin iflası, bütövlükdə, bəşər övladının azadlıq perspektivinin iflasıdır! İnsan isə yalnız azad olmaqla əsl həyat sürə bilər! İndi, təsəvvür edək, zora əsaslanan və özünü böyük sayan dövlətlər öz ayaqlarının altını necə qazırlar!

### Alternativ axtarışlar hüququ

Əziz oxucu, sizə qəribə gəlməsin, ancaq qəbul etmək gərəkdir ki, "kimlərsə" müstəqil dövlətlərə alterantiv təhlükəsizlik modelləri axtarmağa haqqının olub-olmamasını müəyyən etmək iddiasına düşmüşlər. Və artıq onilliklərdir k, müxtəlif üsul, bəhanə, şantaj və hədələrlə real alternativ gücün formalaşmasının qarşısını alırlar. Hətta qan töküb, bunu başqasının üstünə atmaq kimi insana yaraşmayan hərəkətlərdən əl çəkmirlər. Dünyanın hər yerində cəmiyyətin bütün təbəqələri səviyyəsində intriqa yaradırlar (bura siyasilər, ziyalılar, kriminal qruplar və hətta adi vətəndaşlar zümrəsi də daxildir). Dövlət səviyyəsində isə aqressora dəstək verib, inkişaf perspektivi olan müstəqil dövləti dağıtmaq üçün müxtəlif hiyləgər və amansız planlar qururlar. Kimlərdir onlar?

Onlar Helsinki Yekun Aktı kimi sözdə gözəl sənədləri imzalayanların ən güclüləri! Onlar dünyada iqtisadi, siyasi, hərbi qüdrəti ilə çox irəli getmiş "böyük dövlətlər"! Konkret olaraq¸ hamı bilir...!

Belə olmasaydı, zəif dövlət olan Ermənistan 30 il qonşu ölkənin torpaqlarını işğal altında saxlaya bilməzdi. Cəmi bir neçə saata ədalətli güc onu oradan çıxarardı. Belə olmasaydı, Vyetnamda, Koreyada, Əfqanıstanda, İraqda, Suriyada, Azərbaycanda və indi Ukaynada milyonlarla insan faciə yaşamazdı. Adını nə qoysalar da, kökündə təhlükəsizlik fəlsəfəsinin iflası gerçəkliyi ilə yanaşı, alternativ təhlükəsizlik nümunəsinin meydana gəlməsinə əngəl törətmələri dayanır.

Dəfələrlə, müxtəlif liderlərin xəbərdar etməsinə baxmayaraq, hələ də BMT-də 5 dövlət Təhlükəsizlik Şurasında at oynadırlar! Nə öz maraqlarına uyğundursa, onu edirlər. Digər alternativlərə veto qoyurlar. Yəni onların qadağa hüququ vardır, lakin bəşəriyyətin sivil qaydada var olmaq hüququ yoxdur. Məhdud sayda dövlət bütün dünyaya nəyisə qadağan edə bilər, lakin müstəqil dövlət suveren yaşamaq üçün kimlərdənsə icazə almalıdır?

Bu ziddiyyətlər keçən əsrin ortalarından qlobal siyasətə də sıçramışdır. Qoşulmama Hərəkatında çoxlu sayda ölkələrin "Qlobal Cənub" adı altında birləşməsi birbaşa yuxarıda vurğulanan ədalətsizliklərin nəticəsidir. Əks halda, hansı ölkənin marağındadır ki, bir məqsəd uğrunda dünyanın müxtəlif regionlarından olan ölkələrlə bir araya gəlsin? Ad həm səbəbi izah edir, həm də əsas məqsədi göstərir. Baxaq, "Qoşulmama"? Nəyə qoşulmamaq? Ən ümumi səviyyədə dünyada ağalıq edən qüvvələrə qarşı düşmən cəbhə yaratmamaq. Proteksionist iqtisadi siyasət yeridənlərə qoşulmamaq. Alterantiv hərbi blok yaratmamaq. Həm də kimlərsə yaradarsa və o, qarşıdurmaya aparıb çıxararsa, ona qoşulmamaq. Bu baxımdan alternativ olmaq, dünya miqyasında ədalət tərəzisinin pozulmaması üçün dialoq apara biləcək mütəşəkkil güc olmaqdır!



Sonra. Konkret olaraq, məcazi mənada söhbət "Cənub"dan gedirsə, deməli, geosiyasi və coğrafi məkan kimi Yerin bu hissəsi "Şimal" adlandırılan kəsimə alternativ yaratmaq məcburiyyətindədir. Mövcud olmanın başqa yolunu görə bilmirlər. Buna görədir ki, artıq neçə onilliklərdir ki, həmin "Şimal" qlobal miqyasda "Cənub"un (Qoşulmama Hərəkatı timsalında) alternativ güc olmasını əngəlləyir.

Bunlara baxmayaraq alternativliyi qəbul etməyənlər üçün də düşündürücü olan reallıq formalaşır. Nəyi nəzərdə tuturuq?

### Fundamental risklərin qloballaşması

Bu, çox təhükəlidir və müasir dünyanın geosiyasi gerçəkliklərinə fundamental olaraq aid olan prosesdir (artıq tendensiyadan proses səviyyəsinə keçid edilmişdir). Onun fəlsəfəsini anlamaq asan deyildir. Çünki indi dünya öncələr rast gəlinməyən məzmunda faktorlarla üz-üzədir. Burada bütün sirlər "fundamentallıq" termininin məzmununda gizlənmişdir.

Geosiyasi aspektdə risklərin fundamentallığı o deməkdir ki, artıq "risk" faktor kimi gerçək məzmununu kənardakı qüvvələrin müəyyən etdiyi xətt üzrə almır – o artıq geosiyasi proseslərin daxili gedişatının avtomatik yaratdığı amildir. Yəni indi qlobal geosiyasi sistem özündən risk yaradan təhlükəli və qeyri-müəyyən şəbəkəyə çevrilmişdir. Ona kənardan "risk sifariş" etməyə ehtiyac qalmamışdır. Uzun illərdir aparılan yanlış, qərəzli, tərəfkeşli diktə siyasəti məhz bu cür geosiyasi mənzərə yaratmışdır. Bununla da risklilik qlobal miqyasda geosiyasi dinamikanın tərkib hissəsi kimi "təbii" olmuşdur!

Bu, artıq dünyanın taleyində hər kəsin – ən zəif gücündən tutmuş, ən böyük gücünə qədər bütün ierarxiyaların eyni dərəcədə məsuliyyət daşıması deməkdir! İndi Amerika və ya Çin, olsun ki, Rusiya, nəinki, təkbaşına, hətta bir yerdə belə vəziyyəti keyfiyyətcə dəyişə bilməzlər! Xristian dünyası birləşsə belə, bu vəzifənin öhdəsindən gələ bilməyəcək. Təhlükəsizliyin təmini və risklərin neytrallaşdırılması vahid, "canlı" və dinamik dəyişən mürəkkəb sistem kimi bütün bəşəriyyətin ortaq vəzifəsi halına gəlmişdir!

Bu yanaşma kontekstində hansısa konkret çıxış yolu modeli göstərmək niyyətimiz yoxdur. Bu, siyasi liderlərin və çoxlu sayda alimin ortaq işi ola bilər. Lakin bir sıra düşüncələrimizi paylaşa bilərik.

Öncə, bir sual qoyaq: Hazırda qlobal miqyasda dünyanın təhlükəsizlik məsuliyyətini hansı təşkilat və onun hansı strukturu öhdəsinə götürmüşdür? BMT və onun Təhlükəsizlik Şurası (TŞ)! Aydın görünür ki, nə bütöv təşkilat kimi BMT, nə də onun konkret altqurumu olan TŞ üzərinə düşən vəzifənin öhdəsindən gələ bilir. Belə olmasaydı, indi hətta TŞ üzvləri belə hərbi toqquşma səviyyəsinə gəlib çatmazdılar. Deməli, ilk addım məhz BMT və TŞ-dən atılmalıdır.

Ümumiyyətlə, həm BMT yeniləşməli, orada struktur-funksional və strateji planlaşdırma islahatları aparılmalı, həm də TŞ-nin fəaliyyət fəlsəfəsi də daxil olmaqla tərkibi yeniləşməlidir – daha geniş tərkibdə və eyni məsuliyyətdə çox sayda dövlətlər ora daxil olmalıdırlar! Onlar dünyanın bütün kəsimlərini təmsil edənlər olmalıdırlar ki, bəşəri məsuliyyət bölüşsün. Siyasi, geosiyasi, iqtisadi, dini, mədəni, ideoloji və s. mühüm faktorlara görə, TŞ yenidən təşkil edilməlidir. Hazırkı model dəyişməsə, qaldığı sürədə qlobal təhlükəsizlik və qalıcı əməkdaşlıq xəyal olaraq qalacaq. Bunun nə demək olduğunu dərindən anlamaq üçün, məsələn, Ulu öndərin 1994-cü il və 1995-ci illərdə BMT-dəki çıxışında vurğuladığı məqamlara, R.T.Ərdoğanın dəfələrlə ifadə etdiyi fikirlərə, Azərbaycan Prezidenti İlham Əliyevin həmin kontekstdə qiymətli, gerçəkçi və ədalətli tezislərinə bir daha baxsınlar! Faydası olar!

Alternativ geosiyasi gücün formalaşmasının digər şərtlərindən biri kimi regionlararası münasibətlərdə regional təşkilatların rolunun keyfiyyətcə yeniləşməsini görürük. Bunun üçün sağlam niyyətli regional təşkilatlar qarşılıqlı münasibətlərini sistemli olaraq müasir dövrün tələbləri çərçivəsində və tamamilə beynəlxalq hüququn normaları daxilində qurmlıdırlar. Burada beynəlxalq hüququn normaları çərçivəsi mütləqdir. Çünki yalnız bu üsulla dövlətlər və regionlararası münasibətləri ədalətlilik, təhlükəsizlik və qarşılıqlı faydalı əməkdaşlıq müstəvisində qalıcı müəyyən etmək olar.

Hazırda alternativ konstruktiv geosiyasi güc nümunəsi formalaşır. Bu, Qoşulmama Hərəkatı, BRIKS, TDT və MDB-nin ortaq olaraq pozitiv regionlararası geosiyasi mühit yaratmaq imkanları ilə bağlıdır. Bu təşkilaların birgə fəaliyyət kriteriyalarını razılaşdırdıqları andan qlobal miqyasda proseslərə təsir şansları da çoxalmış olur. Onların hər birində Azərbaycanın iştirakı vardır.

Azərbaycan TDT-nin aparıcı dövlətlərindən biridir. Qoşulamama Hərəkatında böyük hörməti vardır. Deməli, yeni konstruktiv qlobal geosiyasi gücün formalaşmasında Azərbaycanın xüsusi yeri ola bilər. Geniş kontekstdə isə Azərbaycan – Türkiyə tandeminin təsiri kifayət qədər hiss olunur. Nəhayət, qlobal miqyasda alternativ geosiyasi gücün Pekin-Moskva-Bakı-Ankara geosiyasi və coğrafi məkanında formalaşması ehtimalı yüksəkdir! TDT-nin Bişkek Zirvəsi həm də bu baxımdan əhəmiyyətlidir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Marksizm - leninizm yolu ilə…”

(əvvəli 1-ci səhifədə)

Görünür, Ermənistanın Rusiyaya yeni təyin edilmiş səfiri Qurgen Arsenyan da kampaniyada iştirak edir. O, etimadnaməsini Rusiya Prezidenti Vladimir Putinə təqdim etdikdən sonra jurnalistlərə açıqlama verib və deyib ki, Azərbaycandakı “erməni əsirlərin” azad edilmələri İrəvanla Bakının barışmasına kömək olacaq. Əlbəttə, diplomat erməni hakim komandasının üzvü kimi hansı nöqtəni hədəfə aldığını pis bilmir. Diqqət yetirək: “Əgər indi Ermənistan və Azərbaycan sülh müqaviləsinə doğru irəliləyirlərsə, bütün dünyaya bəyan edirlərsə ki, iki dövlət, iki xalq sülh və əməkdaşlıq şəraitində yaşayacaq, o zaman biz qiymətləndirilməli addımlardan başlamalıyıq”.

Səfir Arsenyanın haqqında söz açdığı məsələyə etimad quruculuğu demək daha məqbuldur. Ancaq is ondadır ki, 44 günlük Vətən müharibəsindən ötən müddətdə rəsmi İrəvan bununla bağlı heç bir iş görmədi, yalnız Azərbaycanın təklif və təşəbbüslərinə qarşı çıxdı, habelə müxtəlif təxribatlar həyata keçirərək, qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqla məşğul oldu, hərbi diversiyalara əl atdı. Yeri gəlmişkən deyək ki, Bakıda məhbus ömrü sürən ermənilər sırasında məhz kəşfiyyat-diversiya fəaliyyəti reallaşdırarkən saxlanılanlar da var. Özü də onlar əməllərini 44 günlük müharibədən sonra gerçəkləşdirənlərdir. Bu tip şəxslər hərbi əsir sayıla bilməzlər. O ki qaldı, Qarabağdakı separatçı rejimin sabiq rəhbərlərinə, bu şəxslər Azərbaycanın konstitusiyon dövlət quruluşunu şübhələndirmək niyyətinə düşənlərdir və heç şübhəsiz, belələri də sıravilikdən çıxıblar. Əbəs yerə A.Arutyunyandan söz açmadıq.

Yəni, səfir Arsenyan bu cür adamların azadlığa çıxmaları ilə bağlı məsələni etimad quruculuğu kontekstində dəyərləndirə bilməz. Amma dəyərləndirir və beləliklə manipulyasiyaya yol verir. Tam aydındır ki, diplomat yeni fəaliyyətə başladığı postda mövcud istiqamətdə daha “ciddi” addımlar atmağa başlayacaq. Deməli, Ermənistan və Azərbaycan arasında etimad quruculuğu tədbirlərinə zərbə vuracaq.

Maraqlıdır ki, Q.Arsenyan qondarma “Dağlıq Qarabağ Respublikası”nın keçmiş dövlət naziri və çirkli pulların yuyulması sahəsində ad çıxarmış iş adamı Ruben Vardanyanın həbsdən azad edilməsi xüsusundakı ayrıca sualı şərh etmək istəməyib. Yalnız ümumi şəkildə onu bildirib ki, rəsmi İrəvan üçün Ermənistan vətəndaşları arasında heç bir fərq yoxdur. Amma səfir gözünün içinə qədər yalan deyir. Çünki baş nazir Nikol Paşinyanın və onun komandasındakı şəxslərin R.Vardanyandan zəhləsi gedir. Onlar bu məxluqa Rusiyanın adamı kimi yanaşırlar. Qeyd edək ki, Vardanyan dəfələrlə anti-Paşinyan mövqeyi tutub, hökumət rəhbərini təhqir səviyyəsinə çatan dərəcədə aşağılayıb, hətta Ermənistandakı hakimiyyəti devirməyə çağıran bəyanatlar səsləndirib. Bəs, o birilər?

O birilərdən söz açmazdan əvvəl səfir Arsenyanın “vətəndaşların müdafiəsi” ritorikası üzərində dayanaq. Bəli, Bakı həbsxanalarındakı kəslər Ermənistan vətəndaşlarıdır. Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycan ərazisidir. Elə isə ortaya elementar sual çıxır: Ermənistan vətəndaşlarının Azərbaycan ərazisində nə işləri var idi? Yəni, diplomatın məsələni ölkəsinin kimliyi daşıyan şəxslərin azadlığa çıxmaları xüsusunda qoyması düzgün deyil. Belə də erməni diplomatiyası üçün düzgünlük anlayışının tamam başqa parametrlərinin olduğunu bilir və Arsenyanın fikirlərinə qətiyyən təəccüblənmirik.

Bəs görəsən nə üçün rəsmi İrəvan A.Arutyunyanla yanaşı, Bako Saakyan, Arkadi Qukasyan, David Manukyan, Levon Mnatsakanyan və David Babayan kimi şəxslərin azadlığa çıxmalarını da istəyir? Axı onlar da zamanında mahiyyətcə Nikola qarşı idilər. Məsələ çox sadədir. Adlarını çəkdiyimiz şəxslərin R.Vardanyan kimi təsir qüvvələri yoxdur. Onun qədər pulları heç yoxdur. Şübhəsiz, bu şəxslər də İrəvanda olsalar, hansısa formada Nikola və tərəfdarlarına problem yarada bilərlər. Ancaq indiki durumda Paşinyan erməni avantürizminin, belə demək mümkünsə, şah damarına işləmək istəyir. Çalışır ki, adları çəkilənlərin azadlığa çıxmalarına nail olmaqla, daxildə nüfuzunu qaldırsın. Hər halda, xəstə erməni cəmiyyətini yaxşı tanıyır. Zaman keçdikcə isə həm Qukasyanı, həm Saakyanı, həm də digərlərini yavaş-yavaş neytrallaşdıra bilər. Nikolun onlara qarşı müxtəlif ittihamlar irəli sürməsi su içimi kimi bir şeydir. Onsuz da “vəzifədə” olduqları müddətdə hər cür əməllərdən çıxıblar və dərin çirkab içərisindədirlər.

İndi isə keçək erməni kilsəsinin Azərbaycandakı hərbi əsir kimi qələmə verilən şəxslərin azadlığa çıxmaları ilə əlaqədar



“canfəşanlığına”. Məlum olduğu kimi, bütün ermənilərin katolikosu II Qareginin təşəbbüsü ilə noyabrın 10-da dünyadakı erməni kilsələrində Ermənistanda sülh və ədalət, həmçinin Bakıda “qanunsuz saxlanılan girovların” azad edilmələri üçün dua oxunacaq. “Dua təşəbbüsünə” Kilikiya Böyük evinin katolikosu I Aram və Dünya Kilsələr Şurası da qoşulub. Deməli, bir tərəfdə rəsmi İrəvan, digər yandan isə erməni kilsəsi. Proletar rəhbərlərinin əvvəldə haqqında söz açdığımız şüarını elə-belədən diqqətə çatdırmamışıq.

II Qareginin “dua təşəbbüsü” barədə məlumat bir neçə gün əvvəldən verilmişdi. İndi o, təşəbbüsünə daha çox erməninin cəlb etmək üçün yenidən çağırış səsləndirib və deyib ki, istəyi noyabrın 11-də Azərbaycanda keçiriləcək COP29 iqlim sammiti ərəfəsində dünyanın diqqətini “məhbuslar” məsələsinə cəlb etməkdir: “Biz ürəkdən ümid edirik ki, bu mənəvi səylər davam edən humanitar böhran haqqında qlobal məlumatlılığı artıracaq və böhranın həqiqətə və ədalətə əsaslanan sülh yolu ilə həllinə töhfə verəcək”.

II Qareginin “təşəbbüsünə” qoşulan Kilikiya Böyük evinin katolikosu I Aram isə bunları deyib: “Biz bütün dini icmaları, beynəlxalq təşkilatları və xoşməramlı insanları dualarımıza qoşulmağa, Bakıdan erməni əsirlərin dərhal və qeyd-şərtsiz azad olunmasını tələb etmək üçün səyləri gücləndirməyə çağırırıq. Biz COP29-da iştirak edən beynəlxalq ictimaiyyətə xatırladırıq ki, ədalət və sülh bir-biri ilə sıx bağlıdır və onları ayırmaq olmaz. Biz insan hüquqlarının pozulmasını pisləmədən iqlim ədalətini tələb edə bilmərik”.

Məlumdur ki, tarixən erməni kilsəsi avantürizmi və terroru dəstəkləyib. Qurum bu kimi əməllərin ideoloji mərkəzi rolunu oynayıb. Erməni kilsəsinin hesabında minlərlə günahsız, dinc Azərbaycan və Anadolu türkünün qanı, görünməmiş vandallıqlar, qarətlər və soyğunçuluq əməlləri var. II Qaregin bu xislətli dini qurumun təmsilçisidir, tarixi sələflərinin başladıqları çirkin, anti-bəşəri yolun ardıcılıdır. Özünü din xadimi adlandıran bu şəxsin müharibə çağırışları səsləndirməsi, xalqlar arasında nifaq toxumları səpməsi hər kəsin yaxşı xatirindədir. Ona görə də hazırda erməni kilsəsinin humanizm “zəngulə”lərinə baş vuraraq, ikiüzlülük etməsi, yumşaq desək, ikrah doğurur.

Lakin ikiüzlülük edən təkcə II Qaregin və I Aram deyil. Ümumdünya Kilsələr Şurası (WCC) da “sülhün bərqərar olması, qaçqınlara dəstək və məhbusların azadlığa buraxılmaları üçün Ermənistana həsr olunmuş Dua Gününə dəstək göstərməyə” hazır olduğunu bildirib. WCC-nin baş katibi Cerri Pillay bütün kilsələri noyabrın 10-da duaya qoşulmağa və beynəlxalq ictimaiyyəti mövcud istiqamətdəki dəstəyini davam etdirməyə çağırıb. “Biz Erməni apostol kilsəsi və Ermənistanın ekumenik tərəfdaşları ilə dualı həmrəyliyimizi davam etdiririk”, – deyən C.Pillay vurğulayıb. Yeri gəlmişkən, bildirək ki, Dünya Kilsələr Şurası 400 milyona yaxın xristianı birləşdirən ən böyük beynəlxalq ekumenik təşkilatdır. Bu faktı isə anti-Azərbaycan kampaniyasının və ölkəmizə təzyiq ritorikasının miqyasını təsəvvürə gətirmək üçün açıqladıq. Yəni, ölkəmiz dünya miqyaslı ermənipərəstliyə sinə gərir.

Sinə gərməkdən söz düşmüşkən, sonda onu da vurğulayaq ki, COP29 məsələsində Azərbaycana təzyiq cəhdlərinin heç bir nəticəsi olmayacaq. Ümumən, bu sayaq mənfi halların rəsmi Bakını tutduğu yoldan döndərdiyinə dair presedent qeydə alınmayıb. Ölkəmiz haqlı və ədalətli mövqeyini daim müdafiə edib, gücünü göstərdiyi kimi, iradəsini də nümayiş etdirməyi bacarıb. Yaxşı olar ki, rəsmi İrəvan və havadarları bu barədə düşünsünlər və səmimi davransınlar. Nəzərə alsınlar ki, COP29 noyabrın 11-dən 22-dək davam edəcək. Həmin tarixdən sonra isə Bakıya toplaşanlar dağılışıb gedəcəklər. Hər halda, Ermənistanda bu coğrafiyada doğru-dürüst şəkildə qalmağı, mehriban qonşuluq şəraitində yaşamağı düşünənlərin nəsli kəsilməyib. Yaxşı olar ki, rəsmi İrəvan beləlerini ön plana çıxarsın, nə ayrı-ayrı səfirlərə anti-Azərbaycan təbliğatı aparmaq göstərişi versin, nə də dolayı yollarla uşaqbazlıqda qınadığı II Qaregin kimilərini ortaya atsın. Paşinyan Marks olmaq istəməz, II Qaregindən isə Lenin çıxmaz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvan sülh sazişini digər məsələlərə qatmamalıdır

(əvvəli 1-ci səhifədə)

Deyəsən, “hərbi əsirlər” mövzusunda danışmaq üçün növbə Ermənistanın Rusiya Federasiyasındakı yeni səfiri Qurgen Arsenyana çatıb. Ermənistan prezidentinin cəmi bir neçə ay öncə, daha doğrusu, avqustun 14-də imzaladığı sərəncamla səfir vəzifəsinə təyin olunan, noyabrın 5-də etimadnaməsini Rusiya Prezidenti Vladimir Putinə təqdim edən Arsenyan mərasimdən sonra jurnalistlərə müsahibəsində diplomat kimi statusuna uyğun gəlməyən fikirlər səsləndirib. Deyib ki, Azərbaycanda saxlanılan “erməni əsirlərin” azad edilməsi İrəvanla Bakı arasında sülhün əldə olunmasına çox kömək edəcək. “Belə bir addımın atılması barışığa çox kömək edəcək” – deyən səfir əlavə edib ki, saxlanılan şəxslərin azadlığa buraxılması ilə bağlı digər suallar Azərbaycan tərəfinə verilməlidir.

Səfir, həmçinin qeyd edib ki, əgər İrəvan və Bakı sülh müqaviləsinə doğru gedirlərsə, bütün dünyaya iki dövlətin, iki xalqın sülh və əməkdaşlıq şəraitində yaşayacağını bəyan etməyə hazırlaşırlarsa, o zaman dəyərləndirilməli olan addımlardan başlamalıyıq. Amma Arsenyan siyasi gediş edərək keçmiş qondarma rejimin “dövlət naziri”, rusiyalı milyarder Ruben Vardanyanla bağlı məsələni ayrıca şərh etməkdən imtina edib. Deyib ki, İrəvan üçün Ermənistan vətəndaşları arasında heç bir fərq yoxdur.

Ermənistan səfiri onu da bildirib ki, Rusiya Ermənistanın və erməni xalqının dostu olub və olaraq da qalır: “Erməni xalqı və Azərbaycan xalqı Rusiyanın, rus xalqının dostudur. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin isə bir daha həm Ermənistan vətəndaşlarına, həm də Azərbaycan vətəndaşlarına ismarıc verdi ki, Rusiya dost olub, dostdur və dost olaraq qalır”.

Səfirin saxlanılan şəxslərlə bağlı səsləndirdiyi fikirlərlə bağlı qeyd etmək lazımdır ki, düzdür, Arsenyan bilavasitə kimlərdən söhbət getdiyini bildirməyib. Yəni, konkret ad çəkməyib. Ancaq güman etmək olar ki, söhbət həm Qarabağdakı keçmiş separatçı rejimin Bakıda saxlanılan, barələrində ədalət mühakiməsinin çıxaracağı hökmü gözləyən “qlavarları”ndan, həm də 44 günlük Vətən müharibəsindən əvvəl, müharibənin getdiyi vaxt və ondan sonra sülh və insanlığa əleyhinə (soyqırımı, deportasiya, işgəncə vermə, müharibə qanunlarını poz ma və digər maddələrlə) cinayətlər törətdikləri üçün saxlanılan şəxslərdən gedir. Bununla bağlı da qeyd etmək lazımdır ki, hazırda Azərbaycanda hansısa xalqa mənsub olan heç bir hərbi əsir yoxdur. Bu gün ölkəmizdə Qarabağ iqtisadi rayonunun müxtəlif yaşayış məntəqələrin də yerli azərbaycanlı əhaliyə qarşı sülh və insanlıq əleyhinə cinayətlər törətdi yi məhkəmələr tərəfindən sübuta yetirilmiş bir neçə erməni əsilli şəxs var. Bunlar Ar sen Baqdasaryan, Karen Qazaryan, Alyo şa Xosrovyan, Lüdvik Mkrtıçyan, Vaqif Xaçatryan və Raşid Beqlaryandır. Adları çəkilən şəxslər barəsində hökm çıxarılıb və onlar cəzaçəkmə müəssisələrində cəzaları nı çəkməkdədirlər.



Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında keçirdiyi birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində tarixin arxivinə gömülmüş separatçı rejimin “qlavarları” – 2023-cü il sentyabrın 27-də saxlanılmış Ruben Vardanyan və David Manukyan, sentyabrın 29-da saxlanılmış David Babayan və Lyova Mnasakanyan, oktyabrın 3-də saxlanılmış Arkadi Qukasyan, Bako Saakyan, Arayik Arutyunyan və David İşxanyan üzərində isə hələ məhkəmə prosesi başlamayıb. Ancaq, baş prokuror Kamran Əliyev bir müddət öncə bildirmişdi ki, keçmiş qondarma qurumun separatçı rəhbərlərinin barəsində olan ci nayət işləri yaxın vaxtlarda məhkəməyə göndəriləcək. Baş prokuror onu da qeyd et mişdi ki, ölkədaxili qanunlar və beynəlxalq konvensiyaların tələblərinə uyğun bütün hüquqları təmin olunub, onlara vəkil və tər cüməçilər ayrılıb. Hazırda təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmişlər cinayət işinin materialları ilə tanış olurlar. Bu mər hələ də başa çatandan sonra, ittiham aktı məhkəməyə göndəriləcək. Bundan sonra isə həmin şəxslər barəsində məhkəmələr tərəfindən hökm çıxarılacaq. Güman etmək olar ki, məhkəmə prosesi ilin sonunadək başlayacaq. Onların əli Azərbaycan xalqının qanına batıb. Məhz onlar İrəvandan aldıqları təlimatlara və xarici havadarlarının göstərişlərinə uyğun olaraq ötən əsrin 80-ci illərinin sonlarında Qarabağın dağlıq hissəsində mərkəzi hakimiyyətə qarşı separatçı çıxışlara başlayıblar. Daha sonra separatizm hərəkatı Ermənistanın Azərbaycana hərbi müdaxiləsinə, torpaqlarımızın işğalına gətirib çıxarıb.

Keçmiş separatçı rejimin başçıları əlinə silah alaraq Azərbaycana qarşı işğalçılıq müharibəsi aparan, xalqımıza olmazın müsibətlər yaşadan şəxslərin ümumiləşmiş obrazıdır. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu istiqamətdə səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər. Dövlətimizin başçısı bildirmişdi ki, bizim tarixi Qələbəmiz o qədər parlaq idi və cəmi bir neçə saat ərzində davam edən əməliyyat nəticəsində suverenliyimiz bütün ərazidə bərpa olunanda bunu bəziləri belə qavraya da bilmədilər: “O qədər tez bir zamanda başladı və sona çatdı və eyni zamanda, bu parlaq Qələbə fonunda bax, o personajların da tutulması bir qədər kölgədə qaldı. Halbuki, bu, özlüyündə böyük bir tarixi hadisədir. Bizə qarşı qanlı müharibə aparan, vandallıq edən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər. Onların arasında Qarabağda olmuş bütün keçmiş “liderlər”, ondan sonra Qarabağa ixrac edilmiş “baş nazir” və digərləri var. Təkcə o qruplaşmada iki nəfər çatışmır, onlar da İrəvandadırlar. Onlar da olsa, onda tam heyət formalaşır. Bu, doğrudan da, ədalətin Zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum. Onların heç ağlına gələ bilməzdi ki, bu gün onlar Bakıda çay içmək istəyini belə reallaşdıracaqlar, istintaq təcridxanasında oturacaqlar və ədalət mühakəməsinin qərarını gözləyəcəklər”.

Bəli, Prezident İlham Əliyevin bildirdiyi kimi, həmin şəxslər hazırda ədalət mühakiməsinin qərarını gözləyirlər. Onların sərbəst buraxılması müzakirə mövzusu da deyil. Yaxşı olar ki, İrəvan sülhün əldə olunmasını heç nə ilə əlaqələndirməsin. Sülh olacaqsa, o cümlədən regional kommunikasiyalar açılacaqsa, sərhədlərin delimitasiya-demarkasiya prosesi gedəcəksə, bundan faydalanan həm də Ermənistan tərəfi olacaq. Bəs sülh olmayacaqsa nə olacaq? Bu suala da ən yaxşı cavabı yenə dövlət başçımız verib. 2023-cü il mayın 3-də Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında cənab İlham Əliyev deyib: “Biz Ermənistanın konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar”.

Bu istiqamətdə fikirlərini “XQ” ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri, Zaur Məmmədov** bildirdi ki, Er-



mənistan xarici işlər nazirinin müavini Paruyr Ovannisyan noyabrın 5-də sülh sazişi ilə bağlı növbəti təkliflər paketini Bakıya göndərdiklərini açıqladı. Onun sözlərinə görə, elə həmin gün Azərbaycan Xarici İşlər Nazirliyi də saziş layihəsi ilə bağlı növbəti təkliflər paketini Ermənistana göndərdiyini bəyan etdi: “Sülh sazişinə bu və ya digər şəkildə ehtiyac var. Amma bu ehtiyacın olması o demək deyil ki, tərəflər tələsərək sülkh müqaviləsinə imza atmalıdırlar. Sülh müqaviləsi, adından göründüyü kimi, doğrudan da sülhü təmin edəcək müqavilə olmalıdır. Görünən odur ki, Ermənistan hakimiyyəti daxili auditoriya üçün müəyyən gedişlər edərək “hərbi əsir” adlandırdığı şəxslərin sərbəst buraxılması üçün gedişlər etməkdə, bəyanatlar verməkdədir. Burada söhbət iki kateqoriya daxil olan şəxslərdən gedir. Birinci qrupa keçmiş separatçı rejimin rəhbərləri daxildirlər. Onlar konkret cinayət əməlləri törətməkdə ittiham olunurlar və təhvil verilmələri heç nədən asılı deyil, heç nə ilə əlaqələndirilməməlidir. İkinci qrupa isə müxtəlif vaxtlarda ölkəmizə qarşı cinayətlər törətmiş şəxslər daxildirlər. Bu qrupa daxil olanlarla bağlı məsələ 2021-ci ildən sonra qarşılıqlı müzakirə nəticəsində həllini tapıb və bundan sonra da konkret şəxslərin məsələsi müzakirə oluna bilər”.

Z.Məmmədovun fikrincə, bu mənada Ermənistan hakimiyyətini təmsil edən şəxslər saxlanılan şəxsləri azad etməyə çağırarkən bura keçmiş separatçı rejimin başçılarını da əlavə edirlərsə, o zaman veriləcək cavabın nə olacağını çox yaxşı bilirlər. Son cavab onlara Kazanda verilib.

Politoloq onu da bildirdi ki, Bakı və İrəvan yeni mərhələyə qədəm qoyurlar və Donald Trampın vəzifəsinin icrasına başlamasından sonra Ermənistanın Rusiyaya yanaşması da dəyişəcək. Biz nəzərə almalıyıq ki, 2025-ci ilin özünəməxsus çağırışları olacaq. Bundan sonra Cənubi Qafqazda yeni dönəm başlayır. Burada xarici siyasətdə bir sıra korrektələr ediləcək. Ermənistan və Azərbaycan arasındakı danışıqlar prosesinə də bu və ya digər ölkələrin münasibətləri fərqli olacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Dinamik və davamlı sosial siyasət: Yeni mərhələ, növbəti hədəflər

**Hazırkı tarixi dönəmdə müstəqil dövlətlər üçün uğurlu sosial siyasət vacib faktordur. Bu kontekstdə yüksək rifah cəmiyyətinin yaradılması strateji məqsəd kimi dövlət quruculuğunda özünəməxsus yer tutmaqdadır. Azərbaycan sistemli və ardıcıl olaraq zamanın tələblərinə və müasir dünyanın çağırışlarına uyğun dinamik sosial siyasət yeridən dövlət kimi fərqlənir. Müstəqillik dövrünün təcrübəsi göstərir ki, ölkə rəhbərliyi bu istiqamətdə ən perspektivli nümunələrdən bacarıqla istifadə edir. Daim cəmiyyətin sosial təminatı artırılır, sosial təminat sistemi genişləndirilir və xidmət səviyyəsi yüksəldilir. Vətən müharibəsi şəhidlərinin ailələrinə və qazilərə xüsusi qayğı göstərilir. Bütövlükdə, cəmiyyətin sosial təminatı inkişaf etdirilir.**

## Dinamik inkişaf

İstənilən cəmiyyətin davamlı inkişafı elm, siyasət və idarəetmə üçün ən aktual məsələlərdən biri sayılır. Qlobal miqyasda da dünya getdikcə daha açıq və dinamik münasibətlər fazasına qədəm qoyur. Hər bir dövlət bu böyük sistemin daxilindədir. Ona görə də xüsusi olaraq bir ölkənin dinamik inkişafı ilə qlobal beynəlxalq sistemin bir-biri ilə ziddiyyət təşkil etməməsi politologiya üçün daha da aktuallaşır.

Bu, cəmiyyətin iqtisadi, sosial və siyasi sferaları arasında müəyyən münasibətlərin qurulmasını tələb edir. Nəzəri və praktiki-idarəetmə aspektlərində məsələ düşünülmüş sosial siyasətin vacibliyini önə çıxarır. Buna görədir ki, indiki mərhələdə hər bir dövlətin uğurlarının miqyası, ilk növbədə, onun yeritdiyi sosial siyasətin mahiyyəti, xarakteri və nəticələri əsasında qiymətləndirilir.

XX əsrin 80-ci illərindən başlayaraq BMT-nin sənədlərində dinamik inkişafa nail olmağın nəzəri və praktiki üsulları intensiv araşdırılmaqdadır. Belə mülahizələr irəli sürülür ki, ilk olaraq, cəmiyyətin bütün sferaları arasında dinamik tarazlıq yaranmalıdır. Bununla yanaşı, cəmiyyətlə təbiətin balansı təmin edilməlidir. Buradan sinxron olaraq müstəqil dövlət üçün iqtisadi, sosial və ekoloji sferalar arasında tərəqqi məsələsinin aktual olması qənaəti formalaşmışdır. Onun əsas təminedici üsulu isə uğurlu sosial siyasət kursudur.

Belə çıxır ki, dinamik inkişaf özündə bir çox elementləri birləşdirir. Onların sırasında iqtisadiyyatda sosial məsuliyyətə canatma ayrıca yer tutur. Burada həm də ekoloji tarazlığın saxlanması, sosial, iqtisadi və texnoloji inkişaf arasında tarazlığın təmini, vətəndaşın rifah halını daim yaxşılaşdırmaq və onu humanistləşdirmək (insan haqları və hüquqlarının təmini) kimi vəzifələr qarşıya çıxır. Bu sırada yüksək sosial göstəricilərə nail olmaq (məşğulluq, sosial təminat, işsizliyin aradan qaldırılması, sosial müdafiə və s.) xüsusi əhəmiyyət kəsb edir. Müasir mərhələdə dövlətin "kimliyi" də bu kimi göstəricilərə əsasən müəyyən edilir.

Beləliklə, sosial siyasət, hər şeydən əvvəl, cəmiyyətdə sosial qruplar və fərdlər arasında münasibətləri tənzimləməyə xidmət etməlidir. Bu siyasəti dövlət institutları həyata keçirir. Həmin siyasətin ümumi kursunu və məzmununu isə dövlət başçısı müəyyən edir. Sosial siyasət vətəndaşların əsas həyati maraqlarını və onların sosial müdafiəsini təmin etməlidir. Hər bir ölkədə bu siyasətin özəl məzmunu və həyata keçirilmə dinamikası ola bilər. Azərbaycan Respublikası da istisna deyildir.

## Azərbaycanın milli sosial siyasəti

Faktlar göstərir ki, Prezident İlham Əliyev ölkəmizdə gələcəyə istiqamətlənmiş uğurlu sosial siyasət həyata keçirir. Bu siyasətin başlıca məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdən ibarətdir. Buna görədir ki, dövlət başçısı sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirir. Bu sırada aztəminatlı ailələrə və sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərin davamlı olaraq artırılması əhəmiyyətlidir.

Buradan çıxış edərək Azərbaycanda həyata keçirilən sosial siyasətdə Prezidentin fəallığı ilə dövlətin vətəndaşa diqqət və qayğısının daim artmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamaq olar. Bu prosesin faktları haqqında irəlidə bəhs edəcəyik. Burada onu vurğulayaq ki, Qarabağ şəhidləri, qaziləri, aztəminatlı ailələr, fiziki sağlamlığı məhdud olan insanlar və digər qruplarla bağlı Prezident həmişə yeni qərarlar qəbul edir, onların sosial təminatını yüksəldir.

Prezident İlham Əliyevin sosial siyasətinin başlıca prinsipləri Azərbaycan hökumətinin fəaliyyətinə ciddi təsir etməkdədir. Onun konkret təzahürü hökumətin əhalinin maddi rifah halının yaxşılaşdırılması üçün lazımi maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malik olmasında özünü göstərir. Burada, təbii ki, insanların bütün sosial qayğılarla əhatə olunmaları ön sırada yer almaqdadır.

Bu kontekstdə Azərbaycan üçün səciyyəvi olan bir məqamı vurğulamaq lazımdır. Məsələ onunla bağlıdır ki, uğurlu və davamlı sosial siyasətə yalnız güclü iqtisadiyyatın mövcud olduğu ölkədə nail olmaq mümkündür. Ölkə rəhbərliyi daim iqtisadiyyatın dinamik olaraq güclənməsinə böyük diqqət yetirir. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi müddətində bu tezisi tam təsdiq edən çox sayda faktlar vardır. Azərbaycan Cənubi Qafqazda yeganə dövlətdir ki, davamlı şəkildə iqtisadi göstəriciləri artmışdır və bütövlükdə iqtisadi infrastruktur tam müasirləşmişdir. Hazırda Azərbaycan bu aspektdə postsovet məkanında lider dövlətdir.



Nümunə kimi yoxsulluq səviyyəsinin aşağı salınması və əhalinin məşğulluğunun təmin olunmasını göstərə bilərik. Bu istiqamətlərdə, sözün həqiqi mənasında, nəhəng və faydalı işlər həyata keçirilir. Onlar haqqında irəlidə konkret faktlar əsasında bəhs edəcəyik. Onu da vurğulamaq yerinə düşərdi ki, Azərbaycanda həyata keçirilən iqtisadi siyasət müasir dünya iqtisadiyyatının tələblərinə uyğundur. Makroiqtisadi sabitliyin qorunub saxlanması yüksək nəticədir. Enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunmasının dünya üçün əhəmiyyətini hər kəs bilir. İqtisadiyyatın şaxələndirilməsi ən yüksək inkişaf etmiş ölkələr üçün də çox aktual vəzifədir. Bunlar kompleks halda davamlı inkişaf strategiyasını əmələ gətirir. Strateji baxımdan qeyri-neft sektorunda özünü göstərən dinamizm də xüsusi əhəmiyyətə malikdir.

## Sosial siyasətin dinamizmi

Yuxarıdakı nəzəri müddəalar fonunda Azərbaycanda sosial siyasətin bir sıra xüsusiyyətlərinin vurğulanması aspektində dinamik iqtisadi inkişafla güclü sosial siyasətin bir-birini tamamladığı qənaəti yaranır. Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli tərəqqisinə xidmət edən siyasətinin mərkəzində vətəndaş rifahının təminatı dayanır. Ümumiyyətlə, faktlar göstərir ki, "uğurlu xarici və daxili siyasəti nəticəsində ötən 20 ildə Azərbaycan dünya miqyasında rekord templə inkişaf edən və 4 dəfədən çox iqtisadi artım əldə edən, qüdrətli ordu quran, strateji hədəflərinə doğru inamla addımlayan, dünya birliyində layiqli yer tutaraq etibarlı tərəfdaş kimi tanınan, beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqe tutan bir ölkəyə çevrilmişdir."

Bu ümumi və davamlı inkişafın daxilində sosial sahə xüsusi yer tutur. Belə ki, ölkə rəhbərinin sosial sahəyə xüsusi qayğısı "ötən 20 ildə dövlətimizin sosial siyasətinin ildən-ilə güclənməsinə, dayanıqlı və əhatə dairəsi daim genişlənən etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan vermişdir. Həmin dövrdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox, minimum əməkhaqqında 38 dəfə, minimum pensiyada 14 dəfə, orta aylıq əməkhaqqında 12 dəfə, orta aylıq pensiyada 18 dəfə, yaşa görə orta aylıq pensiyada 19 dəfə, pensiya üzrə ödənilən illik vəsaitdə 30 dəfədən çox artım baş vermişdir. Hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması təmin olunmuşdur".

Bu tezisi rəsmi statistik məlumatlar tam təsdiq edir. Rəqəmlər göstərir ki, yaşa görə orta aylıq pensiyanın məbləği (467 manat) pensiyaçılar üçün yaşayış minimumundan (199 manat) 2,3 dəfə artıqdır. Xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti isə 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5 faizə, bu ilin əvvəlində isə 41,1 faizə çatmışdır.

Sosial dövlət baxımından əhəmiyyəti çox olan ünvanlı dövlət sosial yardımı ilbəil dinamik yüksəlişdədir Hazırda hər ailəyə düşən orta aylıq məbləğində ünvanlı yardım 11 dəfə artmışdır. Eyni zamanda, ünvanlı yardım proqramının əhatə dairəsi genişləndirilmişdir.

Mütəxəssislər son 20 ildə yeni iş yerlərinin açılmasının daimi xarakter aldığını vurğulayırlar. Bu çərçivədə aktiv məşğulluq proqramları uğurla yerinə yetirilir. Sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsinin qurulması təmin olunmuşdur. Prezidentin imzaladığı fərman və sərəncamlar nəticəsində, xüsusilə, son beş ildə mühüm sosial irəliləyişlər əldə edilmişdir. Bu dövrdə 4 milyondan çox vətəndaşı əhatə edən, icrasına əlavə olaraq, illik 7 milyard manata yaxın vəsait ayrılan 4 sosial islahat paketi həyata keçirilmişdir. Bu əsas inkişaf xətti 2018-2023-cü illərdə həyata keçirilən proqramlarda müxtəlif sferalar üzrə öz əyani təzahürünü tapmışdır. Sosial sahənin mütəxəssisləri vurğulayırlar ki, "2018-2023-cü illərdə minimum pensiya 2,5 dəfə, minimum əməkhaqqı 2,7 dəfə artırılmışdır. Orta aylıq pensiya 208 manatdan 437 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 467 manata, orta aylıq əməkhaqqı 545 manatdan 921 manata çatmışdır. Median əməkhaqqında 2,2 dəfə, əməkhaqqı fondunda 2,7 dəfə, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə artıma nail olunmuşdur. Ehtiyac meyarı 130 manatdan 246 manata, yaşayış minimumu 173 manatdan 246 manata çatdırılmışdır.

Bunlarla yanaşı, 1,1 milyon insanı əhatə edən pensiya təminatı gücləndirilmişdir. Bu təminat proqramına əlçatanlıq daha da artırılmışdır. Pensiya sistemində humanist yanaşmaların tətbiqi istiqamətində mühüm addımlar atılmışdır.

Bütün bunların fonunda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin aşağıdakı ümumiləşdirməsi maraq doğurur: "Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib dövlət olan Azərbaycan eyni zamanda vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açan güclü sosial siyasətə malikdir...



Prezident cənab İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkəmizdə davamlı sosial inkişafa, sosial müdafiə və aktiv məşğulluq proqramlarının uğurla davam etdirilərək ildən-ilə əhəmiyyətli dərəcədə genişlənməsinə, sosial təminat sisteminin dəfələrlə güclənməsinə imkan yaradıb.

2003-cü ildən ötən dövrdə əməkhaqqıları, pensiya və digər sosial ödənişlərin mütəmadi olaraq artırılması, regionların və özəl sektorun inkişafı şəraitində yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artmasının daimi xarakter alması, əhalinin gəlirlərində ilbəil artım, sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsinin qurulması, sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilib. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik".

## Sosial təminatın dairəsi genişlənir

Sosial təminat sisteminin əhatə dairəsinin genişləndirilməsinin hazırda hər bir müstəqil dövlət üçün əhəmiyyətinin böyük olduğu məlumdur. Lakin bu vacib məsələnin praktiki tətbiqi həmişə yaradıcı idarəetmə və davamlı proqramların həyata keçirilməsini tələb edir. Azərbaycanda bu aspektdə faydalı təcrübə toplanmışdır və bu proses uğurla davam edir. Bu baxımdan əlamətdardır ki, həssas qrupların dövlət qayğısı ilə əhatə olunmasının daha bir göstəricisi kimi, son 20 ildə 15, o cümlədən 2018-2023-cü illərdə 10 yeni sosial ödəniş növü təsis edilmişdir. Onların sırasına müharibə veteranlarına, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlərə, Vətən müharibəsi qəhrəmanlarına, işləməyən pensiyaçı elmlər doktorlarına və fəlsəfə doktorlarına Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa götürən şəxslərə müavinət, himayədar ailələr üçün müavinət və s. daxildir. Nəticədə, yalnız təqaüd təminatı üzrə götürdükdə, son beş ildə bu istiqamətdə ödənişlə təmin edilənlərin sayı 6,5 dəfə artaraq 393 minə çatmışdır.

Qeyd etməliyik ki, sosial təminat sisteminin əhatə dairəsinin genişlənməsi sosial rifah cəmiyyətinin yaradılması istiqamətində mühüm faktorlardan biridir. Çünki əgər sosial təminatın əhatə dairəsi genişlənməsə, faktiki olaraq, sosial siyasət durğun vəziyyətə düşə bilər. Siyasi, nəzəri və ya konseptual aspektdə aktual, əhəmiyyətli proqramlar reallaşmadıqca, onların praktiki tətbiqi inkişaf etmədikcə sosial siyasət reallıqdan uzaqlaşır. Bu halda da müsbət nəticəverici sosial siyasət aparmaq, demək olar ki, mümkünsüz olur. Məhz buna görədir ki, Prezident İlham Əliyev sosial təminat sisteminin əhatə dairəsinin genişləndirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Vurğuladığımız aspektdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına layiqincə əməl etməsi vacib məqamı təşkil edir. Bu baxımdan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin belə bir məqamı vurğulaması əhəmiyyətlidir: "Cənab Prezident tərəfindən imzalanan fərman və sərəncamlar... sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Belə ki, dövlət başçısının şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısının təzahürü olaraq 2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü təyin edilib. Ötən dövrdə həmin təqaüdün məbləği şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600 manata, müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500 manata, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400 manata, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb".

Burada söhbətin birbaşa şəhid ailələri və müharibə əlillərinə aid edilməsi sosial təminat sisteminin genişləndirilməsi kontekstində təsadüfi deyildir. Çünki Vətən müharibəsindən sonra qalib ölkənin şəhidləri və qaziləri ilə bağlı Prezident İlham Əliyevin xüsusi sərəncamları və fərmanları olmuşdur. Bu istiqamət Azərbaycanda hazırda ən çox diqqət yetirilən və sosial təminatın yüksək olmasına çalışılan sferadır.

Vətən uğrunda canlarından keçmiş qəhrəman insanların ailələri hər bir cəhətdən sosial qayğı ilə əhatə olunurlar. Qazilərimiz daim dövlətin diqqət və qayğısının mərkəzindədirlər. Azərbaycan Prezidenti bu sahəyə çox böyük diqqət göstərir. Ona görə də hazırda sosial təminat sisteminin genişlənməsinin xüsusi cəhətləri vardır. Onları aşağıdakı kimi ifadə etmək olar: 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək proqramı icra edilir. Bu proqram çərçivəsində həmin kateqoriyalara aid 126 min şəxs sosial dəstək yönümlü 322 min xidmətlə təmin edilmişdir. Belə ki, postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarından ibarət 104 min nəfərə 117 min sosial ödəniş təyinatı həyata keçirilmiş, 11 min nəfərə 54,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilmişdir. 453 hərbçi 472 yüksək texnologiyalı son nəsil protezlə, 21,9 min şəxs birdəfəlik ödəmə ilə təmin olunmuşdur. 20 min 500 nəfərin məşğulluğunun təminatı həyata keçirilməklə, onlardan 10 min 300 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları qurulmuşdur.

Postmüharibə dövründə şəhid ailələri və qazilərə ünvanlanan müavinət və təqaüdlərdə də orta hesabla 2 dəfə artım baş vermişdir. Onlara Vətən müharibəsindən sonra 5 min 800, ümumilikdə, 14 min 600 mənzil verilmişdir. Həmçinin qazilərə müharibədən sonra 424, ümumən ötən dövrdə 7 min 600 avtomobil verilmişdir.

## DOST milyonların dostuna çevrilir

Vətəndaş məmnunluğu sosial dövlətin əsas əlamətlərindən biridir. İnsanlar yüksək səviyyəli mədəni xidmətdən çox ruhlanırlar. Onlar vətəndaşa verilən qiyməti, ümumiyyətlə, dövlətin "kimliyi"nə aid edirlər. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası Azərbaycan vətəndaşlarında yüksək məmnunluq duyğuları yaradır. Çünki DOST mərkəzlərində, sözün əsl mənasında, müasir tələblər səviyyəsində xidmət göstərilir və problemlərin çevik həllinə nail olunur. Prezident İlham Əliyevin bu baxımdan DOST Agentliyinin və ilk DOST mərkəzinin açılışı tədbirində ifadə etdiyi aşağıdakı fikirlər böyük ümidlər yaradır: "Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

Faktlar da ümidvericidir. Belə ki, 159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunduğu DOST mərkəzlərində ötən dövrdə 2 milyonadək vətəndaşa xidmət göstərilmişdir və həmin xidmətlərdən vətəndaş məmnunluğu 98,1 faizdir. Artıq bir sıra ölkələr Azərbaycanın DOST təcrübəsini öyrənərək, özlərində tətbiq etməyə maraq göstərirlər.

DOST infrastrukturunun ölkə boyu genişləndirilməsi işləri davam edir, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə də DOST xidmətləri qurulur.

Sosial təminat sisteminin genişləndirilməsi ilə DOST konsepsiyasının uğurlarını vahid sosial siyasət kursu sistemində qarşılıqlı əlaqədə təsəvvür edə bilərik. Həqiqətən, sosial dövlətin perspektivli inkişafı kontekstində ümidverici mənzərə yaranır. Azərbaycan rəhbərliyi sosial dövlət quruculuğunu davamlı və dayanıqlı olaraq ciddi elmi əsaslar üzrə həyata keçirir. Bu da, şübhəsiz ki, başlıca strateji məqsədə – yüksək rifah cəmiyyəti quruculuğu işinə əhəmiyyətli töhfələr verməkdədir!

***Kamal ADIGÖZƏLOV***

*Neft Daşları – 75*

# Azərbaycanı dünyada məşhurlaşdıran "Möcüzələr adası"



**1949-cu ilin payız günlərinin birində Xəzərin coşqun dalğalarını ram edən qəhrəman Azərbaycan neftçilərinin gərgin əməyi öz bəhrəsini verib. Həmin dövr üçün əsl möcüzəyə bərabər ilk dəniz quyusu fontan vurub, "Qara Daşlar"ın köksünü dəlib çıxan "qara qızıl" çətin dəniz şəraitində gecə-gündüz yorulmaq bilmədən çalışan neftçilərin üzünü ağardıb. 942 metr dərinliyində olan hasilat quyusunun istismara verilməsi ilə dünyada ilk dəfə açıq dənizdə neftçıxarmanın əsası qoyulub. Bununla da "qara qızıl"ın vətəni sayılan Azərbaycanda neft sənayesinin yeni inkişaf mərhələsi başlanıb.**

Qəhrəman Azərbaycan neftçilərinin bu şücaəti az müddətdə bütün dünyaya səs salıb. Təsadüfi deyil ki, həmin vaxt bir sıra xarici ölkələrin mətbuat səhifələrində bu barədə geniş məlumatlar dərc edilib, Azərbaycanın alim və mütəxəssislərinin yaratdığı möcüzəyə heyranlıq ifadə olunub. İnsan zəkasının şah əsəri olan Neft Daşları "möcüzələr adası", "dünyanın səkkizinci möcüzəsi" adlandırılıb. Yeri gəlmişkən, Neft Daşları "Ginnesin Rekordlar Kitabı"na düşən ilk dəniz neftçıxarma məkanıdır. Avropada ilk dəfə olaraq dərinliyi 3 min 183 metr, mailiyi 2 min 40 metr olan quyu isə qazma sürətinə görə rekord qazanıb.

Xatırladaq ki, "Neft daşları" yatağı Xəzər dənizində, Bakı şəhərindən 110 kilometr şimal-şərqdə yerləşir. Burada ilk kəşfiyyat quyusunun qazılmasına 1949-cu il iyunun 24-də başlanıb. İstismar müddətini başa vurmuş "Çvanov" gəmisinin qrunta batırılması yolu ilə yaradılmış süni buxtadan "Qala" lay dəstəsinə qazılan quyu noyabr ayının 7-də gündəlik 100 ton debitlə istismara verilib. Beləliklə, Azərbaycanın neft sehrbazları "Qara Daşlar"ın əsrlər boyu gizlətdiyi sirrin üstünü açmağa müvəffəq olublar.

1949-cu ilin soyuq, küləkli dekabr günlərində ilk quyunun buruğunu növbəti qazma sahəsinə keçirən neftçilər böyük çətinliklə üzləşiblər. İlk baxışdan quyunun qazılmasına hazırlıq işləri olduqca çətin görünsə də, peşəkar neftçilərimiz bunun da öhdəsindən məharətlə gəlilər. Tanınmış neft biliciləri Sabit Orucov, Ağaqurban Əliyev və məşhur qazmaçı Yusif Səfərovun təklifi ilə əlavə xərclərə və işçi qüvvəsinə yol vermədən daha 6 köhnə gəmi gətirilərək ərazidə süni ada yaradılıb. Beləliklə, sonradan neftçilərin "Yeddi gəmi adası" adlandırdıqları ərazidə ikinci kəşfiyyat quyusunun qazılmasına başlanılıb. 1950-ci ilin birinci yarısında bu quyunun da uğurla istismara daxil edilməsi ilə "Neft daşları" rayonunda karbohidrogen ehtiyatlarının mövcudluğu tam sübuta yetirilib. Bununla da, yataqda kəşfiyyat-qazma və tikinti işləri geniş vüsət alıb. 1951-ci il fevralın 18-də isə neftlə dolu ilk tanker sahilə yola salınıb. Çətin dəniz şəraitində çalışan, dalğalarla üz-üzə qalan qəhrəman neftçilərimiz bir neçə ildən sonra "Neft Daşları" yatağında, polad dirəklər üzərində əfsanəvi bir məkanın — yeni qəsəbənin bünövrəsini qoyublar.

Ötən müddətdə "möcüzələr adası"nda insan əli ilə əsl xariqələr yaradılıb, neftçilərin normal işləməsi və istirahəti üçün misilsiz işlər görülüb. Belə ki, 1950-ci illərdə tirlər üzərində salınmış 2 qəsəbədə 24 ədəd iki mərtəbəli yataqxana binası və digər lazımi sosial obyektlər tikilib. 1975-ci ildən başlayaraq süni adada 5 ədəd beşmərtəbəli və 2 ədəd doqquz mərtəbəli yataqxana binası, beşmərtəbəli idarə binası, mədəniyyət sarayı, çörək zavodu, xəstəxana, idman meydançası, mağazalar, kitabxana, yeməkxana və başqa obyektlər tikilərək neftçilərin sərəncamına verilib.

Burada polad dirəklər üzərində 200 kilometrə yaxın estakada salınıb, 333 istehsal meydançası quraşdırılıb, 100 kilometrlərlə neft, qaz və su kəmərləri çəkilib. Beləliklə, Xəzərin qoynunda polad dirəklər üzərində salınmış gözoxşayan çoxsaylı estakadalar Azərbaycan neftçiləri üçün əsl sınaq, hünər meydanına çevrilib. Təkcə onu qeyd etmək kifayətdir ki, "Neft daşları" yatağından indiyədək, təqribən, 180 milyon ton neft və 14 milyard kubmetrdən çox təbii qaz hasil olunub. Bütün bu nəticələr isə dərin insan zəkasının, insan əməyinin nəticəsidir.

Ötən əsrin 70-ci illəri isə "Neft daşları" yatağının inkişafında "qızıl dövr" kimi xarakterizə olunur. Təsadüfi deyil ki, həmin dövrdə üç dəfə "möcüzələr adası"na səfər edən ümummilli lideri Heydər Əliyev Neft Daşlarını Azərbaycanın çoxmillətli zəhmət adamlarının əmək qəhrəmanlığına ucaldılmış möhtəşəm abidə kimi dəyərləndirib.

Azərbaycan neft sənayesini yeni inkişaf mərhələsinə ucaldan Prezident İlham Əliyev də Neft Daşlarını Azərbaycan xalqının, Azərbaycan dövlətinin ayrılmaz bir dəyəri, çox gözəl inkişaf nümunəsi kimi xarakterizə edib. Dəniz şəraitində müasir infrastruktura malik istehsalat "şəhəri"nə çevrilən Neft Daşlarının öz inkişafının yeni mərhələsini yaşadığını vurğulayan dövlətimizin başçısı yatağın zəngin ehtiyatlarının bundan sonra da uzun illər ölkəmizin iqtisadi potensialının gücləndirilməsinə və xalqımızın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edəcəyini bildirib.

Yeri gəlmişkən, Azərbaycan dəniz neft sənayesinin flaqmanı sayılan "Neft daşları" yatağı işlənmənin son mərhələsində olmasına baxmayaraq, burada çıxarılması mümkün olan ehtiyatlar hələ tükənməyib. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev bir neçə il bundan qabaq "Neft daşları" yatağında illik hasilatın 1,2 milyon tona çatdırılmasını neftçilərin qarşısında mühüm bir vəzifə kimi qoyub. Dövlət başçısının tapşırığından irəli gələn məsələlərin həlli istiqamətində görülən işlərin nəticəsidir ki, qocaman "Neft daşları" yatağı indi özünün yeni yüksəliş dövrünü yaşayır.

Bu gün "möcüzələr adası"nda çalışan 4 minədək insanın normal yaşayışı və fəaliyyəti üçün hər şey var. Ən başlıcası isə, çətin dəniz şəraitində çalışan neftçilər getdikcə artmaqda olan dövlət qayğısını daha çox hiss edirlər. Bütün bunlar şərəfli peşə sahiblərində ölkənin, onun neft sənayesinin gələcək inkişafına inamı artırır, onları yeni-yeni nailiyyətlərə ruhlandırır. Elə ilin əvvəlindən uğurlu start götürən neftçilər özlərinin ikinci evi saydıqları Neft Daşlarının 75 illik yubileyini də uğurlu texniki-iqtisadi göstəricilərlə qeyd edirlər.

# AÇG layihəsinin 9 aylıq uğurları

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişinin 30-cu ildönümü konsorsium iştirakçıları üçün uğurlu texniki-iqtisadi göstəricilərlə əlamətdar olub. "BP-Azərbaycan" şirkətinin 2024-ci ilin 9 ayının nəticələrinə dair hesabatına əsasən, yanvar-sentyabr aylarında konsorsium iştirakçıları "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 402 milyon dollar, əsaslı məsrəflərinə isə 968 milyon dollar xərcləyiblər.**

Bildirilib ki, bu il AÇG yataqlar blokunda yeni 4 ölçülü yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramına başlanılıb. "Balaxanı" və "Fasilə" lay dəstlərinin tədqiqinə yönəlmiş bu proqram seysmik mənbənin altında 740 kvadratkilometr, qəbuledicilərin altında isə 507 kvadratkilometr əraziləri əhatə edir. Proqramın ümumi dəyərinin, təxminən, 370 milyon ABŞ dolları, icra müddətinin isə 5 il (2024-2028) olacağı planlaşdırılır. Xatırladaq ki, tədqiqatın əhatə edəcəyi ərazi, aparılacaq işlərin ümumi dəyəri və müddəti baxımından bu layihə BP-nin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumat toplama proqramıdır. Seysmik tədqiqatlar üzrə bu il üçün nəzərdə tutulmuş iş həcmi artıq təhlükəsiz şəkildə və qrafikdən əvvəl tamamlanıb. Hazırda isə əldə olunmuş məlumatların emalı davam edir.



BP şirkəti və tərəfdaşları bu ilin birinci rübündə "Yeni əsrin müqaviləsi" adlandırılan neft layihəsi çərçivəsində mühüm uğura imza atıblar. Belə ki, aprelin ortalarında AÇG yatağında quraşdırılmış sayca 7-ci platformadan ilk neft əldə olunub. "Azəri-Mərkəzi-Şərqi" (ACE) platformasından neft hasilatına ötən ilin sonunda bu qurğudan qazılmağa başlanmış birinci quyunun istismara daxil edilməsi ilə start verilib. Platformada hazırda iki quyudan gündə, təxminən, 19 min barel neft hasil olunur. Bu ilin sonuna kimi daha bir hasilat quyusunun istismara verilməsi planlaşdırılır. Bununla da, ACE-dən hasilatın tədricən artaraq ilin sonuna gündə, təqribən, 24 min barelə çatacağı gözlənilir.

2024-cü ilin 9 ayında "Azəri-Çıraq–Günəşli" yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. İlin ötən dövründə AÇG-də, ümumilikdə, 147 neft hasilat quyusu, 47 su injektor quyusu və 8 qaz injektor quyusu istismarda olub. Yanvar-sentyabr aylarında 7 hasilat platforması vasitəsilə gündə orta hesabla 339 min barel və ya ümumilikdə, təxminən, 93 milyon barel, yəni 13 milyon ton neft çıxarılıb. Ümumi hasilatın 23 min bareli "Çıraq", 96 min 500 bareli "Mərkəzi Azəri", 75 min 500 bareli "Qərbi Azəri", 51 min bareli "Şərqi Azəri", 57 min 400 bareli "Dərinsulu Günəşli", 29 min 100 bareli "Qərbi Çıraq" və 6 min 500 bareli "Azəri-Mərkəzi-Şərqi" platformalarının payına düşüb.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Belə ki, ilin əvvəlindən müqavilə sahəsində 11 neft hasilatı, 2 su və şlamların yenidən laya vurulması üçün 1 quyu tamamlanıb.

Məlum olduğu kimi, "Əsrin müqaviləsi"nin şərtlərinə əsasən, "Azəri-Çıraq-Günəli" yataqlar blokundan xam neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan hökumətinə təhvil verilir. Bu ilin üç rübü ərzində Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6,5 milyon kubmetr, ümumilikdə, isə 1,8 milyard kubmetr səmt qazı Azərbaycanın qazpaylayıcı sisteminə ötürülüb. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

AÇG yatağındakı sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavə imzalanıb. AÇG yatağının sərbəst təbii qaz ehtiyatlarının isə 4 trilyon kub futadək olması ehtimal edilir. Sözügedən sənədə uyğun olaraq SOCAR və AÇG tərəfdaşları sərbəst təbii qaz laylarının işlənməsi üçün növbəti fəaliyyətləri planlaşdırırlar. Bu işlərin bir hissəsi kimi hazırda iki prioritet laydan qaz hasil etmək məqsədilə "Qərbi Çıraq" platformasından ilkin quyu qazılır. Həmin quyu hasilat vasitəsilə qiymətləndirmə aparmağa imkan yaratmaq və bunun əsasında da gələcək işlənmə planlarını qurmaq baxımından olduqca əhəmiyyətlidir. Bu quyudan qaz hasilatına isə 2025-ci ildə başlanılacaq.

2024-cü ilin yanvar–sentyabr aylarında AÇG və "Şahdəniz" yataqlarından neft və kondensatın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. Ötən 9 ayda terminaldan 166 milyon barel neft və kondensat ixrac olunub. Bunun da 165 milyon bareli Bakı-Tbilisi-Ceyhan, 1 milyon bareli isə Bakı-Supsa kəmərlərinin payına düşüb.

Xam nefti dünya bazarına çıxaran Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac boru kəməri də fəaliyyətini uğurla davam etdirib. "BP-Azərbaycan" şirkətinin 2024-cü ilin 9 ayının nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 104 milyon dollar, əsaslı məsrəflərinə isə 28 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş təqribən 22 milyon ton xam neft və kondensat Ceyhan terminalında 229 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC kəməri ilə 2024-cü ilin sentyabr ayının sonunadək, təqribən, 583 milyon tondan çox (4,4 milyard barel) xam neft nəql edilib. Həmin neft həcmləri Ceyhanda 5786 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adıçəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistan, eləcə də SOCAR-a məxsus digər neft həcmləri də nəql olunur.

# Naxçıvan xəbərləri

## Müvəkkil bankların sayı artıb




Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu müvəkkil kredit təşkilatlarının sayını artırıb.

Bu haqda "Xalq qəzeti"nə Sahibkarlığın İnkişafı Fondundan məlumat verilib. Məlumatda bildirilir ki, müvəkkil bankların siyahısına "Azər-Türk Bank" və "Bank Respublika" ASC-lər əlavə olunub, onların sayı 3-dən 5-ə çatıb.

Fond həmçinin 1 bank olmayan kredit təşkilatı (BOKT) ilə sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə maliyyələşdirilməsi üçün əməkdaşlıq edir.

## Energetika xidmətinin ixrac payı artır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi 2024-cü ilin yanvar–sentyabr ayları üzrə qeyri–dövlət ixracatçı subyektlərin reytinqində ölkəyə ən çox gəlir gətirən ilk 10 şirkətin və qurumun adlarını açıqlayıb.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin də adı var. Dövlət Energetika Xidmətindən verilən məlumata görə, qurum tərəfindən 2024-cü ilin yanvar–sentyabr ayları ərzində 386 815 921 kVtsaat enerji istehsalı həyata keçirib. Xidmət yerli enerji resurslarından səmərəli istifadə edərək bu potensialın daha da artırılmasını hədəfləyib.



*Səbuhi HƏSƏNOV*
*XQ*




# Sumqayıtda gübrə zavodu yaradılır

*Müəssisədə ildə 10 min ton məhsul istehsal olunacaq*

**Azərbaycan və Türkiyə birgə kapitallı "Elba Chem" QSC-yə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Bununla da, parkın rezidentlərinin sayı 41-ə çatıb.**

Yeni şirkət sənaye parkının ərazisində illik istehsal gücü 10 min ton olan kalium sulfat (gübrə) istehsalı zavodu inşa edəcək. İnvestisiya dəyəri 10,2 milyon manat olan layihə çərçivəsində 50-dən çox iş yerinin yaradılması planlaşdırılır. Müəssisədə istehsal olunacaq məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da nəzərdə tutulur.

# 10 ayda 188 milyon manatdan çox güzəştli kredit

**2024-cü ilin yanvar-oktyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən ölkə üzrə 4 min 724 layihənin maliyyələşdirilməsinə 188,2 milyon manat güzəştli kredit verilib.**

Fondun məlumatına görə, verilmiş kreditlər hesabına 3 min 544 yeni iş yerinin yaradılması nəzərdə tutulur.



# Sənaye zonalarına 6,8 milyard manatlıq yatırım

**Bu ilin yanvar–sentyabr aylarında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarına 223 milyon manat investisiya yatırılıb. Bunun da hesabına 500-dək daimi iş yeri yaradılıb.**

Xatırladaq ki, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,88 milyard manat təşkil edən 156 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb və 10,5 mindən çox daimi iş yeri yaradılıb.



*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Qarabağ "yaşıl dünya"ya çevrilir

**Misirli ekspert, Mərkəzi Asiya və Qafqaz üzrə tədqiqatçı Əhməd Abdah Tarabeyk Azərbaycan mediasına müsahibəsində ölkəmizin işğaldan azad edilmiş ərazilərinin "yaşıl"zonaya çevrilməsi imkanlarından danışarkən Qarabağ və Şərqi Zəngəzurun zəngin bərpaolunan enerji potensiala malik olduğunu bildirərək bu torpaqlarda yaşayış sahələrinin "yaşıl" enerjiyə keçidlə bağlı qlobal tendensiyalara uyğun yenidən qurulduğunu, çaylar vasitəsilə təmiz elektrik enerjisi alındığını bildirib.**

Tədqiqatçının sözlərinə görə, işğalçıdan təmizlənən torpaqlarda "yaşıl" həyat tərzini şərtləndirən digər layihələrin icrası da diqqətdə saxlanılıb. Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə bağlı iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl" enerji zonasına çevrilməsi əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib və bu, həmin ərazilərdə kifayət qədər bərpaolunan enerji potensialının mövcudluğu ilə əlaqələndirilib.

Qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl" enerji zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli Sərəncamı əsasında beynəlxalq məsləhətçi şirkətin cəlb olunması qərara alındı və icrası istiqamətində Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılaraq müvafiq konsepsiya sənədi hazırlandı.

Konsepsiyanın məqsədi işğalçıdan təzlənən torpaqlarda zəngin bərpaolunan enerji potensialından yararlanmaqla ərazini ekoloji cəhətdən təmiz "yaşıl" enerji ilə təmin etmək və enerji səmərəliliyinə malik "yaşıl" texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaq olub. Bunun üçün müxtəlif ssenarilərin tətbiqi ilə ərazilərin enerji tələbatı modelləri hazırlanıb.

"Yaşıl" enerji zonasının yaradılması çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalının gerçəkləşdirilməsi, tikililərin damlarında günəş panellərinin qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə olunması, "ağıllı" enerji idarəetmə texnologiyalarına önəm verilməsi kimi tədbirlər nəzərdə tutulub. Bununla yanaşı, Azərbaycan hökuməti 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi Konfransında (COP26) baza ili ilə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılması və işğalçıdan təmizlənən ərazilərdə "xalis sıfır emissiya" zonası yaradılması niyyəti bəyan edilib. Bununla da Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsinə başlanılıb.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları işğaldan azad ediləndən sonra bu ərazilərdə "yaşıl" texnologiyaların tətbiqi ilə bağlı layihələrin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Bununla əlaqədar Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl" enerji zonasının yaradılması üzrə Tədbirlər Planı"na əsasən, genişhəcmli işlərin icrasına başlanılıb.

Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda da Qarabağ və Şərqi Zəngəzurda "yaşıl" enerji layihələrinin həyata keçirilməsinə mühüm önəm verilib. Dövlətimizin başçısı tərəfindən bu məqsədin gerçəkləşməsi üçün 2021-ci il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl" enerji zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam da imzalanıb.

Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji potensialının gerçəkləşməsini bu ərazilərin əlverişli coğrafi şəraiti və iqlim xüsusiyyətləri, həmçinin "yaşıl" enerji mənbələrindən, o cümlədən günəş, külək və su resurslarından geniş istifadəyə münbit zəmin şərtləndirir. Prezident İlham Əliyev işğalçıdan təmizlənən torpaqların bərpaolunan zəngin enerji potensialını nəzərə alaraq o əraziləri "yaşıl" enerji zonası elan etməsi də məhz həmin amillə bağlıdır.

Mütəxəssislərin araşdırmalarına görə, Qarabağ və Şərqi Zəngəzurda 4 min meqavatdan artıq günəş və 500 meqavatadək külək enerjisi potensialı mövcuddur. Artıq həmin potensialın hərəkətə gətirilməsi istiqamətində konkret tədbirlər həyata keçirilir, aparılan bərpa-quruculuq işlərində "yaşıl" texnologiyaların tətbiqinə üstünlük verilir.

Qarabağ və Şərqi Zəngəzurun zəngin bərpaolunan enerji potensialı haqqında aydın təsəvvür yaratmaq üçün bəzi göstəriciləri də diqqətə çatdıraq. Əvvəlcə qeyd edək ki, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə, Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600–1700 kilovat/saat təşkil edir. Bu torpaqların ümumi günəş enerjisi potensialı 3–4 min meqavatdır.



Aparılan araşdırmalara əsasən, 6 rayonda (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) günəş elektrik stansiyalarının tikintisi üçün ümumi sahəsi 14 min 427 hektar və güc qoyuluşu potensialı 7 min 214 meqavat olan 8 perspektiv ərazi müəyyənləşdirilib. Hər bir ərazi üzrə düşən günəş radiasiyasının miqdarına görə gözlənilən enerji istehsalı dəqiqləşdirilib.

Qarabağda külək enerjisinin istehsalı da planlaşdırılır. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300–500 meqavat həddində qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialının hesablanacağı nəzərdə tutulur.

Bütün bunlardan başqa, Kəlbəcər və Şuşada termal su ehtiyatları var. Qarşıda duran vəzifələrdən biri də həmin mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir. Qarabağ bölgəsində, həmçinin daş kömür yataqları mövcuddur. Məsələn, Tərtər rayonunun Çardaqlı kəndi 8,5 milyon ton daş kömür ehtiyatına malikdir.

İşğaldan azad olunan ərazilər su ehtiyatlarının zənginliyi ilə də seçilir. Ümumilikdə, Azərbaycanın yerli su ehtiyatlarının 25 faizi məhz həmin sahələrdə formalaşır. Bununla yanşı, sözügedən torpaqlarda 14 çay və 9 su anbarı yerləşir. Mütəxəssislərin fikrincə, bu ərazilərin yerüstü və yeraltı su ehtiyatlarından həm içməli, həm də aqrar sahədə suvarma suyu kimi istifadə etmək üçün zəngin potensial var.

# Azərbaycanda karbon vergisi tətbiq olunacaqmı?



**İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli "Gələcəyin sədaları: İqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi" mövzusunda Dayanıqlı İnkişaf Məqsədləri dialoqunda bildirib ki, ötən əsrin 90-cı illərinədək müəyyən ədəbiyyatlar istisna olmaqla, heç bir ölkədə karbon vergisi haqqında fikir bildirilmirdi. Ötən müddətdə isə bu məsələ iqlim gündəliyində əsas yerlərdən birini tutub. Ona görə də karbon vergisini dünyanın əksər ölkələri tətbiq etməyə başladığı təqdirdə, Azərbaycan da təbii ki, fərqli davranmayacaq.**

S.Bəşirlinin sözlərinə görə, karbon vergisi, şübhəsiz ki, real sektora təsir edəcək. Amma biz qlobal reallığı nəzərə almadan qlobal iqtisadiyyata inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərə bilmərik. Biz bu reallıqları diqqətdə saxlamaq məcburiyyətindəyik: "Mövcud resurslarla istər maliyyə, istər investisiya, istərsə də ticarət sahəsində yüksək nəticələr əldə edirik. Amma bu töhfələr daha çox olmalıdır. Lakin resurslarımız məhduddur. Belə olduğu təqdirdə bu sahələr arasında sinerjini artırmaq lazımdır. Bu, çox asan səslənsə də, bir o qədər çətindir. Bu, qlobal və milli səviyyədə səylərin səfərbər olunmasını tələb edir".

Yeri gəlmişkən, dünyada geniş tətbiq edilən karbon vergisi ölkələrin atmosferə buraxılan zərərli qaz emissiyalarını azaltmağı hədəfləyir və bu vergi növü istehsal prosesində meydana çıxan karbon, dioksid emissiyalarını məhdudlaşdıran vasitə kimi tətbiq edilir. Karbon vergisi ilk dəfə 1991-ci ildə Finlandiyada qüvvəyə minib. Avropa İttifaqı ölkələri 2005-ci ildən bu verginin tətbiqinə başlayıb.

Hazırda İsveçrə, Norveç, Böyük Britaniya, Kanada, Yaponiya və Yeni Zelandiya kimi ölkələr daxili bazarlarında karbon vergisinin müxtəlif növlərini tətbiq edir. Fəaliyyətə görə karbon vergisinin tətbiqi zamanı məhsullara və ya müəssisələrə istehsal etdikləri emissiyalara nisbətdə vergi öhdəliyi müəyyənləşir. Karbon vergisi tətbiq edən ölkələrin təcrübəsi göstərir ki, bu vergi istixana qazı emissiyalarını səmərəli şəkildə azaldır. Karbon vergisi tətbiq edən ölkələrdə ekoloji cəhətdən təmiz texnologiyalardan istifadəyə üstünlük verilir, nəticədə istixana qazlarının emissiyalarının azaldılması kimi müsbət göstəricilər əldə edilir.

Qeyd edək ki, 2026-cı ildən Avropa İttifaqının (Aİ) sərhəddə karbon ticarət sistemi tətbiqinə başlayacağı gözlənilir. Aİ-yə üzv dövlətlərin qərarına əsasən, üçüncü ölkələrdən bu ittifaqa idxal edilən sement, alüminium, gübrə, elektrik enerjisi, dəmir və polad kimi məhsullara karbon vergisi tətbiq olunacaq ki, bu da Azərbaycanın, ümumilikdə, həmin vergiyə keçidini labüdləşdirəcək. Ona görə də hökumət karbon vergisinin tətbiqi ilə sənaye müəssisələrinin ekoloji problem yaratmaqdan uzaqlaşdırmağa, karbon emissiyasından çəkindirməyə çalışmağı düşünür. Ölkəmizin bu vergi rejiminə keçməsindən sonra karbon vergisinə məruz qalacaq sahibkarlar məlum öhdəlikləri nəzərə alaraq öz gələcək fəaliyyətlərini intizamlı, "yaşıl davranış kodeksinə" uyğun qurmalı olacaqlar. Ən optimal yol isə sahibkarların könüllü şəkildə karbon emissiyasını azaldan texnologiyaların geniş tətbiqinə keçməkdir.

# COP29 ərəfəsində miqrasiya güzəştləri

**Dövlət Miqrasiya Xidməti COP29 Təşkilat Komitəsi və COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə birgə miqrasiya qeydiyyat prosedurlarının sadələşdirilməsi, bu sahədə məlumatlılığın artırılması, eləcə də ölkəyə giriş-çıxış zamanı qarşıya çıxa biləcək məsələlərin çevik həlli istiqamətində tədbirlər görüb.**



Dövlət Miqrasiya Xidmətinin nümayəndəsi Ülvi Əliyev bununla bağlı keçirilən brifinqdə iqlim konfransından əvvəl miqrasiya qaydaları ilə bağlı güzəştlərin tətbiq olunacağını bildirib: "Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanmış sazişə əsasən 15 gün ərzində qeydiyyat tələbi COP29 iştirakçıları üçün 30 günədək uzadılıb. Güzəştlər BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının qeydiyyatından keçərək COP29 vizası ilə və ya vizasız qaydada ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə şamil olunub.

Həmçinin bu tələblərin praktiki tətbiqi, tədbirdə iştirak edən əcnəbilərin, xüsusilə ölkəmizə vizasız gələn şəxslərin ölkəyə giriş-çıxış zamanı rahat, maneəsiz keçidi üçün zəruri texniki və təşkilati hazırlıq işləri görülüb".

Ü.Əliyev vurğulayıb ki, tətbiq edilən qaydalarla bağlı əcnəbilərin məlumatlandırılmasının təmini üçün görülmüş birgə tədbirlər nəticəsində COP29-un rəsmi internet səhifələrində və digər müvafiq mənbələrdə miqrasiya qaydaları barədə məlumatlar yerləşdirilib, o cümlədən Azərbaycana uçuşlar həyata keçirən aviasiya şirkətlərinin, eləcə də digər hədəf qruplarının müvafiq qaydada məlumatlandırılması təmin edilib.

Miqrasiya Xidməti nümayəndəsinin sözlərinə görə, konfrans müddətində ölkəyə gələn əcnəbilərin miqrasiya orqanları ilə mümkün təmas nöqtələrində – Heydər Əliyev Beynəlxalq Aeroportunda, xidmətin Çağrı Mərkəzində və digər xidmət nöqtələrində gücləndirilmiş iş rejiminə keçirilməsi ilə bağlı zəruri tədbirlər görülüb. Sessiya zamanı–noyabrın 18-də Beynəlxalq Miqrasiya Təşkilatı ilə birgə iqlim dəyişikliyi kontekstində insan yerdəyişməsi mövzusuna həsr olunmuş yüksək səviyyəli panel müzakirənin keçirilməsi də planlaşdırılıb.

# BP-nin uşaqlara "yaşıl" töhfəsi

**BP şirkəti Azərbaycan dilində "Uşaqlar üçün yaşıl biliklər" adlı kitabın təqdimatını keçirib. Bu layihə şirkətin ölkədə davamlı inkişafa və təhsilin təkmilləşdirilməsinə dəstək öhdəliyinin bir hissəsidir. Layihə məktəbəqədər, ibtidai və orta təhsil səviyyələrində uşaqları maarifləndirmək və onlarda xüsusi bacarıqlar inkişaf etdirməklə dayanıqlılıq mədəniyyəti aşılamaq məqsədi daşıyır. Kitab ətraf mühitə əhəmiyyətli təsir göstərmək istəyən valideynlər, təhsil işçiləri, şagird və tələbələr üçün mühüm bir mənbə kimi nəzərdə tutulub.**




Tədbirdə çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Uşaqlarda ətraf mühitə dair məlumatlılığı və bacarıqları inkişaf etdirməklə onları gələcək nəsillər üçün planetimizi qorumağa kömək edən dayanıqlı seçimlər edə biləcək məsuliyyətli vətəndaşlar kimi böyüdə bilərik. İqlim dəyişikliyinin və ekoloji problemlərin planetimizə təsiri artdıqca uşaqları dayanıqlı həyat tərzi və ətraf mühitə qayğı ilə yanaşma haqqında maarifləndirmək olduqca vacibdir. Uşaqlara erkən yaşlardan "yaşıl" biliklər aşılamaqla biz onların dünyamıza müsbət təsir göstərə biləcək, ətraf mühitə həssas vətəndaşlar kimi formalaşmasına kömək edirik".

Qeyd edək ki, 9 fəsildən və nəticədən ibarət 168 səhifəlik kitab "yaşıl" biliklərin inkişaf etdirilməsi üçün həm hərtərəfli, həm də əlçatan yanaşma təmin edir. Kitabın hər bir fəslində müvafiq yerli və beynəlxalq qanunvericilik aktları uşaqların asanlıqla başa düşə biləcəyi formada təqdim edilir. Burada, həmçinin uşaqların marağını cəlb etmək və onları fəal iştiraka həvəsləndirmək üçün şəkillər, interaktiv fəaliyyət və oyunlar, eləcə də ekoloji terminlərin izahlı lüğəti və digər faydalı məzmun var.

# Bakı konfransının enerji təchizatı dayanıqlı olacaq

**COP29 konfransının, o cümlədən Bakı şəhərinin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi məqsədilə kompleks qabaqlayıcı tədbirlər həyata keçirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq hava durumu və digər fövqəladə şərait üzündən enerjisistemdə baş verə biləcək qəza hallarında operativ personalın hərəkəti, qəzanın aradan qaldırılması, işlərin qüsursuz təşkilinin simulyasiyası üçün əməliyyat heyətlərinin iştirakı ilə regional əks-qəza məşqləri keçirilib.**

Əməliyyat heyyətinin bilik və vərdişlərinin artırılması, həmçinin "Azərenerji" və "Azərişıq" ASC-lərin mərkəzi dispetçer idarəetməsi arasında koordinasiyanın gücləndirilməsi üçün keçirilən regional əks-qəza məşqində, əsasən şərti olaraq Bakı şəhərinin ötürücü şəbəkə infrastrukturunu enerjisistemlə əlaqələndirən 220 kV-luq elektrik verilişi xəttləri açılarsa, alternativ sxem yığılaraq ən qısa zamanda şəhərin elektrik enerjisi ilə təchizatının bərpası simulyasiya edilib.

Əks-qəza məşqinə "Azərenerji" və "Azərişıq" ASC-lərin mərkəzi dispetçer xidmətlərinin, eyni zamanda, ötürücü və paylayıcı müəssisələrin əməliyyat heyəti cəlb edilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 2 əsrlik tariximizin qürur günü

**Dörd il əvvəl cəmi 44 günə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Qarabağda əsl qəhrəmanlıq dastanı yazdı. Vətən adı ilə müqəddəsləşən həmin müharibədə haqq işimiz qalib gəldi: Silahlı Qüvvələrimiz işğalçı Ermənistanı məğlubiyyətə uğratmaqla bərabər, son 200 illik tariximizin qızıl hərflərlə yazılan yeni bir səhifəsini açdı.**



*Tənzilə RÜSTƏMXANLI,*
*Milli Məclisin deputatı*

Dövlətimizin başçısı, özünün böyük sərkərdəlik məharətini dünyaya göstərən Ali Baş Komandanımız həmin günlərdə demişdi: “Bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi”.

Bəli, son 200 ildə biz torpaqlarımızı ancaq itirə-itirə gəlirdik. Amma Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan tarixdə ilk dəfə olaraq öz torpaqlarını işğaldan azad edərək xalqımıza Qalib Xalq imici qazandırdı.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycanın başladığı əks-hücum əməliyyatı və bu zaman tətbiq olunan modern döyüş taktikası dünya hərb tarixində əsl yenilik hesab olunur və dünyanın ən məşhur hərbi institutları tərəfindən araşdırılaraq ətraflı şəkildə öyrənilir.

Bakının Azadlıq Meydanında keçirilmiş ilk Zəfər paradında ürəyi vətən sevgisi ilə döyünən hər kəs qürur dolu bir gün yaşadı. Qətiyyətin, əzmin, inamın, imanın paradı idi o təntənə! Sarsılmaz dövlət-ordu-xalq birliyinin təcəssümü idi! Şərəf paradı idi Zəfər paradı!

Vətən müharibəsində qazandığı qələbə ilə öz gücünü bütün dünyaya sübut edən Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Etiraf olunur ki, bizim ədalətli qələbəmiz, əslində, bölgədə davamlı sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət edir və beynəlxalq hüququn norma və prinsiplərinə tam olaraq əsaslanır.

Ötən il sentyabrın 19-da Zəfər yürüşünün davamı olan, cəmi 23 saat 48 dəqiqə davam edən antiterror tədbirləri Ali Baş Komandanın qətiyyətini, dəmir yumruğun yerində olduğunu, Ordumuzun gücünü bir daha nümayiş etdirdi. Üçtərəfli məlum Bəyanatın şərtlərinə əməl etməyən düşmən yenə ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bununla da Qarabağda terrorçuların və separatçı rejimin mövcudluğu tarixin zibilliyinə atıldı, bizimsə dövlət suverenliyimiz, ərazi bütövlüyümüz tam bərpa edildi. Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbənin ardınca Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Xankəndi, Xocalı, Xocavənd, Əsgəran və



Ağdərədə Dövlət Bayrağımızı ucaltmaqla xalqımıza tükənməz sevinc və qürur yaşatdı. Qondarma “Dağlıq Qarabağ”ın statusunun müəyyən edilməsi məsələsinin üstündən birdəfəlik xətt çəkildi. Tarixi Azərbaycan torpaqlarında daha bir quruma erməni dövlətinin qurulması planları darmadağın edildi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!

Hazırda ölkəmizdə “Böyük Qayıdış” konsepsiyası uğurla həyata keçirilir.

Ən böyük reallıq isə əlbəttə ki, torpaqlarımızın azad edilməsi, dağıntılara məruz qalmış yaşayış məntəqələrinin bərpası, vətəndaşlarımızın öz yurd-yuvalarına dönməsidir.

Ulu öndər Heydər Əliyevin ruhuna böyük minnətdarlıq duyğuları ilə xatırlayırıq ki, Qarabağ Zəfərinə aparan yolun başlanğıcı məhz onun tərəfindən qoyulmuşdu. Sonrakı dövrdə həyata keçirilən kompleks tədbirlər, əzmkar və çoxşaxəli fəaliyyət bizi bu hədəfə addım-addım yaxınlaşdırdı. Cənab İlham Əliyev Ulu öndərimizin qoyduğu möhkəm təməl üzərində dünyada söz sahibi olan, böyük iqtisadi gücə malik qüdrətli Azərbaycan dövləti qurdu. Azərbaycan Ordusu ən müasir silah-sursat və hərbi texnika ilə təmin olundu, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, mənəvi-psixoloji ruhunun yüksəldilməsi üçün bütün zəruri tədbirlər görüldü. Möhtərəm Prezidentin davamlı səyləri ilə ildən-ilə artan iqtisadi-hərbi güc və siyasi iradə nəticəsində BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalmış 4 qətnaməsini Azərbaycan özü icra etdi. Rəşadətli ordumuz, xüsusən Silahlı Qüvvələrin son 20-30 ildə yetişən fədakar, vətənpərvər gənc nəsli bu müqəddəs missiyanın yerinə yetirilməsinə öz töhfəsini verdi. Xalqımızın lideri ətrafında yumruq kimi birləşməsi, görünməmiş milli həmrəylik nümayiş etdirməsi tarixi qələbənin təmin edilməsində mühüm rol oynadı.

Möhtəşəm Qələbədən sonra atılan ilk mühüm addımlar təbii ki, Vətən müharibəsində Azərbaycan övladlarının qəhrəmanlığına qiymət verilməsi ilə əlaqədar idi. Bu baxımdan, Azərbaycan Prezidentinin Zəfər və Anım günlərinin təsis olunması, Vətən müharibəsində böyük şücaət göstərən hərbçilərin təltif edilməsi ilə bağlı qərarları xalqın ürəyincə oldu. Həmin addımlar ərazi bütövlüyümüz uğrunda həyatını itirən vətəndaşlarımızın ruhuna sonsuz ehtiramın bariz nümunəsidir.

Bu gün artıq Zəfər Gününü təkcə ölkəmizin daxilində yaşayan əhali deyil, dünyanın hər yerindəki azərbaycanlılar böyük qürur hissi ilə qeyd edirlər. Digər tərəfdən, bu Qələbə sadəcə Azərbaycan üçün deyil, regiondakı digər dövlətlər üçün də yeni bir mərhələnin başlanğıcına çevrilib. Çünki Azərbaycan erməni faşizmini məğlub etməklə regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verib.

Döyüş meydanında göstərilən qətiyyət, əzmkarlıq bu gün zəhmət meydanında - azad torpaqlarımızda aparılan bərpa-quruculuq işləri ilə davam etdirilir. Qarabağın və Şərqi Zəngəzurun qəvi düşməndən təmizlənmiş əraziləri sürətlə yenidən qurulur, dirçəldilir, bu torpaqlara əbədi xoşbəxt həyat gətirilir.

Bu gün dünyada bir qalib Azərbaycan var və regionda icra olunan bütün layihələr qətiyyəti ilə sözsüz hesablaşılan ölkəmizin bilavasitə iştirakı ilə həyata keçirilir.

Böyük tarixi Zəfərin yaratdığı sonsuz iftixar duyğusu ilə bölüşdüyüm qeydlərimin sonunda öz sinəsini düşmən gülləsinə sipər edərək canından keçmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Azərbaycan öz qəhrəman övladları ilə fəxr edir, qürur duyur və onları heç vaxt unutmayacaq!

## Zəfər marafonunun 42-ci günü

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 7 noyabr



• Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” hesabında bildirib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, döyüş əməliyyatları müxtəlif intensivlikdə cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edib. Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar var. Həmçinin işğalçı ordunun 6-cı dağatıcı alayının 1-ci taborunun bölmələrinin şəxsi heyəti arasında itkilər olub. Düşmən ordusunun D-30 artilleriya divizionunun 3-cü batareyasının topları da sıradan çıxarılıb.

• Cəbhədə gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti bölmələrimiz tərəfindən mühasirəyə alınaraq məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, döyüşlər başlayandan indiyədək canlı qüvvə sarıdan xeyli itkiyə məruz qalan düşmən xüsusi təyinatlılarını gücləndirmək məqsədilə bir müddət əvvəl onlara könüllülər və yerli sakinlər də qoşulub. Buna baxmayaraq, son döyüşdə ağır itkilər verən xüsusi təyinatlılar mövqelərindən çəkilmək məcburiyyətində qalıblar.

Daxil olan məlumata görə, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən 178-ci ələhiddə kəşfiyyat taboru da döyüşlərdə ölü və yaralı olaraq şəxsi heyətinin yarısını itirib.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini paylaşıb.

• Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi ziyan vurulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu istiqamətdəki 37-ci atıcı diviziyanın 4-cü motoatıcı alayının müdafiə sahəsindəki minaatan batareyasına endirilən artilleriya zərbələri nəticəsində düşmən itki verərək mövqelərini tərk edib.

Alayın gücləndirilməsi məqsədilə buraya gətirilən və içərisində könüllülər olan avtobus qəzaya uğrayıb. Nəticədə 30 nəfərədək ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin xəsarət aldığı məlum olub.

62-ci artilleriya briqadasının 4-cü reaktiv divizionunun atəşə tutulması nəticəsində bir BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb, şəxsi heyət arasında ölən və yaralanan var.

• Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 4-cü motoatıcı alayının növbəti hərbi kolonu məhv edilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Ağdamdan Xankəndi istiqamətində hərəkət edən 3 “KamAZ”, 2 “Ural” və 2 PDM-dən ibarət hərbi kolonun atəşə tutulması nəticəsində düşmənin çoxlu sayda hərbi qulluqçusu məhv edilib. Bundan əlavə, düşmənin 30 nəfərədək hərbi qulluqçusu yaralanıb və kolonda olan hərbi texnika yanıb.



• Ermənistan silahlı qüvvələri noyabrın 7-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli, Arasbar, Qaraxanlı və Hacılar kəndlərini ağır artilleriyadan atəşə tutub. Nəticədə sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ziyan dəyib.

Yuxarı Qiyaməddinli kəndinin sakini Orxan Şükürov Azərbaycan mediasına bildirib ki, təkcə bu gün kəndin ərazisinə 40-dan artıq mərmi düşüb. Nəticədə üç evə ziyan dəyib, bir evin hasarı uçub. Kəndin mütəmadi olaraq atəşə tutulmasına, çoxsaylı dağıntılara baxmayaraq sakinlərin əhval-ruhiyyəsi yüksəkdir. Hər kəs Azərbaycan Ordusuna güvənir, qələbənin yaxında olduğuna inanır.

Kənd sakini Arzuman Qasımov isə hər gün düşmən atəşinə məruz qaldıqlarını, lakin buna baxmayaraq yurdu tərk etməyəcəklərini, Ordumuza, Prezidentimizə güvəndiklərini bildirib.

Qeyd edək ki, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi Ermənistan–Azərbaycan Qarabağ münaqişəsi zamanı ən çox zərər çəkən, ağrı-acı yaşayan yaşayış məntəqələrindən biridir. Təmas xəttinə yaxın məsafədə yerləşən bu kəndi 1993-cü və 1994-cü illərdə Ermənistan silahlı birləşmələri iki dəfə işğal etsə də, Azərbaycan Ordusu tərəfindən azad olunub. Kəndi tərk etməyə məcbur qalan ermənilər evləri yandıraraq, hər tərəfə mina basdırıblar. Öz doğma yurdlarına qayıdan kənd sakinləri ötən dövr ərzində həm ermənilərin basdırdığı minalardan, həm də atəşkəsi tez-tez pozmasından əziyyət çəkirlər.

Yuxarı Qiyaməddinli kəndi sentyabrın 27-dən başlayaraq demək olar ki, hər gün artilleriya atəşinə tutulur. İndiyədək kənddə 12 ev tamamilə dağılıb, 60-dan artıq evə ziyan dəyib. 56 baş xırdabuynuzlu, 30 baş iribuynuzlu heyvan, 300 baş ev quşları tələf olub, 1000 ədəd ot bağlaması yanıb.

*XQ*

# Milli Qəhrəmanımız Özbəkistanda tanıdılır



**Zəfər Günü ərəfəsində Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə çap edilən mərhum tədqiqatçı – jurnalist Mövlan Şükürzadənin Azərbaycanın Milli Qəhrəmanı İskəndər Aznaurova həsr etdiyi “Vətən üçün can fəda edən qəhrəmanlar” kitabının təqdimatı keçirilib.**

Daşkənd İqtisadiyyat və Pedaqogika İnstitutunda təşkil olunan təqdimat mərasimində rektor, professor Şakarboy Caniqulov çıxış edərək Azərbaycan torpaqlarının 30 ilə yaxın erməni işğalı altında qaldığını bildirib. Rektor bu ərazilərdə ermənilərin genişmiqyaslı vandalizm siyasətindən söz açıb, Qarabağda tarixi abidələrimizin, məscidlərimizin tamamilə dağıdıldığını və nisbətən salamat olan iki məsciddə donuz saxladıqlarını xüsusi vurğulayıb. Hələ yüz il bundan qabaq Özbəkistanın Fərqanə, Mərgilan, Kokand və digər şəhərlərində özbək xalqına qarşı daşnakların törətdiyi vəhşiliklərdən, cinayətlərdən söz açıb.

AMM direktorunun müavini Nadir Əlimirzəyev Qarabağ müharibəsi dövründə Özbəkistan dövləti və xalqının həmişə yanımızda olduğunu, Azərbaycanın haqlı mübarizəsini dəstəklədiyini xatırladıb. Noyabrın 8-də Qarabağın tacı, Azərbaycan mədəniyyətinin beşiyi sayılan Şuşa şəhərinin işğaldan azad olunduğu tarixin Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən Zəfər Günü kimi qeyd olunduğunu bildirib. Bu gün işğaldan azad olunmuş torpaqlarda böyük quruculuq işlərinin aparıldığını deyən natiq bu işdə özbək qardaşlarımızın da rolunun olduğunu deyib.

Professor Marufcan Yoldaşov, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə iki ölkə arasında mədəni-ədəbi əlaqələrdən söz açaraq bu sahədə AMM-nin fəaliyyətindən, mərkəzin çap etdiyi kitablardan danışıblar.

Tarixçi alim, dosent Asror Qayumov, hərbçi, polkovnik Noryigit Dusanov ermə-



nilərin türk xalqlarına qarşı tarixi düşmənçiliyindən söz açaraq, azərbaycanlılarla yanaşı, özbəklərin də ermənilər tərəfindən soyqırımlara, qətliamlara məruz qaldıqlarını xatırladıb.

Sonda İskəndər Aznaurovun həyatı və döyüş yolundan bəhs edən sənədli film təqdim edilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Zəfərə gedən yol

**2020-ci ilin payızında başlayan 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın "başına" iyirmi üç illik uzun hazırlığın Zəfər "tac"ını qoydu. Bu zəfərə uzanan yol zaman baxımından bəlkə də çox qısa görünə bilər, amma zaman çərçivəsində görülən işlər o qədər mühüm və çoxdur ki, bu gün onları açıqlamadan, onlara dəyər vermədən Zəfərin qədərini və dəyərini bütün təfərrüatı ilə dərk etmək asan olmayacaq.**



Ermənistanın və Azərbaycana qənim kəsilənlərin böyük əksəriyyətinin dünyanın siyasət patriarxlarından biri Heydər Əliyevi şadyanalıqla hesabdan silmələrinə baxmayaraq, o, 1993-cü ildə Vətənə dağılmış ölkənin xilaskarı kimi qayıtdı. 1994-cü ilin mayında vətəndaş müharibəsini dayandırdı və ölkənin "yarımcan" ordusunun, hakimiyyət uğrunda bir-birinə qarşı savaş açan səhra komandirlərinin rüsvay olmasına imkan vermədi. Münaqişə donduruldu. Bundan sonra 26 il keçdi. Yalnız indi bir çox siyasi analitiklərə və politoloqlara bəlli olur ki, Qarabağ münaqişəsinin 26 il dondurulmasının açarını kənarda yox, məhz Bakıda, əvvəlcə ulu öndər Heydər Əliyevin, sonra isə Prezident İlham Əliyevin diplomatik siyasi gedişlərində və hesablamalarında axtarmaq lazım imiş.

...Hakimiyyətə gəldiyi ilk gündən uzaqgörən siyasətçi və diplomat Heydər Əliyevin xarici siyasətdə balanslaşdırma fəaliyyəti, həqiqətən, heyrət doğururdu. Rusiya, ABŞ, Avropa ölkələri, İran və Türkiyə ilə sıx bağlılıq deyil, bərabər məsafəli tərəfdaşlıq, ən əsası Ermənistanla münasibətlərdə "nə sülh, nə müharibə" elə ilk gündən hamını çaşbaş saldı. Birinci Qarabağ müharibəsinin qalibiyyətindən məst olan Ermənistanla sülh bağlamaq bütün vasitəçi dövlətlərin təklif etdiyi güzəştlərə boyun əyib məğlubiyyəti rəsmən qəbul etmək demək idi. Amma nə Heydər Əliyev, nə də ondan sonra dövlət başına gələn İlham Əliyev buna əsla getmədilər. Şuşa azad edildən sonra Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Ulu öndərin məzarını ziyarət edərkən dedi: "Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı... Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək, Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik".

...1998-ci ilin fevral ayında Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişənin tarixində problemin sülh yolu ilə həllinin qeyri-mümkün olduğunu göstərən bir dönüş nöqtəsi oldu və bundan sonra onun hərbi yolla həlli yalnız zaman məsələsinə çevrildi. Hamıdan əvvəl bu analoji nəticəyə gələn uzaqgörən strateq Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpasının və gələcək taleyinin yalnız hərbdən asılı olduğunu qətiləşdirdi və bunu öz siyasi varisi, cənab İlham Əliyevə verdiyi siyasi vəsiyyətinin əsas və gizli ideyasına çevirdi. 2020-ci il noyabrın 8-də Azərbaycanın dövlət başçısı Şuşa azad edildikdən sonra Şəhidlər xiyabanına gəlib "xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" – deməsi əsla təsadüf deyildi. Bu, bir daha onu göstərirdi ki, Zəfərə yol 44 günlük müharibədən 26 il əvvəl başlanıb. Prezident İlham Əliyev 2003-cü ildə dövlət başına keçən ilk gündən başlayaraq məsələnin həllinə hərtərəfli, təmkinlə və tələsmədən yanaşmağa başladı. Ali Baş Komandan Azərbaycanın ərazi bütövlüyünün təminatı kimi seçdiyi strateji hədəfə çatmaq üçün məqsədyönlü və sistemli şəkildə problemin üç blokunu – sürətli hərbi quruculuq, onun xarici siyasət və iqtisadi təminatını ardıcıl şəkildə həll etməyə başladı.

Hərbi quruculuq sahəsində Azərbaycan dövlətinin hərbi strukturunun, o cümlədən tapşırıqların hərbi üsullarla yerinə yetirilməsi nəzərdə tutulan digər təhlükəsizlik xidmətlərinin silahlı qüvvələri və birləşmələrində, habelə onların idarəetmə orqanlarında islahatların aparılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməyə başlandı. 2003-cü ildən 2020-ci ilə qədər – 17 il ərzində milli təhlükəsizliyin təmin edilməsi vəzifələrinə uyğun və ölkənin iqtisadi imkanları nəzərə alınmaqla silahlı qüvvələrin və digər qoşunların təşkilati strukturu, tərkibi və gücü, onların texniki təchizatı, işə qəbul və hərtərəfli dəstək ciddi şəkildə təkmilləşdirildi. Bunun üçün müvafiq hüquqi və hərbi-nəzəri baza yaradıldı: bir sıra yeni qanunvericilik aktları qəbul olundu, cari dəyişikliklər olundu. Qüvvədə olan qanunvericiliyə dəyişikliklər oldu, konseptual və doktrinal sənədlər – Hərbi doktrina, Milli təhlükəsizlik konsepsiyası, Dəniz təhlükəsizliyi strategiyası və s. işlənib hazırlandı və dövlət başçısının bilavasitə nəzarəti altında dəqiqliklə həyata keçirilməyə başlandı.

Xarici siyasət sahəsində bilavasitə Prezident İlham Əliyevin məharətli diplomatik gedişləri sayəsində Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında beynəlxalq ictimaiyyətin rəyini əsaslı şəkildə öz xeyrinə inkişaf etdirməyə nail oldu və ən böyük regional və regiondankənar aktorların – Rusiya, Türkiyə və İran, eləcə də ABŞ, Çin və Avropa Birliyi dövlətlərinin maraqları balansını qurdu. İqtisadi baxımdan infrastruktur və logistika sahəsində sıçrayış əldə edildi: ölkə beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində regional mərkəzə çevrildi, Xəzər dənizinin şelfində karbohidrogenlərin hasilatı və emalı daha da inkişaf etdirildi. Bu, öz növbəsində, büdcəni zəruri maliyyə resursları ilə doldurmağa və dövlətin hərbi strukturlarının uğurlu transformasiyası üçün əlverişli xarici siyasət fonunu təmin etməyə imkan verdi.

Azərbaycanın müharibədən əvvəl – 2018- 2019-cu illərdə hərbi xərcləri büdcə xərclərinin 10-11 faizi daxilində dəyişdi və ÜDM-in 4 faizinə yaxınlaşdı ki, bu da mütləq ifadədə 1,7-1,8 milyard dollar təşkil edirdi. Müharibənin başlayacağı 2020-ci hərbi ilində isə bu məbləğ qısa müddətdə 2,2 milyard dollara yüksəldi. Bu da büdcə xərclərinin 14 faizinə və ya ÜDM-in 5,4 faizinə bərabər idi. Azərbaycan hərbi xərclərlə milli büdcəni həddindən artıq yükləmədən, böyük həcmdə müasir, yüksək dəqiqlikli silah sistemlərinin alınmasını həyata keçirə bilirdi. Hərbi-texniki siyasətdə əsas diqqət pilotsuz aviasiya sistemlərinə və döyüş sursatlarına, habelə hərbi artilleriyanın uzaqmənzilli atıcı silahlarına yönəldilirdi. Beləliklə, 2020-ci il payızın əvvəlinə Zəfər yürüşünə başlamaq üçün Azərbaycan Silahlı Qüvvələrinin lazımi silah və sursat ehtiyatı yaradıldı və 44 gün davam edən bütün hərbi əməliyyatlarda kütləvi şəkildə istifadə olundu. Məhz bu tədbirlərlə Azərbaycan Silahlı Qüvvələrinin qondarma "DQR Müdafiə Ordusu" adı altında döyüşən Ermənistan ordusu üzərində ümumi üstünlüyü təmin edildi.

Erməni separatçılarının işğalı altında olan Dağlıq Qarabağ ərazisinin və Azərbaycanın ona bitişik yeddi rayonunun azad edilməsi məqsədi ilə qarşıdan gələn genişmiqyaslı hücum əməliyyatına hazırlığın mühüm tərkib hissəsi həm də Azərbaycan Silahlı Qüvvələrinin hissələrinin və hərbi birləşmələrinin intensiv əməliyyat və döyüş hazırlığı oldu. Dörd il yarım ərzində, 2016-cı ilin may ayından 2020-ci ilin sentyabr ayına qədər quru qoşunlarının hərbi hissələrinin və qoşun birləşmələrinin, digər silahlı qüvvələrin və hüquq-mühafizə orqanlarının birləşmələri və hissələri ilə birlikdə hər il bir neçə genişmiqyaslı əməliyyat-taktiki, əməliyyat və strateji ikitərəfli çoxsəviyyəli təlimləri keçirilirdi.

Etiraf edək ki, Azərbaycanın NATO-nun Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramında fəal iştirakı da alyansın Bakıya qarşı neytrallığının formalaşmasına böyük töhfə verdi. Müstəqillik illərinin bəlli dövrlərində Azərbaycan Ordusu planlı şəkildə NATO-nun himayəsi altında müxtəlif proqramlar üzrə keçirilən əməliyyatlarda iştirak edirdi. Praktiki baxımdan, Azərbaycan silahlı qüvvələri ilə NATO arasında hərbi əməkdaşlıq NATO-nun Əfqanıstanda hökumət qüvvələrinə təlim və yardım missiyası çərçivəsində həyata keçirilirdi.

Əlbəttə, Azərbaycanın dövlət başçısı İlham Əliyevin geosiyasi müstəvidə bütün bu diplomatik gedişləri 2020-ci ildə gerçəkləşəcək müharibədə qələbənin həm döyüş meydanında, həm də beynəlxalq siyasi müstəvidə təmin edilməsinə hesablanmış addımlar idi.

Azərbaycanın hərbi hazırlıqlarında qoşunların təşkili, hərbi infrastrukturun inkişafı və düşmənlə birbaşa təmasda olan hərbi xidmətin nüfuzunun yüksəldilməsi mühüm rol oynadı. 2013-cü ilin sonundan 2018-ci ilin ortalarına kimi cəbhəboyu zonada dörddən çox hərbi şəhərcik tikildi. Barak və yaşayış fondunun 80 faizi yenidən quruldu və ya əsaslı təmir edildi. Nəticədə silahlı qüvvələrin şəxsi heyətinin 85 faizi normal şəraiti olan tikililərdə yerləşdirildi. Cəbhə xəttində yerləşən hərbi birləşmələrdə hərbi qulluqçuların sosial, məişət və ərzaq təminatı əsaslı surətdə yaxşılaşdırıldı, hərbi şəhərciklərin qazlaşdırılması və su ilə təminatı məsələləri həll olundu. Eyni zamanda, bütün ölkə üzrə hərbçi ailələrinin mənzil-məişət şəraiti xeyli yaxşılaşdırıldı: Prezident İlham Əliyevin qərarı ilə 20 il qüsursuz xidmət etmiş hərbi qulluqçular dövlət tərəfindən pulsuz mənzillə təmin olunmağa başlandı.

Təkcə 2016-2020-ci illərdə Hərbi Hava Qüvvələrinin (HHQ) Uçuşların İdarə Edilməsi və Texniki İdarəetmə Mərkəzi, HHQ-nin birgə komanda qərargahı, Pilotlu Döyüş Aviasiyasının Pilotlarının Hazırlığı Mərkəzi, Pilotsuz Təyyarə Mütəxəssislərinin Hazırlığı üzrə Təlim Mərkəzi, HHQ-nin Radiotexniki Bölmələrinin İdarəetmə Mərkəzi, Silahlı Qüvvələrin maddi-texniki təminatı qərargahının idarəetmə mərkəzi, rabitə vasitələrinə texniki xidmət və təmir mərkəzi, yenidən qurulan dalğıc poliqonu, hərbi hospitallar və digər hərbi infrastruktur istifadəyə verildi.

Nəhayət, ordu quruculuğunda yüksək döyüş hazırlığını təmin edən çox vacib aspekt – kadr siyasəti yeni tələblərlə gerçəkləşdirilməyə başlandı. Əgər ölkənin işğal olunmuş ərazilərinin azad edilməsi üçün hərbi əməliyyatın keçirilməsi ilə bağlı siyasi qərar uzaq 1998-ci ildə verilib və 2003-cü ildə təsdiqləndisə, kütləvi hərbi texnikanın alınması əsas ixracyönümlü neft-qaz infrastrukturunun istismara verilməsindən sonra – 2008-2014-cü illərdə həyata keçirilməyə, dövlət başçısının qarşıya qoyduğu siyasi tapşırıqların hərbi yolla həyata keçirilməsi üçün çağırılan kadrların seçilməsi və yerləşdirilməsi 2014-2020-ci illər ərzində, qoşunların və hərbi birləşmələrin döyüş hazırlığının artırılması prosesinə paralel gerçəkləşdi.

2013-cü ilin oktyabrında dövlət başçısının general Zakir Həsənovu müdafiə naziri təyin etməsi dönüş nöqtəsi oldu. Yeni nazir dövlət başçısı İlham Əliyevdən silahlı qüvvələrin təyinatı üzrə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və toxunulmazlığının müdafiəsinə hazırlanması məqsədilə köklü hərbi islahatların aparılması üçün kart-blanş aldı. Artıq 2014-cü ildən silahlı qüvvələrin əməliyyat və döyüş hazırlığının məzmunu, istiqaməti və intensivliyi kəskin şəkildə dəyişdi. Səmimi etiraf edək ki, 20 illik mövqe müharibəsində durğunluq yaşayan ordu ölkənin ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə qarşıdan gələn genişmiqyaslı hərbi əməliyyatlara planlı və məqsədyönlü hazırlığa keçdi.

Əməliyyat və döyüş hazırlığı üzrə illik planların icrası ilə paralel olaraq, komandanlıq heyətinin seçilməsi həyata keçirilirdi. Eyni zamanda, kadrlarla bağlı qərarlar mütəmadi olaraq Cənubi Qafqaz hərbi əməliyyatlar teatrında bu və ya digər şəkildə bütün əməliyyat sahələrinə təsir edən şəxsi əməliyyatların nəticələrinə əsasən qəbul edilirdi.

Azərbaycanın 2020-ci ilin payızında ölkənin ərazi bütövlüyünün bərpası üzrə hərbi əməliyyatda qazandığı qələbənin əsas komponentlərindən biri də hərbi əməliyyatın keçirilməsi vaxtının uğurla seçilməsi idi. Əvvəla, Ermənistanda Nikol Paşinyanın başçılıq etdiyi siyasi elitanın hakimiyyətə gəlməsi ilə erməni cəmiyyətində parçalanma başladı, İrəvan və Moskva arasında münasibətlərdə gərginlik yarandı. 2020-ci ilin payızında COVID, BREXİT, Trampın seçkilərdə yaratdığı qalmaqal Qərbdəki liberal beynəlmiləlçilərin diqqətini çəkdi. Eləcə də Ukrayna, Belarus, Navalnı məsələsi... Moskvanın diqqətini yayındırırdı. Üçüncüsü, aparıcı regional aktorlarla – Türkiyə, Rusiya və İranla balanslaşdırılmış hərbi-siyasi və hərbi-texniki əməkdaşlıq proqramı uğurla davam etdirilirdi.

Bu mənada, əlbəttə, Qarabağ uğrunda yeni müharibənin başlaması Qərbdəki ciddi analitikləri elə də təəccübləndirmədi. Müharibəni çoxdan gözləyirdilər, yalnız onun nə vaxt başlayacağı və hansı hesabla bitəcəyi sualları açıq qalırdı.

**(ardı var)**

***Məhərrəm SƏFƏRLİ,***
***Həsən bəy Zərdabi mükafatçısı***



**"Tarixin hansı qatlarına ensək, hansı qaynaqları araşdırsaq, orada yalnız Azərbaycan xalqının yaratdığı mədəniyyətdən, ədəbiyyatdan, qurduğu dövlətlərin qüdrətindən, həmin dövlətlərin ədalətli mövqeyindən, sülhsevər siyasətindən bəhs olunur. Bu gün hər birimiz qədim dünyaya qədər gedib çıxan şanlı tariximizlə həm də ona görə öyünürük ki, keçmişimiz aydın və təmizdir, xalqımızın təbiətindən işğal, təcavüzkarlıq kimi anlayışlar tamamilə uzaqdır". Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov mətbuata açıqlamasında deyib.**

# Azərbaycan tarixinin ən möhtəşəm qələbəsi



**AHİK rəhbəri açıqlamasının davamında bildirib:** "Xalqımızın taleyində keşməkeşli yollar da olub, yadellilərin hücumlarına da məruz qalmışıq, xain işğalla da üzləşmişik. Lakin düşmənlə rəşadətlə döyüşərək azadlıq və torpaq yolunda yorulmadan, usanmadan mübarizə aparmışıq. Milli kimliyimizi əlimizdən almaq, torpaqlarımızı mənimsəmək, hətta tariximizi unutdurmaq istəyənlərin planları, sözsüz ki, axırda iflasa uğrayıb. Əhəmiyyətinə görə tariximizin ən şanlı səhifəsi olan Şərqi Zəngəzurun və Qarabağın Ermənistan işğalından azad edilməsi bunun əyani sübutudur. Cəmi 44 gün davam etməsinə baxmayaraq, özündə iki əsrlik münaqişəni, 30 illik müharibəni birləşdirir".

**Onun sözlərinə görə, Azərbaycan yetkin və məsuliyyətli dövlət olaraq hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşıb, fəaliyyətində bu prinsipləri əsas götürüb:** "Artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin sülh yolu ilə həllində də Azərbaycan beynəlxalq hüquqa əsaslanırdı. Lakin uzun illər aparılmış danışıqlar heç bir nəticə vermədi. Münaqişənin nizamlanması məqsədilə yaradılan ATƏT-in Minsk qrupu isə, ümumiyyətlə, üzərinə düşən məsuliyyəti dərk etmir və qərəzli mövqe sərgiləyirdi. Aydın görünürdü ki, burada məqsəd faktları görməzdən gəlmək və mövcud vəziyyəti olduğu kimi saxlamaqdır. Hətta diqqəti münaqişənin ədalətli həllindən yayındırmaq üçün başqa mənasız problemlər də qabardılır, nəzərlər digər istiqamətlərə yönəldilir, ikili standartlar da öz yerində. Bir az da uzağa gedərək utanmadan Azərbaycandan güzəşt istəyir, münaqişənin həllində hərb variantını istisna edirdilər. Cənab Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xəttini, mütləq prioritetini Azərbaycanın ərazi bütövlüyünün təmin olunması təşkil etməsi şübhəsiz idi. Görülən bütün işlərin, atılan addımların mərkəzində də bu ali missiya dayanırdı. Cənab İlham Əliyev qarşı tərəfin bütün çirkin planlarının, işğal mahiyyətli siyasətinin qarşısında möhkəm dayandı, diplomatik bacarığı, düşünülmüş addımları və tutarlı arqumentləri ilə təcavüzkar siyasəti ifşa etdi, danışıqlar masasında dövlətimizin maraqlarını, xalqımızın mənafeyini ləyaqətlə qorudu".

**S.Məmmədov bildirib ki, dərin siyasi zəkası ilə prosesləri düzgün qiymətləndirən, hadisələrin hansı məcrada davam edəcəyini öncədən bilən uzaqgörən siyasətçi cənab Prezident İlham Əliyev münaqişənin həllində alternativ variantı da diqqətdən qaçırmırdı.**

**Açıqlama bu sözlərlə davam edir:** "İşğal dövründə, danışıqların aparıldığı vaxtlarda təcavüzkar dövlət hərbi təxribatlara tez-tez əl atır, cəbhəboyu kəndləri atəşə tuturdu, həmişə də layiqli cavabını alırdı. 2020-ci il sentyabrın 27-də baş verən hərbi təxribat isə yenilməz Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə nəticələndi. Proseslər göstərdi ki, cənab Prezident İlham Əliyev Ali Baş Komandan kimi hansı işi nə vaxt və haradan başlamağı, necə idarə etməyi və uğuru necə qazanmağı dərindən bilir. Vətən müharibəsində bütün məqamlar zərgər dəqiqliyi ilə hesablanmışdı. Düşmən və onu müdafiə edən qüvvələr heç gözlərini aça bilmədilər, aciz durumda qaldılar. Xalqımızda Qarabağ eşqi o qədər yüksək idi ki, "İrəli" əmrini alan kimi bir anda səfərbər oldu, hamı müharibəyə kökləndi və ürəklər Ordumuzla bir döyündü. Demək olar ki, hər kəs Qələbə əhval-ruhiyyəsində idi, gənclərimiz isə tam ayaqda. Həmin vaxt xalqımızın nümayiş etdirdiyi həmrəylik, vətənpərvərlik duyğusu bu gün də beynəlxalq ictimaiyyət tərəfindən müzakirə və təqdir olunur. "Dəmir yumruq" əməliyyatının isə dünya tarixində bənzəri yoxdur."

**Konfederasiya sədri qeyd edib ki, "Dəmir yumruq" əməliyyatı cəmi 44 gün çəkdi və az itki ilə 30 ilə yaxın müddət ərzində işğal altında olan böyük bir ərazi düşməndən təmizləndi:** "Amma nəticələr bununla kifayətlənmir. Birincisi, 200 il idi bu münaqişə öz həllini tapmırdı, təcavüzkar ermənilər fürsət düşən kimi ərazilərimizi özününkiləşdirməyə çalışır, toponimləri dəyişir, etnik təmizləmə aparır və soyqırımı törədirdilər. Vətən müharibəsində düşmənə elə zərbə vuruldu ki, hətta bir də xain xislətlə Azərbaycanla üz-üzə gəlməyəcək tərzdə. Eyni zamanda döyüş meydanında törədilən soyqırımıların qisası misli ilə alındı. İkincisi, Azərbaycan işğalçıların Şərqi Zəngəzurda və Qarabağda törətdiyi vəhşilikləri, barbarlığı dünya ictimaiyyətinə faktlarla təqdim etməklə onların əsl simasını və niyyətini göstərdi. Üçüncüsü, öz evində, sakini olduğu torpaqlarda yaşamaq hüququ əlindən alınmış bir milyondan artıq məcburi köçkünün hüquqları bərpa olundu. Dördüncüsü, bütün dünya ölkəmizin hərbi qüdrətinə, döyüş taktikasına yaxından bələd oldu. Azərbaycan Ermənistandan fərqli olaraq elə müharibə apardı ki, bir nəfər də dinc sakin öldürülmədi, mülki obyektlər zərər görmədi. Eyni zamanda keçirilən hər bir əməliyyat uğurla nəticələndi. Heç də təsadüfi deyil ki, "Dəmir yumruq" əməliyyatı, o cümlədən Azərbaycanın döyüş təcrübəsi və tətbiq etdiyi taktika dünyanın nüfuzlu hərbi məktəblərində bu gün hərtərəfli öyrənilir. Bundan başqa, xalqımızın həmrəyliyi, cəmiyyətimizin yetkinliyi, gənclərimizin Vətənə məhəbbəti, dövlətə sədaqəti dünyaya məlum oldu".

**AHİK sədri əlavə edib ki, Qarabağda hərbi təxribatlara cavab olaraq 2023-cü ildə yüksək peşəkarlıqla hazırlanan və həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Ordumuzun artan gücünü göstərməklə yanaşı, bilavasitə Vətən müharibəsində qazanılan uğurların davamı idi:** "Azərbaycan Qarabağda kök salmış separatizm yuvasını birdəfəlik məhv etməklə dünyanın müxtəlif ərazilərində daim sülh və təhlükəsizliyi təhdid edən, günahsız insanların ölümünə səbəb olan separatçılara böyük dərs verdi. Məhv edilmiş separatizmin nümayəndələri, vaxtı ilə özünü qondarma dövlətin rəhbərliyi hesab edən, əli günahsız insanların qanına bulaşmış qatillər bu gün Azərbaycan məhkəməsi qarşısında cavab verirlər. Ölkəmiz regiona sülh və təhlükəsizlik, yeni inkişaf reallıqları gətirdi və yerləşdiyi coğrafiyanın lideri olduğunu sübut etdi. Aydın görünür ki, bu, haqqın, ədalətin qələbəsidir və dünyanın tərəqqipərvər qüvvələri tərəfindən təqdir olunur. Lakin, təəssüflər olsun ki, bu gün dünyada Azərbaycanın haqq işinə kölgə salanlar, yalan və qərəzli ittiham səsləndirənlər də var. Amma unutmasınlar, 30 illik çirkin planları kimi, bu niyyətləri də mütləq puç olacaq".

**Sahib Məmmədov fikrini belə tamamlayıb:** "Azərbaycanın qazandığı uğurların, yaratdığı reallıqların bilavasitə müəllifi tariximizin ən böyük strateqi cənab İlham Əliyevdir. Dövlətimizin başçısı dərin zəkası, siyasi bacarığı, qətiyyətli mövqeyi və yüksək sərkərdəlik məharəti ilə 200 illik münaqişəni xalqımızın qələbəsi ilə həll etməyi bacardı və bizi daha böyük nailiyyətlərə istiqamətləndirdi. Şərqi Zəngəzurun və Qarabağın Baş Memarı həmin ərazilərdə şəhərlər, qəsəbələr, kəndlər inşa edir. Əminik ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin və xalqının daha böyük nailiyyətləri hələ qarşıdadır".

**XQ**

# "İrəli!" yox, "Arxamca!" əmri verən komandir

## Qəhrəmanımızın şəhadətə qovuşmasının 4-cü ildönümünə

**Vətən müharibəsində hünəri ilə adını Azərbaycan tarixinə yazan hərbçilərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələrin şəhid polkovnik-leytenantı Ramiz Cəfərovdur. Qəhrəmanımız Xüsusi Təyinatlı Qüvvələrin sıralarında tabeliyində olan hərbçilərlə Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı, Zəngilan və sonda Şuşada gedən döyüşlərdə savaşıb. Ümumi olaraq 41 gün ərzində bir sıra yaşayış məntəqələrinin, əlverişli mövqelərin və strateji nöqtələrin azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Noyabrın 6-da Şuşa istiqamətində şəhid olub.**



Ramiz Cəfərova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Ramiz Cəfərov, həmçinin sağlığında "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli, Azərbaycan Silahlı Qüvvələrinin 10, 90, 95 illik yubileyi, "Azərbaycan Ordusunun 100 illiyi" və "Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalları ilə də dəyərləndirilib.

### Makeyevkadan Sumqayıta

Masallı əsilli, "Qartal" ləqəbli Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Ramiz Cəfərov Ukraynanın Donetsk vilayətinin Makeyevka kəndində 1974-cü ildə doğulub. Ailədə 2 qardaş olublar. Azərbaycana köçdükdən sonra Sumqayıtda yaşayıblar. Ramiz 1981–1985-ci illərdə Sumqayıt şəhərindəki 17 nömrəli, 1985–1989-cu illərdə 11 nömrəli tam orta məktəblərdə təhsil alıb. Televizorda 9 May Qələbə günü ərəfəsində nümayiş etdirilən "Burada üfüqlər sakitdir", "Əsgər atası", "Baharın 17 anı", "Mən ki, gözəl deyildim", "Bizim Cəbiş müəllim", "Tütək səsi" və s. bu kimi filmlər, döyüş səhnələri və ya müharibə dövrünün arxa cəbhədəki həyatını əks etdirən kadrlar onun uşaq qəlbində dərin iz buraxır. Hərbçi olmaq istəyi yaranır, hərb sənətinə marağı gündən-günə artır.

### Hərbçinin ilk addımı

Bu istəklə də o, 1989-cu ildə 9-cu sinfi bitirib sənədlərini Cəmşid Naxçıvanski adına hərbi liseyə verir və qəbul olur. Orada şəhid general Polad Həşimovla birgə təhsil alır, hərb sənətinin incəliklərini dərindən öyrənirlər. 1992-ci ildə ali hərbi təhsil almaq üçün sənədlərini V.F.Marqelov adına "Suvorov" ordenli Ryazan Qvardiya Ali Hava-Desant Komandanlığı Məktəbinə verir. Sənədlərin qəbulu vaxt boyu kifayət qədər yüksək olmadığından onu imtahanlara buraxmırlar. Lakin Ramizin fiziki hazırlığı o qədər yüksək olur ki, onun boy göstəricisi nəzərə alınmır və məktəbə qəbul edilirlər. Təhsil illərində yüksək bilik və bacarıq nümayiş etdirən Ramiz həm təlimlərdə, həm nəzəri dərslərdə fəallığı ilə diqqət çəkir. 1996-cı ildə təhsilini qırmızı diplomla başa vuraraq geri qayıdır. Ölkə xaricində təhsil alıb onu müvəffəqiyyətlə başa vurması Azərbaycanda da dəyərləndirilir. Rusiya, Türkiyə, Almaniya və ABŞ-da keçirilən hərbi təlimlərdə mütəmadi iştirak edir. 2004-cü il martın 1-dən 20-nə qədər



Amerika Birləşmiş Ştatlarında NATO-nun "Əməliyyat heyəti zabitləri" kursunu müvəffəqiyyətlə tamamlayır. Ömrünün 28 ilini Vətənə xidmətə həsr edən xüsusi təyinatlı polkovnik-leytenant ingilis, alman, rus dillərini də sərbəst bilirdi.

2005-ci ildə Salyan rayonunda xidmətdə olur. 1 il Mudafiə Nazirliyində kəşfiyyat şöbəsində işləyir, sonra yenidən Salyana göndərilir. 2006–2014-cü illərdə Ağstafa rayonu Qırlı kəndində yerləşən "N" saylı hərbi hissənin komandiri olur. 2014-cü ilin may ayında yenidən Sumqayıta qayıdır və təyinatla 2020-ci ilədək Yaşma Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsində qərargah rəisinin müavini olur.

46 illik ömrünün 28 ilini həsr etdiyi hərbi xidmət həm də onun qəhrəmanlıq dastanı olur.

### Aprel döyüşləri

2016-cı ildə Aprel döyüşləri adı ilə Azərbaycanın hərb tarixinə düşən 4 günlük müharibədə iştirak edir. Onun bacarıqlı idarəetməsi döyüş yoldaşlarını heyran edir. O, hər addımını, hər hərəkətini dəqiqliklə ölçüb-biçir, sonra qərar verir. Belə olanda uğur əldə etmək şansı böyük olur. Ona görə də döyüşün məkanından və zamanından asılı olmayaraq, Ramizin bütün planları uğurla nəticələnir. O, Aprel döyüşlərində bilik və bacarıq nümayiş etdirməklə qalmır, həm də döyüş təcrübəsi toplayır, strategiya və taktikaya aid təcrübəsini zənginləşdirir. Döyüşlər zamanı Tərtər rayo-



nunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar və Suqovuşan kəndlərinin yolları düşməndən azad edilir.

Qüsursuz xidmətlərinə görə dəfələrlə mükafatlara layiq görülür. Döyüş yoldaşları onun haqqında deyir: O döyüşlərdə hücum vaxtı heç vaxt "İrəli!"– deməzdi, birinci addımı özü atıb, sonra əsgərlərinə "Arxamca!"– deyirdi. Bu qəhrəmanlıqlarına görə ona "Qartal" ləqəbi vermişdilər. Mən polkovnik-leytenantam, amma ən böyük titulum döyüş yoldaşlarımın mənə verdiyi "Qartal" rütbəsidir.

### Haydı, igidlərim, döyüşə!

2020-ci ilin sentyabr ayında ailəsi ilə görüşür. Tabeliyində olan xüsusi təyinatlı qüvvələrlə ən qaynar döyüşlərin getdiyi nöqtələrə yollanır. 41 gün müddətində bir çox rayonların azad edilməsində iştirak edirlər. Hər rayon azad edildikcə sevinirlər ki, zəhmətimiz yerdə qalmadı, qazandıq. Oktyabrın 30-da sonuncu dəfə ailəsi ilə əlaqə saxlayır. Oğlu Nurlana son sözü "az qalıb, oğlum, Şuşa bizimdir. İnşaallah, gələcəyəm, birlikdə balıq ovuna gedəcəyik" – olur. Həmin vaxt o Şuşa uğrunda döyüşlərdə iştirak edirdi. Döyüşlər zamanı düşmənin xeyli canlı qüvvəsini və bir çox texnikasını məhv edir. 2020 -ci il noyabrın 6-da Şuşada gedən şiddətli döyüşlərdə Ramiz Cəfərovla birlikdə 13 xüsusi təyinatlı da şəhid olur. Noyabrın 11-də II Fəxri xiyabanda dəfn edilir. Azərbaycan Prezidentinin sərəncamına əsasən, Ramiz Cəfərova Vətən Müharibəsi Qəhrəmanı adı verilir.

2020-ci il 10 dekabrda Zəfər paradı günü Ramizin 46 yaşı tamam olurdu.

### Xatirələrdə yaşayan "Qartal"

**Qardaşı Rafiq Cəfərov:**

– Uşaqlığından hərbçi olmaq arzusunda idi. İstəyinə çatdı da. Müharibə başlayanda yalnız qələbə barədə düşünürdü. Ramizin ölümü ilə barışmaq çətindir. Tək qalmışam. Amma, bilirəm ki, Qələbə şəhidsiz, qansız olmur. Onun ölümü adi ölüm deyil. Qürur duyulası şərəfli ölümdür. Yoldaşları onun haqqında deyirlər ki, Ramizi əlbəyaxa döyüşlərdə məğlub etmək mümkün deyildi. Bu məni bir qardaş kimi çox qürurlandırır.

**Fərrux Cəfərov, əmisi oğlu:**

– Ramiz sirr verən adam deyildi. Nə müharibənin başlayacağını deyirdi, nə də döyüşə getdiyini dedi. Bir sözü vardı: Qələbə bizimlədir, hər şey yaxşı olacaq. Aprel döyüşlərində də iştirak etmişdi. Nə vaxt vəziyyəti soruşsan eyni cavab alardın: Qələbə bizimlədir, hər şey yaxşı olacaq.

Ramiz həqiqətən də müharibə gedən müddətdə qəhrəmanlıqlar göstərib. Elə yerlər olub ki, orada düşmənlə üz-üzə gəlib, əlbəyaxa döyüşüblər. Hadrutda meşəlikdə 5 nəfərlə 78 erməni hərbçisini öncə mühasirəyə alıb, sonra hamısını qırıblar. Dostları danışırdılar ki, Ramiz çox çevik və cəsarətli idi. Qorxu nə olduğunu bilmirdi. Əlbəyaxa döyüşlərin birində balta ilə erməninin birini necə vurubsa, düşmən tətiyi çəkməyə belə imkan tapmayıb. Onun mina təmizləmək üçün beli var imiş. O ülgücdən də iti olur. Ramiz həmin bellə neçə-neçə ermənini cəhənnəmə vasil edib.

**Şəhid polkovnik-leytenantla son dəfə Şuşada görüşən döyüşçünün xatirəsi:**

– Mən noyabrın 5-də Şuşaya hücum zamanı yaralandım. Hərbi hissə komandiri Ramiz Cəfərov və onun digər müavini döyüşü idarə edə-edə arxadan gəlirdilər. Onlar bölmələri yoxlayır, nəzarət edirdilər. Mənə də yaxınlaşanda bildirdim ki, ayağımdan açıq qəlpə yarası almışam və olduğum mövqedə gözləyirəm ki, əks-hücum olarsa, atış edim. Komandir mənə baxdı, dedi ki, təxliyyə gələndə aşağı düşərsən. Yaralısan, indi getməsən, iki- üç gün sonra ağırlaşacaqsan, səni kimsə aparmalı olacaq. Noyabrın 6-sı günortadan sonra mən yüksəklikdən aşağı düşməyə başladım. Ermənilər minomyotla oranı səhər saatlarında vurdu, 6 nəfər şəhid oldu. Hava qaraldı, erməni minomyotu həmin dikin üstünü bir də vurdu. Bir qrup döyüşçü oradan bizim yanımıza yeni yaralı, şəhid gətirdilər. Digər qrup isə onları aşağı apardı. Onda eşitdim ki, komandirim Ramiz qardaşım da şəhid olub. Bir neçə saat əvvəl mənimlə danışan adam artıq həyatda yox idi. Çox pis oldum. Söhbət əsnasında demişdi ki, müharibə bitsin, qızıma toy edəcəyəm. Hamınızı dəvət edəcəyəm. Çox böyük arzuları var idi. Şuşaya qalxmaq özü bir qəhrəmanlıqdır. Hər adam ora gedib çıxa bilməzdi. Şuşanı görməyi çox istəyirdi, yaxşı ki, bu, ona qismət oldu.

Dostları ona "Qartal" ləqəbi vermişdilər. Bu ləqəbin verilməsinin öz tarixçəsi vardı Onlar danışırdılar ki, Ryazanda oxuyanda paraşütlə tullanmağı məşq edirmişlər. Qəflətən səmada Ramizin paraşütünün ipləri dolaşır, Bu mənzərəni seyr edən yoldaşları narahat olurlar. Amma elə həmin vaxt o, özünü itirməyib, elə səmada olanda vəziyyətdən çıxır. O hadisədəki qoçaqlığına görə ona belə ləqəb vermişdilər.



Çox məsuliyyətli adam idi. Gecə saat ikidə də çağırış gəlirdisə, gedirdi. Aprel döyüşlərində onun necə çevik olduğunu, çətin anda situasiyadan çıxa bilmək bacarığının dəfələrlə şahidi olmuşdum.

### Ailə həyatı

Ramiz Cəfərov 1998-ci ildə ailə qurur. İkisi əkiz olmaqla Rəbiqə, Nigar, Nərgiz, Nurlana adında dörd qızı və Nurlan adında oğlu yadigar qalmışdır. 5 övladdan sonbeşik əkizlər –Nurlan və Nurlana hələ atalarının yoxluğunu o qədər dərk etmirlər. Amma onun necə qəhrəman olduğunu yaxşı anlayırlar. Deyirlər ki, şəhid övladı olduğumuzla qürurlanırıq. Fəxr edirik ki, atamız qəhrəmandır. Hamı bizi qəhrəman şəhidin övladı kimi tanıyır. Nurlana deyir ki, atam həmişə yanaqlarımdan dartırdı. Hamı məni atama oxşadırdı.

**Rəbiqə Salayeva, qızı:**

– Bir dəfə zəng edəndə dedim ki, ata, sənə l sual verim, amma düzünü de: vəziyyət necədir? Dedi: "ata canı, hər şey yaxşıdır, Qələbə də bizimdir, özü də tezliklə. O, çox vətənpərvər idi, ölkəsini, peşəsini hədsiz sevirdi. Nişanlı idim. Onun arzusu mənim toyumda döyüş yoldaşlarının iştirakı idi. Ailə qurdum, amma arzuladığımız toy nə mənə, nə də ona qismət oldu.

**Şəhidin xanımı Sitarə Cəfərova:**

– Sentyabrın 26-da səhər saat 5-də bizimlə sağollaşıb getdi. Müharibə barədə kəlmə kəsmədi. Bildirdi ki, yenə təlimlərə qatılacaq, ondan nigaran qalmayaq. Ola bilsin ki, təlim çox çəksin, evə bir müddət gəlməsin. Biz hərbçi ailəsiyik. Belə yaşamağa öyrəşmişdik. Onun işi ilə əlaqədar müxtəlif rayonlarda yaşamışıq, həmişə yolunu gözləmişik. Amma ertəsi gün eşitdik ki, müharibə başlayıb. Ramizlə yalnız bir həftə sonra əlaqə saxlaya bildik. Yaxşı olduğunu, hər şeyin yolunda getdiyini, qələbənin bizimlə olacağını deyirdi. Amma sonradan dostları danışırdı ki, düzlərdə, meşələrdə, yağışlı günlərdə çox çətinliklərlə üzləşiblər. Qələbə asan qazanılmayıb. Elə ərazilərdən keçiblər ki, ərzaqla təminat mümkün olmayıb. Günlərlə yemək yeməyiblər.

Sonuncu zəngi oktyabrın 30-da gəldi. Dedi ki, Şuşaya qalxırıq, salamatlıqdır, burada zəng etməyə imkan olmaya bilər. Şəbəkə də tutmaya bilər, mümkün olan kimi əlaqə saxlayacağam. Mən onu çox yaxşı tanıdığımdan, səsindən çox yorğun olduğunu hiss etdim. Ondan sonra yoldaşım haqqında heç bir məlumat ala bilmədik. Noyabrın 8-də şəhid olduğu barədə xəbəri gəldi.

### Həyat davam edir

Böyük qızım 1 il idi ki, nişanlı idi. 2020-ci il avqustun 9-da toyunu danışmışdıq. Pandemiya araya düşdü, toylara icazə verilmədi. Sonradan yanvar ayında toysuz köçürdüm. İndi Səid adlı 3 yaşlı nəvəm var. Ramizin arzusu uşaqlarını ali təhsilli görmək idi. 2-ci qızım Nigar Polşada Varşava Universitetində beynəlxalq münasibətlər fakültəsində 3-cü kursdadır. Onun təhsil xərclərini Yaşat Fondu öz üzərinə götürüb. 3-cü qızım Nərgiz Xəzər Universitetində biznesin idarə edilməsi fakültəsində 1-ci kursda təhsil alır. Əkizlər– Nurlan və Nurlana 21 saylı orta məktəbin 8-ci sinifində oxuyurlar.

Ailədə sərt insan idi. İstəyirdi ki, hər şey qaydasında olsun, hər kəs nizam-intizama əməl etsin. Deyirdim ki, Ramiz, burada əsgərlər yoxdur, xasiyyətini bir az yumşalt. Amma, o qədər sərt xarakterin altında həlim ürək gizlənmişdi. Ailəsini çox istəyirdi. 21 il evli olduq, nə qədər düşünürəmsə, onun hansısa pis cəhətinin olduğu yadıma gəlmir. Bizi bir dəfə də olsa incitməyib. Bircə dəfə demək kifayət idi ki, evə nəsə lazımdır, unutmurdu, onu həll etməyincə evdən çıxmırdı. İstirahət günlərində hamımızı gəzməyə aparırdı. Mənə deyirdi: "Sitarə, torpaqları gec, ya tez alacağıq. Hər şeyə hazır ol. Mən hərbçiyəm, kəşfiyyatçıyam, başıma hər an nəsə bir iş gələ bilər".

Hərbçi həyatı bambaşqadır. Biz onun işi ilə əlaqədar Salyanda yaşayanda daim Kür sahilinə gedir, balıq tuturdu. Bu, onun hobbisi idi. İşdən vaxt tapan kimi balıq ovuna gedirdi. Bəzən oğlunu da aparırdı. Deyirdi ki, mənə heç nə balığın tilova düşdüyü anı gözləmək qədər zövq vermir. Şuşadan zəng vuranda da oğluna dedi ki, gəlib səni balıq tutmağa aparacağam.

Sonuncu dəfə bizimlə sağollaşıb gedəndə, "qismət olsa qayıdacağam. Uşaqlardan muğayat ol, evin ipotekasına görə narahat olma. Mənə nəsə olsa, dövlət ödəyəcək" – dedi. Elə də oldu. Ramizin ən böyük sevgisi Vətən idi. Ona görə də o, yaşamağı yox, şəhidliyi seçdi. Bunu həm də onun peşəsinə olan vəzifə borcu tələb edirdi.

Şəhadətə qovuşmasının 4-cü ildönümündə onu xatırlamaqla ruhunu şad etmək istədik. Ramizin ruhu şaddır ki, uğrunda şəhidlik zirvəsinə yüksəldiyi Şuşada üçrəngli Azərbaycan bayrağı qürurla dalğalanır. Masallı şəhəri 6 nömrəli tam orta məktəbə Vətən Müharibəsi Qəhrəmanı Ramiz Sübhan oğlu Cəfərovun adı verilmişdir. Şəhidimizin həyatına həsr olunan "Bir Şuşa qəhrəmanı" adlı sənədli film çəkilmişdir. Dövlətimiz Ramiz Cəfərovun ailəsini 3 otaqlı mənzil və Prezident təqaüdü ilə təmin edib. Azərbaycan torpaqlarının bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi hər zaman bizim üçün əzizdir. Azərbaycançılıq məfkurəsinə könüldən bağlı olan bu insanlar unudulmazdır, onların adları əbədi olaraq Vətən tarixinə yazılıb.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

"Yeni Müsavat" - 35

# Azad sözü sosial məsuliyyət ilə qovuşduran nəşr

**Bu günlərdə "Yeni Müsavat" qəzetinin 35 yaşı tamam oldu. Nəşrin qurucusu, Əməkdar jurnalist Rauf Arifoğlu keçilmiş yol barədə XQ-nin suallarını cavablandırdı.**




**– "Yeni Müsavat" qəzeti müstəqillik və ərazi bütövlüyümüz uğrunda ümumxalq mübarizəsinin yetirməsidir. Bu yolda qəzetin iştirakı və rolu bu gün necə görünür?**

– Doğrudan da, "Yeni Müsavat" qəzeti xalqımızın milli azadlıq mübarizəsinin gedişində ortaya çıxdı. 1989-cu ildə Azərbaycan cəmiyyətinin önəmli ehtiyaclarından biri də informasiya təminatı və hakim Kommunist Partiyasının nəzarətində olan KİV-lərə alternativ tribuna yaradılması idi. O zaman belə bir addım mövcud qanunlara uyğun deyildi. Qəzetimiz gizli nəşrə başlayanda paytaxtımız son illərini yaşayan SSRİ-nin fövqəladə rejim basqısı altında yaşayırdı. Sovet generalları öz azadlığı və torpaqlarının bütövlüyü uğrunda meydanlara çıxan, etirazlarda birləşən Azərbaycan xalqının haqq və hüquqlarını boğmaq, onu Ermənistan qarşısında zəiflətmək üçün məkrli fəaliyyət proqramı həyata keçirirdilər. "Yeni Müsavat" Azərbaycanı təhdid edən bu prosesə qarşı idi.

Belə bir şəraitdə qəzetimiz qeyri-formal fəaliyyət göstərirdi. İlk sayımız gizli üsulla Bakıda çap olunandan dərhal sonra sovet hərbi rejimi izimizə düşüb bizi axtarmağa başladı. Bu səbəbdən Gəncəyə köçdük. Sonrakı dövrdə "Yeni Müsavat" qəzeti həm informasiya sahəsində, həm də torpaqlarımızın qorunması uğrunda proseslərdə yaxından iştirak etdi. Birinci Qarabağ müharibəsində isə döyüşən könüllülərin yanında olduq. Sonrakı dövrdə də Azərbaycan nə yaşadısa, "Yeni Müsavat" da onları yaşadı. Nəşrimiz 35 ildir ki, Azərbaycanla, xalqımızla birlikdədir.

44 günlük Vətən müharibəsində isə qəzetimiz və ona bağlı bütün media quruluşlarımız informasiya cəbhəsində Ordumuzun, Ali Baş Komandanımızın və Dövlətimizin yanında oldu. Həm xalqımıza həqiqətləri çatdırmaq, həm də beynəlxalq ictimaiyyətə Azərbaycanın haqq səsini eşitdirmək üçün biz də öz sözümüzü dedik.

**– 35 illik yol çətin və məsuliyyətli olub. Bu baxımdan partiya nəşrindən müstəqil qəzetə gələn yola bu gün necə baxırsınız?**

– Bu, tarixi bir yol idi – biz bir partiya nəşri olaraq başladıq, çünki o zamanın tələbi və bildiyimiz model bu idi. Lakin Azərbaycan müstəqil dövlət olduqdan, ulu öndər Heydər Əliyevin, daha sonra isə Müzəffər Liderimiz İlham Əliyevin rəhbərlikləri altında dövlətçiliyimiz möhkəmlənəndən sonra artıq medianın, KİV-lərin siyasi partiyalardan, onların təsirindən ayrılması, müstəqil nəşrlər olması zərurəti yarandı. Biz də cəsarətlə bu zərurətin istiqamətində getdik.

Elə o zamandan da media qurumu kimi böyüdük, gücləndik və mərkəzçi bir tribuna halına gəldik. 35 yaşlı çap mediası olan "Yeni Müsavat"ın uğur düsturunun əsasında tərəfsizlik, mərkəzçilik və innovativlik dayanır. Bu gün çap mediası olan "Yeni Müsavat"ın bazasında tirajlı elektron mediası, 380 min abunəsi olan YouTube, 430 min abunəsi olan TikTok kanalları, Instagram və Telegram hesabları var.

**– "Azad söz" və "sosial məsuliyyət" anlayışlarının Azərbaycan mediasında çağdaş uyğunlaşması "Yeni Müsavat"da necə təzahür edir?**

– "Yeni Müsavat" azad sözün və sosial məsuliyyətin daşıyıcısıdır. Amma biz yalnız azad sözə deyil, eyni zamanda, bu azadlığın sosial məsuliyyətlə və balanslı şəkildə həyata keçirilməsinə də diqqət yetiririk. Ölkəmizin inkişafı və maraqları çərçivəsində həqiqətləri çatdırır, cəmiyyətin ehtiyac və gözləntilərinə uyğun mövzuları işıqlandırırıq.

44 günlük Vətən müharibəsində də biz sosial məsuliyyətimizi dərindən hiss etdik və xalqımızın, dövlətimizin, Ali Baş Komandanımızın yanında olduq. İndi də "Yeni Müsavat" azad sözün məsuliyyətli daşıyıcısı olaraq cəmiyyətin inkişafına, həmrəylik ruhunun qorunmasına xidmət edir.

**– Yubileyinizi təbrik edir, qəzetinizə bundan sonra da uğurlu fəaliyyət arzulayırıq.**

*T.RÜSTƏMLİ*
*XQ*

İstanbul sərgisi

# Kitab mədəniyyətimizin beynəlxalq təqdimatı

**Ölkəmizin fəxri qonaq qismində qoşulduğu 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisində əsl Azərbaycan nəşrləri əhatəli sərgilənir, böyük maraqla qarşılanır. Təntənəli açılış mərasimində, ölkəmizə aid stendin təqdimatında və digər tədbirlərdə təmsilçilərimiz geniş heyətdə iştirak ediblər.**




Belə nüfuzlu kitab bayramında "fəxri qonaq ölkə"si kimi ehtimla qarşılanan Azərbaycan nümayəndə heyəti, o cümlədən şair və yazıçılarımız sərginin müxtəlif mövzulu panel müzakirələrində moderator və qonaq kimi yaxından iştirakları ilə seçilirlər. Burada ölkəmizin 25 nəşriyyatının kitabları, ümumilikdə 2 mindən çox nəşr nümunəsi sərgilənir.

Azərbaycan stendində Heydər Əliyev Fondunun mədəniyyətimizlə bağlı nəşrləri, bədii ədəbiyyat nümunələri ön sırada təqdim edilib. Eyni zamanda, yazarlarımızın türk və digər qardaş xalqların dillərində nəşr olunmuş əsərləri maraq doğurur. Türk Mədəniyyəti və İrsi Fondunun nəşrlərinə də Azərbaycan stendində ayrıca guşə ayrılıb. Onu da qeyd edək ki, sərgi çərçivəsində elə bu fondun və TÜRKSOY-un xəttilə ərsəyə gətirilən nəşrlər layiqincə təqdim olunub.

Türkiyə türkcəsində ərsəyə gətirilən "Aşıq Mikayıl Azaflı" şeirlər kitabının təqdimatı hər kəsə unudulmaz təsir bağışlayıb. Bildiyimiz kimi, bu ilin yazında XX əsr Azərbaycan saz və söz sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının 100 yaşı tamam olub. Elə həmin yubiley münasibətilə hazırlanan topluda ustadın dillər əzbəri olan şeirləri və sözlərinə yazılan aşıq mahnıları yer alıb. El şairinin bəzi şeirlərinin əlyazmaları və el sənətkarına aid fotoşəkillər də nəşrdə təqdim edilib.

Təqdimat mərasimində çıxış edənlər aşığın həyat və yaradıcılığından danışıb, onun Azərbaycanın saz sənətinin tanınması və inkişafındakı əvəzsiz xidmətlərindən bəhs ediblər. TÜRKSOY-un Baş katibi Sultan Raev bildirib ki, ortaq mədəni irsimizdən biri olan aşıq sənəti bütün dövrlərdə güclü əbədi əsərlər ortaya qoyan böyük şəxsiyyətlər yetişdirib. Bu böyük şəxsiyyətlərdən biri də Azərbaycan türklərinin tanınmış aşığı, Türk dünyasının böyük söz ustadı Aşıq Mikayıl Azaflıdır. TÜRKSOY Aşıq Mikayıl Azaflı sənətini Türkiyədəki sənətsevərlərə tanıtmaq üçün onun seçilmiş şeirlərini Türkiyə türkcəsinə tərcümə edərək yayımlamağı qərara alıb və belə bir möhtəşəm kitab hazırlayıb.

Nəşrdə Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının "Sazın-sözün qoca qartalı" başlıqlı məqaləsi və "Ön söz"ün müəllifi - "Azaflı" Sosial Yardım və Mədəniyyət Dərnəyinin sədri Arzuman Azaflının fikirləri yer alıb. Kitabın elmi redaktoru Azərbaycanın TÜRKSOY-dakı daimi nümayəndəsi Elçin Qafarlı, tərtibatçısı Ezgi Orludur. Nəşrdə yer alan şeirləri Türkiyə türkcəsinə Zehra Işık çevirib.

Milli stendimizdə keçirilən yaddaqalan görüşlərdən biri də Türk Mədəniyyəti və İrsi fondun hazırladığı "Səninləyik, Türkiyə" antologiyasının təqdimatı olub. Kitabın tərtibçisi və tərcüməçisi Azərbaycan Yazıçılar Birliyinin katibi, şair Səlim Babullaoğlu çıxışında bildirib ki, ötən il fevralın 6-da Türkiyədə baş vermiş dağıdıcı zəlzələyə həsr olunan antologiya qələm adamlarının öz qardaşları ilə həmdərdlik və həmrəylik nümunəsidir. Bu nəşr layihəsində zəlzələ qurbanları haqqında Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Cümhuriyyətindən olan şairlərin, eləcə də başqırd, çuvaş, uyğur, tatar, qaqauz xalqlarını təmsil edən söz sənətkarlarının poetik əsərləri yer alıb.

Təqdimatda Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulovanın mərasim iştirakçılarına ünvanladığı məktubu oxunub. O, şeirlərin müəlliflərinə təşəkkürünü bildirib və Uca Yaradanın bir daha Türk dünyasına bu cür faciələr yaşatmamasını arzulayıb. "Türk Mədəniyyəti və İrsi Fondu olaraq biz də öz növbəmizdə bir daha həmin şüara uyğun olaraq bəyan edirik ki, səninləyik, Türk dünyası!"

Fondun aparat rəhbəri Fəxri Hacıyev bu layihənin əhəmiyyəti barədə geniş məruzə ilə çıxış edərək ərsəyə gətirilən işin tarixi-mənəvi əhəmiyyətindən danışıb. "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan Tarixdə baş verən bənzər fəlakətlər barədə fikirlərini bölüşüb, Əli Bəy Hüseynzadənin 1939-cu ildə Ərzincanda baş verən zəlzələ haqqında yazdığı "Zəlzələ dolayısı" şeirini misal çəkib. Çıxışını belə yekunlaşdırıb ki, azərbaycanlı fikir adamları heç vaxt Türkiyənin dərdlərinə biganə qalmayıb, daim qardaş xalqın kədərini öz kədəri, sevincini öz sevinci kimi hiss ediblər.

Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri Fərid Hüseyn zəlzələdə atasını itirən 12 yaşlı Cəmilə adlı qıza həsr etdiyi "Dünyanın ən uzun otuz saatı" adlı şeirinin yaranma tarixçəsindən söz açıb. Şair Qismət Rüstəmov isə "Ədəbiyyat və faciə" mövzusunda məruzə ilə çıxış edib. Bədii qiraətçilər Hüseynağa Aslanov və Jalə Novruz kitabda yer alan şeirlərdən parçalar səsləndiriblər. Sonda Türk Mədəniyyəti və İrsi Fondu adından türkiyəli oxuculara "Səninləyik, Türkiyə" kitabının nüsxələri hədiyyə olunub.

Sərgi çərçivəsində növbəti görüş azərbaycanlı naşir və ədib Şəmil Sadiqlə keçirilib. Görüşdə "Hədəf" nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru, Şəmil Sadiqin "OdƏrlər" tarixi-fəlsəfi romanının türkcə nəşrinin təqdimatı reallaşdırılıb. Natiqlər vətənpərvərlik mövzusunda yazılan əsərin bədii məziyyətlərindən danışıblar. Müəllif əsərin yazılma tarixçəsindən danışaraq qeyd edib ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun və "İgidliyə görə" medalı ilə təltif edilmiş şəhid baş leytenant Fərid Əhmədovun əziz xatirəsinə ithaf olunan "OdƏrlər" romanı postmodern üslubda yazılan və eyni zamanda, Qarabağ münaqişəsinə həsr olunan ilk irihəcmli nəsr nümunələrindəndir.

Əsəri türk dilinə Ruslan Rəhimov uyğunlaşdırıb.

Həmin gün sərgi çərçivəsində unudulmaz Xalq şairi Vaqif Səmədoğlunun türk dilində çap olunan "Mən burdayam, İlahi" kitabının da təqdimatı təşkil edilib. Tədbirin moderatoru şair Fərid Hüseyn Vaqif Səmədoğlunun yaradıcılığı haqqında söz açaraq onun poeziyasının Azərbaycan müasir şeirinin ən dəyərli nümunələrindən olduğunu deyib. Bildirilib ki, Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə nəşr olunan kitabdakı şeirləri tanınmış şair və ədəbiyyatşünas mərhum Arif Acalov türk dilinə uyğunlaşdırıb. Təqdimatda şairin həyat yoldaşı, nəşrin layihə rəhbəri Nüşabə Babayeva-Vəkilova söz alaraq, kitabın tərcüməsi və nəşrində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

Azərbaycan stendində yazıçı, Əməkdar jurnalist Yunis Orucovun türk dilində çap olunan "Boraltan" və "Nargin - türkün məzarı" kitablarının imza mərasimi keçirilib.

Kitab bayramının əsas ünvanı olan TÜYAP Sərgi Kompleksində Türkiyə Nəşriyyatları Birliyinin təşkilatçılığı ilə Azərbaycan naşirləri ilə görüş də işgüzar xarakter daşıyıb. Orada iki ölkənin nəşriyyatları arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Beynəlxalq platformalarda ədəbiyyatlarımızın, kitab sənayelərimizin geniş tanıdılması ilə bağlı sahəsində işbirliyi qurulmasının önəmi vurğulanıb.

*Əli ƏLİYEV*
*XQ*

# DİA tələbələri müsabiqə qalibidirlər



**Beynəlxalq Hüquqşünas Tələbələr Birliyi "ELSA-Azərbaycan"ın və Baş Prokurorluğun birgə təşkilatçılığı ilə ənənəvi "Şahid dindirmə" müsabiqəsinin 4-cü turu keçirilib.**

Müsabiqədə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) hüquqşünaslıq ixtisası üzrə 4-cü kurs tələbələri Fidan Paşayeva və Ləman Nadirova I yerə layiq görülüblər. Bu barədə DİA-dan "XQ"-yə məlumat verilib. Bildirilib ki, hüquqşünaslıq ixtisası üzrə 3-cü kurs tələbəsi Ceyran Yusiflinin iştirak etdiyi komanda isə II yeri tutublar.

Müsabiqə iki nəfərdən ibarət müstəntiq qismində çıxış edən komandalarla şahid arasında həyata keçirilən dindirmə prosesinin simulyasiyasıdır. Bu simulyasiya cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyətli olan hallara dair məlumatların şahiddən alınması və cinayətin təsvirinin verilməsi məqsədini daşıyır.

*XQ*

# Nizami dühasının dünya şöhrəti

**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Moskvanın "Mədinə" Nəşriyyat evinin buraxdığı "İslamın minarəsi" beynəlxalq jurnalının Nizami Gəncəviyə həsr olunmuş xüsusi buraxılışının təqdimatı keçirilib.**



Qonaqlar muzeyin ekspozisiyası və Nizami Gəncəvinin həyat və yaradıcılığını əks etdirən sərgi ilə tanış olublar. Muzeyin direktoru, akademik Rafael Hüseynov "Mədəniyyətləri birləşdirən Nizami körpüsü" adlı məruzəsində Azərbaycan dahisinin dünya şöhrətindən söhbət açıb.

Rusiya Federasiyası Müsəlmanları İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, baş Müfti Şeyx Ravil Qaynutdin, Rusiya Müsəlmanları İdarəsi sədrinin müavini Damir Muxetdinov, Rusiyanın ölkəmizdəki səfiri Mixail Yevdokimov, Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti Şurasının sədri Bəxtiyar Həsənov, muzeyin şöbə müdirləri professor Şəfəq Əlibəyli, və fəlsəfə doktoru Nailə Əliyeva Nizami irsinin bəşəri önəmindən söz açıblar, xüsusi buraxılışda yer alan elmi mülahizələrə diqqət yetiriblər.

Sonda akademik Rafael Hüseynov Ravil Qaynutdinə, Damir Muxetdinova və xüsusi buraxılışın redaksiya heyətinin üzvü Səfa Kərimova "Təşəkkürnamə"lər təqdim edib. Ravil Qaynutdin isə Rafael Hüseynova II Yekaterinanın dövründə Rusiyada çap olunmuş Qurani-Kərimi və müəllifi olduğu kitabları təqdim edib.

Xatırladaq ki, xüsusi buraxılışda Nizami Gəncəvinin həyat və yaradıcılığı əhatəli işıqlandırılıb. Topluya ön sözü jurnalın baş redaktoru, ilahiyyat elmləri doktoru Damir Muxetdinov yazıb. Akademiklər Rafael Hüseynovun "Nizami poetik məktəbinin dünya əhəmiyyəti" və Teymur Kərimlinin "Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan Nizami Gəncəvinin əlyazmaları", filologiya elmləri doktoru İradə Musayevanın "Nizami Gəncəvi klassik Şərq ədəbiyyatında roman ustası kimi", filologiya üzrə fəlsəfə doktoru İlahə Hacıyevanın "Nizami Gəncəvinin həyat yolu", "İz" elmi-tədqiqat jurnalının baş redaktoru Dəmir Babazadə-Aranellinin "Sonsuz Nizami Gəncəvi" məqalələri buraxılışın aparıcı yazılarıdır.

Jurnal sayının tərtibat və illüstrasiyaları isə "Xalq rəssamı Səlhab Məmmədova məxsusdur.

*Qabil YUSİFOĞLU*
*XQ*

# İçərişəhərdə "Qurama Art: EKO İnstalyasiya"

**İçərişəhərdə "Qurama Art: EKO İnstalyasiya" sərgisinin açılışı olub. COP29-a dəstək olmaq üçün reallaşan sərgi sənətin və təbiətin harmoniyasını, müasir instalyasiyanın imkanlarını bir araya gətirib.**



Mərasimdə çıxış edən İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri İntiqam Babayev vurğulayıb ki, Azərbaycanın milli irsinin ayrılmaz hissəsi olan qurama motivi çox zəngindir: "Sərgidə təqdim olunan instalyasiyalar vasitəsilə təbiətdəki tarazlıq və ahəng, ətraf mühitin mühafizəsi, sıfır tullantı yolu yeni incəsənət nümunələrinin yaradılması, tarixi köklərimizin nümayişi, insanın həyata dair baxış fəlsəfəsini əhatə edən bir çox aspektlərə toxunulub. Sərgi resursların səmərəli istifadəsini, təbiətə və insanlara qarşı hörməti simvolizə edir, həmçinin sıfır tullantı fəlsəfəsini təbliğ edib". Qoruq rəsmisi qeyd edib ki, burada yerli və xarici qurama sənətçiləri tərəfindən hazırlanmış ekoloji və fəlsəfi mövzularda instalyasiyalar nümayiş olunub... Ziyarətçilər, Aytən Abdullayeva, İmran Mehdiyev, Afaq Cəlilova, Nərgiz Əsgərova, Məmməd Rəşidov, Vüsalə Ağaraziyeva, Zaur Qəhrəmanov, Samir Səmədov, Leyla Quliyeva, Sevinc Quliyeva, Rövşən Məhərrəmli, Fərid Məmmədov və Qırğızıstandan Saltanat Abdukerimova kimi yerli və xarici qurama sənətçilərinin əl işləri vasitəsilə bu nadir sənətin müxtəlif yönlərini kəşf edə bilərlər".

*XQ*

# ABŞ-də seçkiləri kim maliyyələşdirir?






**ABŞ prezidentliyinə namizədlər ənənəvi olaraq seçki kampaniyalarına külli miqdarda vəsait xərcləyirlər. İndiki seçkilər də istisna deyil. Bəc Tramp–Harris mübarizəsini kim və necə maliyyələşdirir? Namizədlər bu vəsaiti müxtəlif yollarla əldə edirlər: özəl donorlardan, siyasi fəaliyyət komitələrindən (PAC) və ya hökumətdən. Sonuncu variant ciddi xərc məhdudiyyətləri ilə bağlıdır, ona görə də əsas namizədlər uzun müddətdir ki, bu mənbəyə müraciət etmirlər.**

ABŞ-də indiki prezidentlik kampaniyası da istisna deyil. Noyabrın 3-də "NBC" telekanalı bildirib ki, cəmi 7 gün ərzində siyasi reklamlara demək olar ki, bir milyard dollar xərclənib.

Amerika seçkilərində pulun hərəkətini izləyən qeyri-kommersiya təşkilatı "OpenSecrets"ə görə, Demokratlar Partriyasından prezidentliyə namizəd Kamala Harris sentyabrın 30-na kimi kampaniyası üçün 906 milyon dollardan çox pul toplayıb. Bu məbləğə prezidentlik yarışından çəkilmiş və vitse-prezidentin namizədliyini dəstəkləmək qərarına gələn Co Baydenin kampaniyasına toplanan pullar da daxildir.

Bundan başqa, xarici mənbələr Demokratların namizədini dəstəkləmək üçün daha 359 milyon dollar toplayıb. Ümumilikdə, Harrisin kampaniya fonduna 1 milyard 270 milyon dollardan çox vəsait daxil olub. Bu məbləğin demək olar ki, 56 faizi böyük ianələrdən, 44 faizi kiçik ödənişlərdən (200 dollara qədər) ibarətdir. Məsələn, sahibkar Maykl Blumberq Demokratlar Partiyasına 93 milyon dollarlıq ianə ilə dəstək verib və o, Kamala Harrisin kampaniyasının ən böyük donoru olub. Corc Soros isə PAC vasitəsilə daha 56 milyon dollar göndərib.

Respublikaçılar Partiyasının namizədi Donald Tramp da rəsmi kampaniya vasitəsilə 367 milyon dollar toplayıb. "OpenSecrets"ə görə, o, kənar qruplardan daha 572 molyon 800 min dollar əldə edərək, ümumi maliyyəsini 940 milyon dollara çatdırıb. Onun seçki kampaniyası üçün toplanan vəsaitin 68 faisdən çoxunu iri maliyyə yardımları təşkil edib.

**Pul heç də həmişə namizədin seçkilərdə qalib gəlməsinə zəmanət vermir.** Son iki prezident seçkilərində Donald Tramp rəqibləri Hillari Klinton və Co Baydendən daha az pul xərcləyib. Lakin o, cəmi bir dəfə – 2020-ci ildə məğlub olub. Pensilvaniya Dövlət Universitetinin ictimai siyasət və idarəetmə üzrə dosenti Den Mallinsonun sözlərinə görə, bu, onu göstərir ki, kampaniya üçün büdcə önəmlidir, lakin o, təkbaşına namizədin qələbəsini təmin edə bilməz. Bu dəfə də onun sözləri özünü doğrultdu. Belə ki, Tramp Harrisdən az vəsait xərcləsə də, yenidən prezident seçildi. O, Seçicilər Kollegiyasının 277 səsini (270 səs kifayət edir) qazanaraq prezident seçkilərində qələbə qazanıb,

**ABŞ Konqresinə namizədlər nə qədər pul toplayıblar?**

ABŞ-nin bu seçki dövründə kampaniyaları üçün pul toplayanlar təkcə prezidentliyə namizədlər deyil. Eyni zamanda amerikalılar 100 senatordan 34-nü və Nümayəndələr Palatasının 435 üzvünü seçəcəklər. "OpenSecrets"in hesablamalarına görə, seçki yarışı zamanı Senata bütün namizədlər, ümumilikdə, 1,38 milyard dollar, Nümayəndələr Palatasına namizəd olanlar isə 1,78 milyard dollar toplaya biliblər.

**2024-cü il ABŞ seçkilərinə 16 milyard dollar xərclənib.** 2024-cü ildə ABŞ prezidentinin, eləcə də Konqresin hər iki palatasının üzvlərinin seçkiləri ilə bağlı kampaniyalara rekord məbləğdə, 16 milyard dollar vəsait xərclənib. "OpenSecrets" tərəfindən yayımlanan məlumatda bildirilib ki, bu məbləğ 2020-ci il kampaniyası üçün xərclərdən çoxdur. Həmin vaxt bu vəsait 15 milyard 100 milyon dollar təşkil edib. Müqayisə üçün deyək ki, 2016-cı ildə seçki yarışı "cəmi" 6 milyard 500 milyon dollara başa gəlib.

***PÜNHAN***
***XQ***


## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların 2024-cü il dekabrın 10-da, saat 16:00-da müsabiqə yolu ilə satışının keçirilməsi barədə elan

**Satılacaq əmlak barədə məlumat**

| S/N | Növü | Ünvanı | Tikili sahəsi (kv.m) | Daşınmaz əmlakın mülkiyyət növü | Daşınmaz əmlakın üzərində hüququn növü | Start qiyməti (manatla) |
|---|---|---|---|---|---|---|
| 1 | Qeyri-yaşayış sahəsi | Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi 7-ci km., "Abşeron Gənclər şəhərciyi" yaşayış kompleksi, bina 25, blok 69-70 | 32,4 | xüsusi | Mülkiyyət | 60.000,0 |

Ərizələrin qəbulunun başlanması və bitməsi tarixi: 07.11.2024 - 06.12.2024

***Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:*** 10.12.2024-cü il, saat 16:00-da

***Müsabiqənin keçirildiyi ünvan-*** "Aqrarkredit" QSC-nin binası, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125.

Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə ***tanış olmaq qaydası və müddəti -*** 07.11.2024-cü il tarixdən 06.12.2024-cü il tarixədək, həftənin 3-cü və 5-ci günləri, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

Əlaqə**ləndirici** şə**xs -** Şahin Seyidov. Tel:050-235-99-90

İddiaçılar qarşısında irəli sürülən şərtlər.

İddiaçı tərəfindən əmlakın dəyərinin 5% faizi həcmində beh məbləğinin ödənişi.

Müsabiqənin qalibinin əmlakın dəyərinin 7 (yeddi) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət.

Müsabiqənin qalibinin hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

**4.** Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir.

**5.** İddiaçılar tərəfindən bağlı zərfdə təqdim edilmiş təkliflər bərabər olduqda həmin iddiaçılar yeni məbləği və əmlakın dəyərinin tam ödənilməsi müddəti göstərilməklə yenidən təklif təqdim etməlidirlər. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

**6.** İddiaçılar tərəfindən təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılacaqdır.

**7.** Müsabiqə zamanı əmlakın start qiymətindən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

-İddiaçının ərizəsi (iddiaçı özü və iddia etdiyi aktivin məlumatlarını tam əks etdirməklə)

-İddiaçının şəxsiyyətini təsdiq edən sənəd,

-Təklif (bağlı zərfdə qiymət rəqəmlə və sözlə göstərilməklə).

-İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.

-İddiaçının müsabiqədə nümayəndəsi olduğu halda etibarnaməsinin və şəxsiyyəti təsdiq edən sənədin surəti.

Beh ödənilməsi üçün bank rekvizitləri:

**Kodu:** 501587

**VÖEN:** 1300025711

**SWIFT BIC:** ACJTAZ22

Ünvan: Bakı şəhəri, AZ 1006. Qədirli küçəsi 125.

**Mərkəzi Bankda müxbir hesab:** AZ45NABZ 01350100000000035944

**Beh məbləği köçürülür:**

"Aqrarkredit" QSC-nin Maliyyə departamentinin Əməliyyat şöbəsi

Hesablaşma hesabı: AZ67ACJT45019192794010094401



## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların 2024-cü il dekabrın 10-da, saat 16:00-da müsabiqə yolu ilə satışının keçirilməsi barədə elan

**Satılacaq əmlaklar barədə məlumat**

| S/N | Növü | Ünvanı | Tikili sahəsi (kv.m) | Daşınmaz əmlakın mülkiyyət növü | Daşınmaz əmlakın üzərində hüququn növü | Start qiyməti (manatla) |
|---|---|---|---|---|---|---|
| 1 | Qeyri-yaşayış sahəsi | Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi 7-ci km., "Abşeron Gənclər şəhərciyi" yaşayış kompleksi, bina 23, blok 55-56 | 33,6 | Xüsusi | Mülkiyyət | 56.000,0 |
| 2 | Qeyri-yaşayış sahəsi | Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi 7-ci km., "Abşeron Gənclər şəhərciyi" yaşayış kompleksi, bina 23, blok 55-56 | 35,0 | Xüsusi | Mülkiyyət | 61.000,0 |
| 3 | Qeyri-yaşayış sahəsi | Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi 7-ci km., "Abşeron Gənclər şəhərciyi" yaşayış kompleksi, bina 23, blok 55-56 | 33,9 | Xüsusi | Mülkiyyət | 58.000,0 |

Ərizələrin qəbulunun başlanması və bitməsi tarixi: 07.11.2024 - 06.12.2024

***Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:*** 10.12.2024-cü il, saat 17:00-da

***Müsabiqənin keçirildiyi ünvan:*** "Aqrarkredit" QSC-nin binası, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125.

Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olma***q qaydası və müddəti:*** 07.11.2024-cü il tarixdən 06.12.2024-cü il tarixədək, həftənin 3-cü və 5-ci günləri, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 *nömrəli* ünvanda baxılmalıdır.

Əlaqə**ləndirici** şə**xs -** Şahin Seyidov. Tel:050-235-99-90

İddiaçılar qarşısında irəli sürülən şərtlər.

İddiaçı tərəfindən əmlakın dəyərinin 5% faizi həcmində beh məbləğinin ödənişi.

Müsabiqənin qalibinin əmlakın dəyərinin 7 (yeddi) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət.

Müsabiqənin qalibinin hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir.

İddiaçılar tərəfindən bağlı zərfdə təqdim edilmiş təkliflər bərabər olduqda həmin iddiaçılar yeni məbləği və əmlakın dəyərinin tam ödənilməsi müddəti göstərilməklə yenidən təklif təqdim etməlidirlər. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

İddiaçılar tərəfindən təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə
nümayəndəsinin iştirakı ilə açılacaqdır.

Müsabiqə zamanı əmlakın start qiymətindən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

-İddiaçının ərizəsi (iddiaçı özü və iddia etdiyi aktivin məlumatlarını tam əks etdirməklə)

-İddiaçının şəxsiyyətini təsdiq edən sənəd,

-Təklif (bağlı zərfdə qiymət rəqəmlə və sözlə göstərilməklə).

-İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.

-İddiaçının müsabiqədə nümayəndəsi olduğu halda etibarnaməsini və şəxsiyyəti təsdiq edən sənədin surəti.

Beh ödənilməsi üçün bank revizitləri:

**Kodu:** 501587

**VÖEN:** 1300025711

**SWIFT BIC:** ACJTAZ22

Ünvan: Bakı şəhəri, AZ 1006 Qədirli küçəsi 125.

**Mərkəzi Bankda müxbir hesab:** AZ45NABZ 01350100000000035944

**Beh məbləği köçürülür:**

"Aqrarkredit" QSC-nin Maliyyə departamentinin Əməliyyat şöbəsi

Hesablaşma hesabı: AZ67ACJT45019192794010094401


**Məqalənin başlığı bir az qəribə görünə bilər. Əlbəttə, müharibə fəlakətdir və heç bir halda faydalı ola bilməz. Burada söhbət 1970-ci illərin ortalarında PepsiCo-nun əbədi rəqibi Coca-Cola-ya qarşı apardığı marketinq müharibəsindən gedir. Şirkətlər arasında şiddətli mübarizə bu gün də dayanmır. Bəs üfüqdə barışıq görünürmü? Hadisələrin inkişafı göstərir ki, sülh iki nəhəng şirkət üçün sərfəli deyil.**

Ümumiyyətlə, iki marka oxşar məhsul istehsal edərsə, rəqabət qaçılmazdır. Lakin Coca-Cola və Pepsi münaqişəsi bu günə qədər davam edən unikal yüz illik mübarizədir. "Qazlı içkilər" arasında başlamış müharibənin səbəbkarı da 2020-ci ildə 99 yaşında dünyasını dəyişmiş PepsiCo-nun əfsanəvi sabiq baş direktoru Donald Kendall olmuşdu. Çox az adam bilir ki, sovet adamlarını da "kapitalist" içki ilə tanış etmiş şəxs Kendalldır. Ameikalı biznesmen o dövrdə Kommunist Partiyası MK baş katibi Nikita Xruşşovu "Pepsi" içkisinə qonaq etmiş və Kremlin o vaxtkı rəhbəri ilə sovet arağının ABŞ-də, "Pepsi-Co"nun isə SSRİ-də satışının təşkil edilməsi barədə razılığa gəlmişdi. Bundan sonra Pepsi-Co "dəmir pərdə"nin bu tərəfində qanuni olaraq satılan ilk Qərb məhsulu olmuşdu.

Kendall vəzifəsini 1986-cı ildə tərk etmişdi. Bu vaxta qədər PepsiCo-nun satışları təxminən 40 dəfə artmış və əzəli rəqibi Coca-Cola Co-nu bazarlarda ciddi şəkildə sıxışdırnağı bacarmışdı. Xatırladaq ki, PepsiCo-nun resepti əsas rəqibinin reseptindən 13 il sonra hazırlanmışdı. 1898-ci ildə Pepsi bazara çıxanda Coca-Cola artıq ildə təxminən 4 milyon litr içki satırdı. Şirkət inhisar bazarının verdiyi bütün üstünlüklərdən istifadə edirdi. Ancaq PepsiCo-nun timsalında rəqibin meydana çıxmasının nəticəsi uzunmüddətli və çox aqressiv rəqabət lı içkilərin yeni nəsil olduğunu bildirirdi. Rəqibinin yeni fikirləri və həyata keçirdiyi reklam həmlələri Cola-Cola sahiblərini narahat etməyə başlamışdı. Onlar hətta öz içkilərinin tərkibini mümkün qədər yaxınlaşdırmaq qərarına gəlsələr də, bu yenilik əks nəticə vermişdi. Bu uğursuzluq Coca-Cola şirkətini köhnə reseptə qayıtmağa məcbur etmişdi.

# "Müharibə"nin faydası da olurmuş...




Ümumiyyətlə, iki içki istehsalçısının reklam kampaniyaları xüsusi diqqətə layiqdir. Hər iki şirkət reklamlara külli miqdarda pul xərcləyirlər. Məsələn, 1975-ci ildə Coca-Cola reklam üçün təxminən 25 milyon dollar, PepsiCo isə 18 milyon dollar xərcləmişdi.1985-ci ildə bu rəqəmlər müvafiq olaraq 72 milyon və 57 milyon dollara yüksəlmişdi. 1995-ci ildə reklam büdcəsi 112 milyon dollar olan PepsiCo, reklama 82 milyon dollar xərcləyən Coca-Cola-nı geridə qoymağı bacarmışdı. Kampaniyalara idmanın və şou-biznesin ən parlaq ulduzları da cəlb olunurdu. Elton Con, Kristina Aqilera, Maykl Cekson, Sindi Krouford, Devid Bekhem, Ronaldu Kriştianu, Leo Messi, Ceki Çan və başqaları "cola müharibəsi"nin iştirakçılarına çevrilmişdilər.

Əlbəttə, hər iki şirkət bu mübarizədə müəyyən risklərlə üzləşirdi, lakin sonda qarşıdurma həm PepsiCo, həm də Coca-Cola üçün faydalı oldu. Birincisi, qazlı




oldu. Tarixə "Cola müharibəsi" kimi düşən müharibədə müxtəlif vasitələrdən istifadə edildi. Məsələn, 1975-ci ildə PepsiCO pulsuz dequstasiyasını nəzərdə tutan The Pepsi Challenge kampaniyasını aparmışdı. Təxminən 100 min insan kampaniyaya qatılmış və PepsiCo dequstasiyada iştirak edənlərin yarıdan çoxunun üstünlük verdiyi içki olmuşdu. Uğurla həyata keçirilən bu kampaniya nəticəsində PepsiCo öz istehlakçılarının sayını əhəmiyyətli dərəcədə artıra bilmişdi.

Maraqlıdır ki, bu araşdırmanın nəticələrini təkzib etmək üçün Coca-Cola da analoji kampaniyaya 1 milyon dollar xərcləmiş, lakin nəticələr yenə də rəqibinin xeyrinə olmuşdu. Coca-Cola özünü ailə içkisi kimi təqdim edirdi, PepsiCo isə qazlı içkilərin bazarda payı artdı. 1970-ci ildə qazlı içkilərin satışı ABŞ-də bütün içkilərin 12,4 faizini təşkil edirdi, 1985-ci ildə bu rəqəm 22,4 faizə çatdı. Həmin dövrdə Coca-Cola lider olaraq qalsa da (şirkət bazarın təxminən üçdə birini tuturdu), 1990-cı illərdə PepsiCo-nun payı 20 faizdən 30 faizə yüksəldi. 2019-cu ildə qazlı içkilərin satışı Amerikada 77 milyard dollar, dünya üzrə isə 312 milyard dollardan çox olmuşdu. Nüfuz uğrunda müharibə hər iki şirkətə fayda gətirmişdi. Ona görə ki, bu gün Co-ca-Cola və PepsiCo hələ də bu seqmentin aparıcı oyunçuları hesab edilirlər.

**Hazırladı:**
**S.ELAY**
**XQ**


## "BAKI YOLTİKİNTİSERVİS" ASC səhmdarlarının nəzərinə!

25 dekabr 2024-cü il saat 11.00-da "Bakı yoltikintiservis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.İcra orqanının – ASC sədrinin seçilməsi.

2. 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və təsdiqi.

3. Digər məsələlər.

Telefon - (050) 350- 90- 50.

Ünvan - Bakı şəhəri, Sabunçu rayonu, Balaxanı-Binəqədi şossesi 11.

***"Bakı yoltikintiservis" ASC-nin sədri***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 246 (30650) 7 noyabr 2024-cü il, cümə axşamı

## İdman xəbərləri

### Xarici idman əməkdaşlığı

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyində Anqolanın gənclər və idman nazirinin müavini Paulo Rodriqes da Silva ilə görüş olub.**



AGİN-in mətbuat xidmətindən bildirilib ki, gənclər və idman naziri Fərid Qayıbov qonağa son illərdə Azərbaycanda bu sahədə görülən işlər, qazanılan uğurlar barədə məlumat verib, ölkələr arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Anqola arasında ikitərəfli əməkdaşlıq əlaqələri müzakirə olunub.

### Veteran cüdoçumuz dünya çempionudur

**Amerika Birləşmiş Ştatlarının Las-Veqas şəhərində keçirilən dünya çempionatında Azərbaycanın daha bir veteran cüdoçusu qalib adını qazanıb. M1 yaş kateqoriyası üzrə 90 kiloqram çəki dərəcəsində çıxış edən Mərdan Qədirli bütün rəqiblərini məğlub edərək qızıl medala layiq görülüb.**



100 kiloqram çəkidə İntiqam Ələkbərov (M3) isə bürünc mükafata sahib çıxıb.

Qeyd edək ki, bundan əvvəl 90 kiloqram çəki dərəcəsində Fərhad Rəcəbli (M8) qızıl medal qazanaraq 12 qat dünya çempionu olub. Mundiala noyabrın 7-də yekun vurulacaq.

### 3 yaşlı şahmatçı

**Hindistan şahmatçısı Aniş Sarkar Beynəlxalq Şahmat Federasiyasının (FIDE) reytinqinə daxil olan ən gənc oyunçu kimi tarixə düşüb.**



Sarkarın 31 oktyabr tarixinə reytinqi 1555-dir.

Qeyd edək ki, buna qədər tarixdə FİDE reytinq xalları alan ən gənc şahmatçı Hindistanın digər təmsilçisi Tejasa Tivari olub. O, 2023-cü ilin reytinqinə daxil edildiyi zaman onun 5 yaşı olub.

*Leyla QURBANOVA*
*XQ*

## Sənət korifeyləri

# İnsan ruhunu filmə gətirən rejissor

**Müharibə böyüklərdən daha çox uşaqların həyatını yaralayır. Hardasa belə bir cümlə oxumuşdum: “Sülh zamanı oğullar atalarını, savaş zamanı isə atalar oğullarını torpağa gömür”.**



“İvanın uşaqlığı” Tarkovskinin ilk tammetrajlı filmidir. Rejissor bu filmdə müharibənin gerçək üzünü mükəmməl şəkildə yaxalaya bilib. Bu film mənə Andrey Platonovun bir vaxtlar dilimizə çevirdiyim “Balaca əsgər” hekayəsini xatırladır. Motiv eynidir – əsgərlər balaca Seryojaya dəmir yol vağzalında rast gəlirlər və ona məsləhət görürlər ki, müharibəyə can atmasın, hələ özünü axtarıb tapmalıdır, böyüyəndən sonra cəbhəyə gedə bilər. Seryoja ilə İvanı birləşdirən cəhətlər çoxdur. Yüzlərlə Seryojaların, İvanların uşaqlığı müharibənin ağır tankları altında qalıb məhv olmuşdu. Tarkovski onların əlindən alınmış uşaqlığını lentə almışdı.



İvanın yuxuları müharibəsiz dünyanı əks etdirir. Tək qaldıqda gerçək savaşın içində savaş oyunu oynarkən keçmişinin simvollarıyla bütünləşdiyi anı yaşadığı epizod İvanın iç dünyasını açmaq baxımından olduqca möhtəşəm səhnədir. Əgər iki meyit sizə “xoş gəldiniz” deyirsə, 18 yaşına yenicə çatmış yeniyetmələr savaşa atılmaq məcburiyyətində qalırsa, uşaqlar intiqam almaq ehtirasıyla alışıb-yanırsa, ruhlar acılar içində qıvrılır. Təsirli səhnələrdən biri də almanların arvadını öldürdükləri qocanın divarları uçmuş evini nizama salmaq üçün uğursuz cəhdlər etməsi, divarsız evin qapısını örtməsi məqamıdır. Müharibə ocaqların sönməsi deməkdir, ocağın yanmağa davam etməsi insanların ümidlə yaşadığına işarədir.

Ağlını itirmiş bir dəlinin insanlığa mesaj ötürməsi detalı sonralar Tarkovskinin başqa bir filmində – “Nostalgiya”da istifadə olunur. A.Tarkovski insanın ruhuna toxunan rejissordur, buna görə onu kinonun şairi adlandırırlar. O, kameranı ruhun dərinliklərinə yönəltməyi bacarır, seyrçi ilə film arasında məsafə yaradır və tamaşaçının o məsafəni qət etməsi üçün bir az da intellektuallıq, fəhm tələb olunur. Tarkovskinin bəlkə də ən asan həzm olunan filmi elə “İvanın uşaqlığı”dır.

İvan valideynlərini itirib, kazarmadakı əsgərləri öz ailəsi hesab edir, tək qalanda xəyali savaş, intiqam səhnələri qurur. O, cüssəsiz bədəninə ağır gələn ruhu daşımaqda çətinlik çəkir.

Ölümün içində davam edən həyat, xatirələrdən sıyrılmış keçmiş, müharibənin vahiməsiylə çiliklənən uşaqlıq... At və almalar həyatı simvolizə edir. Bu filmdə müharibədən daha çox onun bir insanın taleyindəki məhvedici rolu qabardılıb. Tarkovski İvanın hekayəsinə yarımçıq qalmış sevgi süjetini də daxil edib. Leytenant Qaltsev və Maşanın duyğuları odun-alovun içində belə məhəbbətin və sabaha ümidin işartısı kimi təqdim edilir.

Müharibə öz ardınca dağıntılar, itkilər buraxır, savaş bitsə də, qələbə müharibənin çirkin simasını dəyişmək gücündə deyil. Müharibə bitir, əsgərlər dağıntılar içində güllələnənlərin şəxsi işlərinə rast gəlirlər. O qovluqların içində İvanın şəkli diqqəti çəkir. Onu da güllələyiblər...

Filmin sonunda rejissor yenə müharibəsiz dünyanı təsvir edir: dənizin sahili ilə bir qız uşağı qaçır, İvan da xoşbəxtcəsinə qızın ardınca qoşur. Tamaşaçı gözləyir ki, indicə İvan ona çatıb qızı tutacaq, amma belə olmur. İvan qızı ötüb keçir və irəliyə qaçmaqda davam edir. Qaçır, qaçır, qaçır, qaçır...

Tarkovskisayağı möhtəşəm sonluq. Bu film onun bəşəriyyətə ilk mesajı idi...

Sovet sisteminin qadağaları Andrey Tarkovskinin azad ruhunu buxovlaya bilmədi. O, hər zaman insanın ruhsal bir varlıq olduğuna inanırdı. “Sənət yaradıcı insanın aynadakı cilvəsidir. Mənəvi təməli olmayan heç bir şeyin sənətlə əlaqəsi yoxdur. Biz sənətçilər bu jesti təkrarlamaqdan başqa bir şey etmirik”. Əfsanəvi rejissor bu cür düşünürdü. “Ayna” filmi Tarkovskinin görüntüdəki həqiqətə ən çox yaxınlaşdığı filmidir. Burda da müharibənin acı nəfəsi var. Uşaqlıq, atasının gedişi, ana-oğul əlaqələri... Bu film estetik baxımdan bəlkə də Tarkovskinin ən uğurlu filmidir. Sanki, o, dünyaya məhz bu filmi çəkmək üçün gəlmişdi. Filmdə səslənən şeirlər rejissorun atası Arseni Tarkovskiyə aiddir. Sarsıdıcı görüntülərin ardından yüksələn bu şeirlər filmin sehrini bir az artırır. O şeirləri mənimsəmədən filmin tam olaraq anlaşıla biləcəyini düşünmürəm.

***Hər şey dəyişirdi,***
***ləyən, sürahi kimi sıradan şeylər belə.***
***Aramıza uzanırkən durmadan axan su,***
***sürüklənib gedərdik, qarşımızda sərab***
***kimi duran möcüzə şəhərlərə.***
***Yolumuz nanələrlə döşənmiş olar,***
***quşlar yoldaşlıq edərdi bizə.***
***Balıqlar axına qarşı üzərdi,***
***göy üzü açılarkən önümüzdə.***
***Taleyimiz təqib edərdi bizi;***
***əli ülgüclü bir dəli kimi...***

“Ayna” filminə baxarkən rejissorun bu fikirləri daha çox ağlımda səslənirdi: “İstənilən sənət növü kimi, kino da özünəməxsus poetik mənaya, özünəxas alın yazısına, fərdi taleyə sahibdir”. “Ayna”nın alın yazısı dünya kinosunun inciləri sırasında dayanmaq vardı... Bu filmi şərh etmək müşküldür. O qədər sadə və mürəkkəbdir ki... Yalnız belə demək olar: Andreyin uşaqlıq sarsıntılarının sənətdə dahiyanə ifadəsi... Hər sənətkar şəxsi taleyini sənət əsərinə çevirə bilmir axı. Tarkovski bunu bacarmış dahilərdən idi.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 5-8°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 772 mm civə sütunundan 775 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 12-17° isti, dağlarda gecə 2-5°, yüksək dağlıq ərazilərdə 5-10° şaxta, gündüz 3-7° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Şəhid övladları üçün “açıq qapı” günü

**Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi Vətən müharibəsi şəhidlərinin övladları üçün Zəfər Gününə həsr olunmuş “açıq qapı” günü keçirib.**



Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Zəfər Günü münasibətilə təbriklərini çatdıran FHN-in Cənub Regional Mərkəzinin rəisi polkovnik-leytenant Müsəddiq Əsədov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində qazanılan tarixi Qələbənin əhəmiyyətindən danışıb.

Lənkəran Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Ramal Baxşızadə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının nümayiş etdirdiyi birlikdən və xalqımızın mübarizə əzmindən söz açıb, əsgər və zabitlərimizin qəhrəmanlıqlarını qeyd edib.

Şəhid atası Fəttah Xosrofov ölkə rəhbərliyinin şəhid ailələrinə diqqət və qayğısından danışıb, gənclərin Böyük Zəfərin əldə olunmasındakı rolundan bəhs edib. O, Vətən müharibəsi şəhidlərinin övladları üçün bu kimi tədbirlərin təşkilinə görə təşəkkürünü bildirib.

***XQ***

***✓ 2023-cü ildə Dövlət Miqrasiya Xidməti tərəfindən mayor Ağayev Faiq Faiq oğlunun adına verilmiş DMX seriyalı, 1625 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayevə əzizi

**RUSLANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti psixologiya kafedrasının əməkdaşları, kafedranın dosenti Yamən Vəliyevaya anası

**SƏRİYYƏ VƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2564
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00